Rəsmi dövlət qəzeti



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 158 (8181) ÇƏRŞƏNBƏ AXŞAMI, 23 iyul 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Azərbaycanın idman tarixində növbəti parlaq səhifə

## Ölkəmizin paytaxtı “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir

**Son illərdə ardıcıl olaraq bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə evsahibliyi edən Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmizin paytaxtı “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir.**

AZƏRTAC xəbər verir ki, festivalın “Baku Crystal Hall”da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş Nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşdülər.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qürur mənbəyidir. Bu festival 14-18 yaşarası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da var.

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

“Zirvələrə hazırıq” devizi altında keçirilən “Bakı 2019” XV Avropa Gənclər Yay Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub.

*Ardı 2-ci səh.*



## Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımının ayrılması haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasında nəşr olunan qəzetlərin maddi-texniki bazasının gücləndirilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycan Respublikasında nəşr olunan qəzetlərə əlavə maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fonduna 1,0 (bir) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2019-cu il*

## 144 illik şərəfli yol

### Azərbaycanda KİV-in inkişafı dövlət siyasətinin əsas xəttini təşkil edir

144 il... Bu illər ərzində müxtəlif tənəzzül və intibah dövrləri keçən Azərbaycan mətbuatı hazırda yeni inkişaf dövrünü yaşayır. Zəngin və şərəfli yolla addımlayaraq bir neçə mərhələdən keçən milli mətbuatımız daim üzərinə düşən vəzifəni böyük şərəflə yerinə yetirməyə çalışıb.

Milli mətbuatımızın bünövrəsi 1875-ci il iyulun 22-də “Əkinçi” qəzetinin nəşri ilə qoyulub və qəzetin ilk sayında onun məramı bu cür ifadə olunub: “Bizim zəmanə dəyişməni tələb edir. O kəslər ki, həmişə etibar edib bizim sözlərimizə əməl ediblər, zəmanə dəyişilməyinə görə kökündən tərəqqi edib irəli gedirlər”. Beləliklə, qəzet ilk saylarından millətimizin inkişaf yoluna işıq saçdı.

Ölkəmiz ikinci dəfə milli müstəqilliyinə qovuşduğu dövrün ilk illərində də mətbuatımız böyük təlatümlər və çətinliklər yaşadı. Yalnız 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdan Ulu Öndər Heydər Əliyev, bütün sahələrdə olduğu kimi, mətbuatın inkişafına da böyük diqqət və qayğı ilə yanaşdı.

*Ardı 8-ci səh.*

## Əsir Ağdam məscidi

Paris Notr-Dam kilsəsinin yanmasına dərin təəssüflə baxdım...

Əsrlərin sınağından çıxan möhtəşəm dini məbəd, bəşəriyyətə məxsus olan qeyri-adi memarlıq abidəsi...

*Ancaq heç kəs məni qınamasın: Ağdam məscidi dağıdılanda, onun qırılmış daşlarından kiçik parçanı ATƏT-in Minsk qrupunun sədrlərindən biri Bakıya gətirərək Ulu Öndər Heydər Əliyevə təqdim edəndə daha çox ağrımışdım!*

**Bəlkə də içərimdə Notr-Dam kimi yanmışdım!**

**Bəli, mənə Ağdam məscidi Notr-Damdan daha doğmadır, daha əzizdir!**

**Nə olsun ki, həcmcə kiçikdir!**

**Nə olsun ki, dünya mədəniyyəti incilərindən sayılmır!**

**Axı hər ikisi bir nöqtədə birləşir: çünki hər ikisi Allahın evi sayılır!**

*Bax: səh. 6*

## Pəhləvanlarımızın zəfər yürüşü

Güləş ölkəmizdə ən populyar idman növlərindən olmaqla yanaşı, kütləvilik baxımından da ön sıralardadır. Tarixi kökü olan bu idman növü Azərbaycanda heç vaxt ənənəsini itirməyib.

Azərbaycanlı pəhləvanlar iştirak etdikləri istənilən turnirin favoritləridir. Təkcə Rio-de-Janeyro Olimpiadasında qazanılan 18 medaldan 9-nun, ötən ay Minskdə keçirilmiş II Avropa Oyunlarında 28 medaldan 10-nun güləşçilərin payına düşməsini demək kifayətdir.

Bu səbəbdən paytaxtımızda təşkil olunan Avropa Gənclərinin XV Yay Olimpiya Festivalında medal gözlənilən idman növlərindən biri də güləşdir. Artıq Heydər Əliyev adına İdman Sarayında ilk yarış günündə həm sərbəst, həm də yunan-Roma güləşi üzrə 45 kq və 55 kq çəki dərəcələrində yarışlara start verilib. Festivalın birinci günündə güləşçilərimiz 2 qızıl, 1 gümüş və 1 bürünc medal qazanıblar. Yunan-Roma güləşçilərimizdən Fərid Sadıqlı (45 kq) qızıl, Nihad Məmmədli (55 kq) bürünc, sərbəst güləşçilərimizdən isə Murad Haqverdiyev (45 kq) qızıl, Əbülfəz Nəsirov (55 kq) gümüş medala sahib olublar.

*Ardı 9-cu səh.*

# Azərbaycanın idman tarixində növbəti parlaq səhifə

## Ölkəmizin paytaxtı "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir








*Əvvəli 1-ci səh.*









İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcək.

Qeyd edək ki, Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb.

1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub.

2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilən festivalda isə 1 gümüş və 1 bürünc medal qazanılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycanın paytaxtında keçirilən Avropa Gənclər Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edirlər. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Bakının əvvəlki turnirlərdə olduğu kimi, bu festivala da uğurla evsahibliyi edəcəyini vurğulayaraq deyib: "Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Bakı özündə digər əsas komponentləri - yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. İnanıram ki, XV Avropa Gənclər Yay Olimpiya Festivalı böyük müvəffəqiyyətlə keçəcək".

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli açılış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bakı vaxtı ilə saat 20:00-da XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başladı.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaltdılar.

Bundan sonra demək olar ki, bütün Olimpiya tədbirlərinin açılış mərasimlərinin ənənəvi hissəsi olan atletlərin paradı başladı.

İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onların arxasınca əlifba sırası ilə gəldilər.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Üçrəngli bayrağımızı 15 yaşlı cüdoçu, 2018-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının və Avropa Kubokunun qalibi Vüqar Talıbov apardı.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və "Baku Crystal Hall"a toplaşmış tamaşaçılar idmançılarımızı hərarətlə salamladılar.

Atletlərin paradından sonra festivala evsahibliyi edən Azərbaycan haqqında film nümayiş etdirildi. Filmdə ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, eləcə də paytaxt Bakının görməli yerləri haqqında kadrlar nümayiş olundu.

Azərbaycan Respublikası Baş Nazirinin birinci müavini, XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç səhnəyə gəldilər.




XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri **Yaqub EYYUBOV** çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Yanes Kosyançiç.

Hörmətli beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar, xanımlar və cənablar.

XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Odlar yurdu Azərbaycana gəlmiş bütün dəyərli qonaqları səmimi-qəlbdən salamlayır, zəngin mədəniyyətə və tarixə malik ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan yüksək idman nailiyyətlərinə malik bir ölkədir. Bu nailiyyətlərin əsası isə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz onun təşəbbüsü ilə Azərbaycan beynəlxalq Olimpiya hərəkatına qoşulmuş, ölkəmizdə Olimpiya komplekslərinin, müxtəlif idman qurğuları və mərkəzlərinin tikintisinə start verilmişdir. Azərbaycanı müasir, dünyəvi, sabit və demokratik bir ölkəyə çevirən Heydər Əliyevin uzaqgörən siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev əzmlə davam etdirir. Onun idmançılara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində əldə edilən nailiyyətlər müqayisə olunmayacaq dərəcədə artmışdır. Hazırda Bakı şəhərində və Azərbaycanın bütün regionlarında 50-yə yaxın Olimpiya İdman Kompleksi fəaliyyət göstərir ki, bu da güclü idmançılar hazırlanması ilə yanaşı, əhalinin sağlam həyat tərzi sürməsinə də hərtərəfli şərait yaradır.

Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu silsilədən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədri olduğu Təşkilat Komitəsinin rəhbərliyi ilə Bakı şəhərində keçirilmiş ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq miqyaslı idman tədbirləri yüksək peşəkarlığı ilə bütün dünyada əks-sədaya səbəb olmuşdur. Biz əminik ki, bu gün açılışını etdiyimiz və Avropanın 48 ölkəsindən təqribən üç mindən çox gənc idmançının qatıldığı XV Avropa Gənclər Olimpiya Festivalı da ən yüksək səviyyədə keçirəcəyimiz növbəti idman tədbirlərindən biri olacaqdır. Yarışlar Bakıda 12 möhtəşəm idman arenasında idmanın 10 növü üzrə keçiriləcəkdir.

Əziz gənc atletlər, bizim üçün çox sevindirici haldır ki, siz ilk böyük beynəlxalq uğurunuzu məhz Azərbaycanda qazana bilərsiniz. Heç şübhəsiz deyə bilərik ki, sizlərin sırasında gələcək Olimpiya, dünya və Avropa çempionları olacaqdır. Əminik ki, siz gənclər aparacağınız idman mübarizəsi ilə yanaşı, bir-birinizlə yaxından tanış olacaq, özünüzə çoxlu dost və rəfiqə tapacaq, öz bacarıq, mədəniyyət və tarixlərinizi də paylaşacaq, o cümlədən keçmiş və müasirliyin vəhdətini təşkil edən əzəmətli Bakımızın füsunkar gözəlliyindən zövq alacaqsınız.

Ənənəvi olaraq bu festivalın işinə də könüllülər cəlb olunmuşdur. 3500 gənc könüllü festivalın təşkili və yüksək səviyyədə keçirilməsində yaxından iştirak edəcək. Biz onların hər birinə dərin təşəkkür və ehtiramımızı bildiririk.

Möhtərəm cənab Prezident, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsi Avropa Olimpiya Komitələrinin qarşımıza qoyduğu bütün tələbləri yerinə yetirmişdir və Azərbaycan bu festivalın keçirilməsinə tam hazırdır.

Fürsətdən istifadə edib bu mötəbər yarışın keçirilməsində Azərbaycana etimad göstərmiş Avropa Olimpiya Komitələrinin rəhbərliyinə dərin minnətdarlığımızı bildirirəm.

Bütün gəncləri, bütün idman ictimaiyyətini bu bayram münasibətilə bir daha ürəkdən təbrik edir, gənc idmançılara qələbə sevincləri və azarkeşlərin böyük marağına səbəb olacaq gərgin mübarizə nümayiş etdirməyi arzulayıram.

Əziz gənclər, qoy bu festival sizin üçün idman, sülh və dostluq bayramı olsun.

Sonra Avropa Olimpiya Komitələrinin prezidenti **Yanes KOSYANÇİÇ** çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri cənab İlham Əliyev.

Hörmətli rəsmilər.

Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvləri.

Avropa Milli Olimpiya Komitələrinin prezidentləri və katibləri.

Hörmətli idmançılar.

Əziz azərbaycanlı idmansevərlər.

Biz əllinci Avropa Olimpiya Komitəsinin nümayəndələri üçün Bakıya, Odlar yurdunun küləklər şəhərinə gəlmək, elə öz evimizə gəlmək deməkdir. Dörd il öncə biz sizin əvəzolunmaz köməyinizlə ilk Avropa Oyunlarını təşkil etdik. Həmin oyunlar möhtəşəm hadisə oldu və Belarusda, Minskdə ikinci oyunlar keçirildikdən, həmçinin Polşanın Malopolska bölgəsinin Krakov şəhərində üçüncü oyunların təşkil olunması haqqında qəbul edilmiş qərardan sonra fəxrlə deyə bilərik ki, biz birlikdə yeni ənənəni başladıq. Biz yeni Avropa Olimpiya irsinin təməlini qoyduq.

Sizin təşkilatçılıq bacarığınıza və bu sahəyə bağlılığınıza bizim heç bir şübhəmiz yoxdur. Sizin qətiyyətiniz, işinizin keyfiyyəti, könüllülərinizin mehribanlığı bizə məlumdur. Biz bilirik ki, ölkənizin ən yaxşı sərmayəsi onun gənclərinə qoyulan sərmayədir.

Hörmətli idmançılar,

Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır. Bu, sizin üçün çox az sayda istisnalarla çox idman növlü ilk Olimpiya təcrübəsidir. Bu, sizdə idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada sizin bacarığınızı nümayiş etdirmək üçün nadir şans var.

*Ardı 3-cü səh.*

# Azərbaycanın idman tarixində növbəti parlaq səhifə

## Ölkəmizin paytaxtı "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına evsahibliyi edir

















*Əvvəli 2-ci səh.*

Bu şans göstərir ki, siz yarışlarda qələbəyə qadirsiniz və ola bilsin ki, digər Avropa ölkələrində sizinlə həmyaşıd olan qız və oğlanlardan daha yaxşısınız.

Bu, həmçinin Avropada idmançıların yeni nəslinin Olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, inklüzivlik, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir.

Mən, həmçinin Bakı sakinlərini və Azərbaycan xalqını səmimi-qəlbdən salamlayıram. Bizi bir daha qəbul etdiyinizə görə çox sağ olun!

❖ ❖ ❖

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan etdi.

❖ ❖ ❖

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı arenaya gətirildi. Bayrağı Azərbaycanın tanınmış idmançıları, Olimpiya çempionları Elnur Məmmədli (cüdo), Zemfira Meftaxetdinova (atıcılıq), Nazim Hüseynov (cüdo), Namiq Abdullayev (güləş), Rəfiqə Şabanova (həndbol) və Lyudmila Şubina (həndbol) arenaya gətirdilər.

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı bu qurumun himninin sədaları altında Azərbaycanın bayrağı ilə yanaşı ucaldıldı.

Sonra Fəxriyə Tağızadə atletlər, Ələkbər Həsənov hakimlər və Rəşad Əbdürrəhmanov məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və Olimpiya hərəkatının prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olmasını xatırladır.

Daha sonra ən həyəcanlı an gəlib yetişdi və 2004-cü ildə Afina Olimpiadasının qalibi, yunan-roma güləşçisi Fərid Mansurov XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəlini "Baku Crystal Hall"un məşəl kasasına gətirdi.

Bu zaman ekranda "Məşəlin yolu" filmi nümayiş olundu.



Kadrlarda məşəlin paytaxtın bütün idman obyektləri boyunca möhtəşəm səyahəti və statistika təqdim edildi. Festivalın məşəli açılış mərasiminin keçirildiyi "Baku Crystal Hall"a çatana qədər Roma şəhərindən çox böyük yol qət edib.

XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəli alovlandırıldı. Məşəl yarışlar bitənədək yanacaq, şəhərimizin mayakı olacaq.

Məşəlin yandırılmasından sonra "Qələbə elementləri" səhnə şousu nümayiş etdirildi. "Welcome to Azerbaijan" ("Azərbaycana xoş gəlmisiniz!") - Avropa Gənclər Yay Olimpiya Festivalının açılış mərasiminin art şousunun birinci hissəsi belə adlanır. Ekranlarda Bakının fantastik mənzərəsi görünür. Bu mənzərəni fantastik edən sadəcə onun gözəlliyi yox, həm də burada şəhərin bütün tarixi və müasir görməli yerlərinin bir araya gəlməsidir. Bəli, bu, Bakıdır! Həm qədim, həm də çox müasir. Ənənələri qoruyan və yeniliklərə açıq Bakı. Bu yeniliyin rəmzi fəal və həyat gücü ilə zəngin gənclərdir. Səhnədəki dinamik kompozisiyada rəqqaslar, akrobatlar, parkur və breyk-dans ustaları öz məharətlərini göstərirlər. Bütün art şounun quruluşunda təxminən beş yüz gənc iştirak edib. Bu günün hekayəsi zəfərə aparan yol haqqındadır.

Sonra "Külək haqqında əfsanə" süjeti təqdim olundu. Bu hekayənin baş qəhrəmanları oğlan və qızdır. Onlar öz valideynləri ilə Bakının rəmzlərindən biri olan küləyin adı ilə şəhərin yaranmasını söyləyirlər. Azərbaycan - Odlar Yurdudur, Bakı isə küləklər şəhəridir. O, Xəzər dənizi ilə əhatə olunan yarımadada, hər üç tərəfdən küləyə açıq olan məkanda yerləşir. Ekranda Azərbaycanın təbiətini, onun zənginliyi və nadirliyini görürük.

Daha sonra "Şəhərin yaranması" kompozisiyası təqdim edildi. Şəhərin ruhu oyanır. Bu şəhərdə insan yaratmaq, sevmək və yaşamaq istəyir. Səhnədə şəhərin salınması simvolik olaraq nümayiş etdirildi. Səhnədə iri butafor kərpiclər, pilləkənlər, fənərlər və evlər daşıyan rəqqaslar "Şəhərin doğulması" teatr-rəqs tamaşasını ifa etdilər. Akrobat və rəqqaslar hərəkətli və müasir paytaxtın mənzərəsini yaratdılar. Bu nömrədə çoxlu rekvizit və dekorasiyalardan istifadə edilib (evlərin fasadı, nəhəng kərpiclər, gül ləkləri, ağaclar, skamyalar, fənərlər). Kompozisiyada şəhərin necə yarandığı nümayiş olundu. Beləliklə, səhnədə rəmzi şəhərin tikintisi sona çatdı və işlərin yekunlaşmasını bayram etmək vaxtı gəldi.

Bunun ardınca "Şəhər Günü Bayramı" adlı vokal-xoreoqrafik kompozisiya təqdim olundu. Səhnədə vokalçılar, musiqiçilər, rəqqaslar və aktyorlar çıxış etdilər. İstənilən ölkənin xalqını yaxşı tanımaq üçün yəqin ki, onun bayramlarını necə keçirdiyinə baxmaq lazımdır. Azərbaycanın bayramlarında mədəniyyət zənginliyi, milli kolorit və xalqın ənənəsi yaşayır. Əlbəttə ki, hər bir qonaq məşhur Azərbaycan qonaqpərvərliyini mütləq yüksək qiymətləndirir. Paytaxt Bakının əsas gözəlliyi onun nadir memarlığından və sakinlərindən qaynaqlanır. Paytaxtın küçələri ilə gəzişərkən qeyri-ixtiyari olaraq bu şəhərin öz ab-havası və ruhu olduğunu düşünürsən. Burada insanlar da fərqlidir. Onlar qonaqpərvər və mehribandır, ilk çağırışında sənə kömək etməyə hazırdırlar. Onlar ürəyiaçıq və səmimidirlər. Bakı şəhərinin əsl dəyəri də elə bundadır.

Açılış mərasiminin daha bir maraqlı məqamı "Elementlər" adlanır. "Həyat kitabı", "Od", "Xarıbülbül gülü", "Çörək" və "Zeytun budağı" - bu rəmzlərin hər biri adət-ənənələri, nəsillərin enerjisini və xalq mədəniyyətini özündə əks etdirir. Səhnədə artistlər qismində Azərbaycan Gimnastika Federasiyasının idmançıları çıxış edirlər.

"Həyat kitabı" - əcdadların müdrikliyi və ruhunun gücü insana doğru yol seçməyə kömək edir. Həyat kitabı müdriklik və bilik mənbəyidir.

"Od" - ruha və millətin gücünə inam atəşi. O, insanları ruhlandırır. Zərdüştlərin Atəşgah məbədi sönməyən alovu ilə əsrlər boyu bütün dünyanın zəvvarlarını cəlb edirdi: illər və əsrlər keçir, dünya dəyişir, məbəd isə yerində qalır və iztirab çəkən insanların yollarına nur saçır. Yerdən çıxan alov idmançılarımıza zəfərə gedən yolda hər zaman kömək edir.

"Xarıbülbül gülü" - görünməmiş gözəlliyə malik Xarıbülbül gülü yalnız Azərbaycanda bitir. Öz görünüşünə görə xarıbülbül gülü bülbülə bənzəyir: iki ləçək onun qanadları, mərkəzdəki bir ləçək isə dimdikli quş başına bənzəyir. Gülün adı da elə bundan əmələ gəlib: "xar" Azərbaycan dilində tərcüməsi "tikan", "bülbül" isə - bülbül deməkdir. Bir çox əfsanə və rəvayətlər bu valehedici və zərif gül ilə bağlıdır.

"Çörək" - ananın bişirdiyi çörək yaşam gücü verir. Nəsil, inamın gücü və Vətən sevgisi qəhrəmanı zəfərə aparan yola gətirir. Bu an muğam səslənir. 2008-ci ildə UNESKO muğamı bəşəriyyətin şifahi və qeyri-maddi irsinin şah əsərlərindən biri kimi elan edib.

"Zəfər" - idmançılara güc və çeviklik, enerji və dözümlülük, mübarizlik və dəqiqlik lazımdır. İndi bütün bu keyfiyyətləri gənc azərbaycanlı idmançılar arenada nümayiş etdirirlər. Bu idmançılardan hər biri, əlbəttə ki, zəfərin rəmzi olan zeytun budağına layiqdir.

Nəhayət, təntənəli mərasimin "Final" kompozisiyası başladı. Avropa Gənclər Yay Olimpiya Festivalının - "Bakı 2019"un hər bir iştirakçısı indi öz arzusunu, öz yolunu xatırlayır və ümid edir ki, bu yol onu qələbəyə aparacaq. Bütün idmançılara uğurlar, layiqli rəqiblər və qələbə əzmi arzulayırıq. Qoy, doğma evi xatırladan çörək, arzuya aparan alov, əcdadların güc və müdrikliyini verən kitab, sülh və sevgi rəmzi olan xarıbülbül hər zaman onlarla olsun. O zaman zəfər rəmzi olan zeytun budağının başlarının üzərində ucaldılacaq an daha da yaxınlaşacaq.

Sonda bütün iştirakçı ölkələrin bayraqları səhnədə dalğalandı.

"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başa çatdı.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən daha bir mərasimlə festivalın tarixində mühüm yer tutacaq növbəti parlaq səhifə yazdı.

# Misir Ərəb Respublikasının Prezidenti zati-aliləri cənab Əbdülfəttah əs-Sisiyə

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı - İnqilab Günü münasibətilə Sizə və xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm.

İnanıram ki, Azərbaycan-Misir əlaqələri, ənənəvi dostluq və əməkdaşlıq münasibətlərimiz xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Bu xoş gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Misir xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 iyul 2019-cu il*

# Çindən Azərbaycana yük qatarının gəlməsi əməkdaşlığın iqtisadi sahədə yaxşı perspektivlərə malik olmasının göstəricisidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 22-də Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Taonun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlət başçısı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Çinə son səfərini məmnunluqla xatırlayan Prezident İlham Əliyev Çin Xalq Respublikasının Sədri Si Cinpinlə görüşü zamanı münasibətlərimizin gələcək inkişafı ilə bağlı səmərəli danışıqların aparıldığını qeyd etdi və bu səfər zamanı 10 mühüm sənədin imzalanmasının və Çinin aparıcı şirkətlərinin rəhbərləri ilə keçirdiyi görüşlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmli olduğunu dedi. Prezident İlham Əliyev bu yaxınlarda Çinin Sian şəhərindən Azərbaycana yük qatarının gəlməsini əməkdaşlığımızın iqtisadi, nəqliyyat sahələrində yaxşı perspektivlərə malik olmasının göstəricisi kimi dəyərləndirdi. Dövlət başçısı münasibətlərimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin rolunu qeyd edərək Çinin Xarici İşlər nazirinin bu il ölkəmizə səfərinin əlaqələrimizin yaxşı göstəricisi olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao, ilk növbədə, Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarını dövlətimizin başçısına çatdırdı. Sun Tao qeyd etdi ki, Çin Xalq Respublikası Sədrinin və Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə müxtəlif sahələri əhatə edən əlaqələrimiz uğurla inkişaf edir. Qonaq qeyd etdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən və düşünülmüş siyasəti nəticəsində ölkəmizdə bütün sahələrdə ciddi uğurlar qazanılıb.

Sun Tao bu ilin aprelində Pekində keçirilən "Bir kəmər, bir yol" beynəlxalq forumunda Prezident İlham Əliyevin iştirakının önəmini qeyd etdi. O, bu səfər zamanı Çin Xalq Respublikasının Sədri ilə Azərbaycan Prezidenti arasında əlaqələrimizin genişləndirilməsi ilə bağlı mühüm razılaşmaların əldə edilməsinin əhəmiyyətini vurğuladı.

Dövlət başçısı Çin Xalq Respublikasının Sədri Si Cinpinin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Çin Xalq Respublikasının Sədrinə çatdırmağı xahiş etdi.

Görüşdə iki ölkənin hakim partiyaları arasında əlaqələrin inkişafından məmnunluq ifadə olundu və bu çərçivədə gənclərin, elm adamlarının və ictimai xadimlərin səfər mübadilələrinin həyata keçirilməsinin vacibliyi qeyd edildi.

# Azərbaycan cəmiyyətində mətbuatın rolu yüksək qiymətləndirilir



İyulun 22-də Baş Nazirin müavini, Yeni Azərbaycan Partiyası Sədrinin müavini-icra katibi Əli Əhmədov Milli Mətbuat Günü münasibətilə kütləvi informasiya vasitələrinin nümayəndələri ilə görüşüb.

Əli Əhmədov jurnalistləri peşə bayramı münasibətilə təbrik edərək onlara fəaliyyətlərində uğurlar arzulayıb. Azərbaycanda hər il milli mətbuat gününün yüksək səviyyədə qeyd olunduğunu deyən Əli Əhmədov bu faktı cəmiyyətin mətbuata verdiyi önəmin ifadəsi kimi dəyərləndirib. Bildirib ki, mətbuat bütün cəmiyyətlərdə, o cümlədən Azərbaycan cəmiyyətində söz, fikir, ideya azadlığının həyata keçirilməsində əhəmiyyətli rol oynayan vasitələrdən biridir. "Müasir həyatı mətbuatsız, informasiyasız təsəvvür etmək mümkün deyil. Cəmiyyət inkişaf etdikcə, müasirləşdikcə informasiyanın və informasiyanı insanlara çatdıranların rolu və əhəmiyyəti getdikcə artır. Bu mənada mətbuatın cəmiyyətdə müsbət rolu həmişə qiymətləndirilir"-deyən YAP Sədrinin müavini söyləyib ki, müasir Azərbaycan cəmiyyəti də söz və mətbuat azadlığını daim həyata keçirmək üçün mətbuatın rolunu yüksək qiymətləndirir.

Azərbaycanda çoxlu sayda KİV-in mövcud olduğunu deyən Əli Əhmədovun sözlərinə görə, onlar insanların informasiya ilə təmin olunmasında vacib rol oynayırlar. Eyni zamanda yeni çağırışların nümunəsi olan sosial şəbəkələr də çox vacib informasiya vasitəsi funksiyasını yerinə yetirirlər. Beləliklə, söz və mətbuat azadlığı yeni texnologiyaların meydana gəlməsi ilə əlaqədar olaraq daha da genişlənib. Bu gün hər bir insan sosial şəbəkələr vasitəsilə informasiya ötürücüsü funksiyasını yerinə yetirə bilir. Bütün bunlarla yanaşı, sosial şəbəkələrdə qeyri-obyektiv, həqiqətdən uzaq olan, yalan məlumatların da yayıldığını deyən Baş Nazirin müavini bildirib ki, bu tipli informasiyalar insanlarda narahatlıq yaradır. Onun sözlərinə görə, dünya ölkələrində də belə xoşagəlməz hallar var və bunun həlli yolları axtarılır.

Azərbaycanın dinamik inkişaf etdiyini, əhalinin rifahının daha da yüksəldilməsi üçün dövlət tərəfindən lazımi addımların atıldığını deyən Əli Əhmədov bu ilin əvvəlindən sosial sahədə aparılan islahatları xatırladıb. Qeyd edib ki, islahatlar digər sahələrdə də davam edir. Baş Nazirin müavini söyləyib ki, ölkəmiz böyük layihələr həyata keçirir və bu layihələrin uğurla yekunlaşması üçün bütün imkanlar səfərbər olunub: "Azərbaycan bir sıra qlobal layihələrin təşəbbüskarı və iştirakçısıdır, eləcə də regionda tranzit mərkəzi kimi rolunu artırır. Həmçinin ölkəmizin beynəlxalq proseslərdə iştirakçılığı artır. Beləliklə, böyük inkişaf mərhələsi yaşayırıq. Azərbaycanın gələcəyi daha parlaqdır, insanların həyatı daha da yaxşılaşacaq, iqtisadiyyatımız daha da güclənəcək, beynəlxalq müstəvidə nüfuzumuz daha da yüksələcək. Bütün bunların nəticəsi olaraq dövlətin gücünün və qüdrətinin artması müəyyən xarici dairələrdə qısqanclıq yaradır. Bu səbəbdən də ölkəmizə qarşı təxribatlar törətməyə çalışırlar. Təəssüf ki, bu prosesdə bəzi vətəndaşlarımız da iştirak edir. Amma bu cür təxribatların Azərbaycanda geniş yayılması üçün mühit və zəmin mövcud deyil. Təxribatçılar qarşısına qoyduğu məqsədlərə nail ola bilmir. Çünki cəmiyyətimiz təxribata uymur, onun qarşısının alınmasında dövlətlə eyni mövqedən çıxış edir. Sabitlik, əmin-amanlıq cəmiyyətimizin ən böyük üstünlüklərindəndir. Prezident İlham Əliyevin siyasəti xalqımız tərəfindən birmənalı olaraq dəstəklənir. Çünki bu siyasət xalqımızın rifahının yüksəlməsinə, dövlətimizin daha da möhkəmlənməsinə xidmət edir. Mətbuat da bu reallıqları aydın dərk edir".

Əli Əhmədov qeyd edib ki, ölkə mətbuatı bu prosesləri düzgün təhlil edir və milli maraqlarımızın müdafiəsi mövqeyindən çıxış edir. Bu da çox mühüm amildir. Eyni zamanda mətbuat ölkəmizin nüfuzuna kölgə salmaq istəyən dairələrin ifşası və onların əsl niyyətinin cəmiyyətimizə çatdırılmasında öz işini daha da gücləndirməlidir.

"Yeni Azərbaycan Partiyası fəaliyyətində mətbuatla əməkdaşlığa böyük əhəmiyyət verir. Bizim fəaliyyətimiz mətbuatsız mümkün deyil və mətbuatla əməkdaşlıqdan məmnunuq" - deyən YAP Sədrinin müavini bu əməkdaşlığın gələcəkdə də davam etdiriləcəyini bildirib.

Görüşdə bir qrup jurnalistə, o cümlədən "Azərbaycan" qəzetinin əməkdaşına Milli Mətbuat Günü münasibətilə mükafat təqdim edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 4 (II kitab), maddə 251, № 5, maddə 323, № 12, maddə 835; 2001, № 1, maddə 24, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddələr 236, 248, 258, № 6, maddə 326, № 8, maddə 465; 2003, № 6, maddələr 276, 279, № 8, maddələr 424, 425, № 12 (I kitab), maddə 676; 2004, № 1, maddə 10, № 4, maddə 200, № 5, maddə 321, № 8, maddə 598, № 10, maddə 762, № 11, maddə 900; 2005, № 1, maddə 3, № 6, maddə 462, № 7, maddə 575, № 10, maddə 904, № 11, maddə 994; 2006, № 2, maddələr 71, 72, 75, № 5, maddə 390, № 12, maddələr 1008, 1020, 1028; 2007, № 2, maddə 68, № 5, maddə 398, № 6, maddələr 560, 562, 579, № 8, maddə 757, № 10, maddələr 937, 941, № 11, maddələr 1049, 1080, 1090, № 12, maddə 1221; 2008, № 6, maddələr 454, 461, № 7, maddə 602, № 10, maddə 884, № 12, maddələr 1047, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 953; 2010, № 2, maddə 70, № 3, maddələr 171, 178, № 4, maddələr 275, 276, № 7, maddə 591; 2011, № 4, maddə 253, № 5, maddə 472, № 7, maddələr 587, 601, 621, № 11, maddə 980, № 12, maddə 1093; 2012, № 2, maddə 45, № 3, maddələr 193, 196, № 7, maddələr 666, 669, 673, № 11, maddə 1068, № 12, maddə 1223; 2013, № 1, maddə 14, № 2, maddə 102, № 4 maddə 364, № 5, maddələr 459, 479, 481, № 6, maddələr 594, 600, № 11, maddələr 1264, 1286, 1312, № 12, maddə 1492; 2014, № 2, maddələr 89, 95, № 4, maddə 327, № 6, maddələr 618, 622; 2015, № 4, maddələr 339, 359, 368, № 5, maddələr 504, 508, 510, № 6, maddələr 678, 690, 692, № 11, maddələr 1253, 1268, 1289, 1298, № 12, maddələr 1437, 1445; 2016, № 4, maddələr 634, 636, 638, 653, № 5, maddə 845, № 6, maddələr 993, 1001, № 12, maddələr 1983, 1999, 2008, 2019, 2038, 2048; 2017, № 2, maddə 161, № 3, maddə 330, № 5, maddələr 694, 696, 702, 733, № 7, maddələr 1268, 1271, 1293, № 11, maddələr 1968, 1978, № 12 (I kitab), maddə 2231; 2018, № 3, maddə 403, № 5, maddə 861, № 6, maddə 1154, № 7 (I kitab), maddə 1441, № 10, maddə 1972, № 11, maddə 2213, № 12 (I kitab), maddə 2472; Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1537-VQD nömrəli Qanunu) aşağıdakı dəyişikliklər edilsin:

1. 72.2-ci maddədə “edilə bilər” sözləri “edilir” sözü ilə əvəz edilsin.

2. Aşağıdakı məzmunda 73.3-cü maddə əlavə edilsin:

“73.3. Başqa növ cinayət törətmiş şəxs, bu Məcəllənin 73.1-ci maddəsində nəzərdə tutulmuş şərtlər mövcud olduqda, yalnız bu Məcəllənin Xüsusi hissəsinin müvafiq maddələrində bilavasitə müəyyən edilmiş hallarda cinayət məsuliyyətindən azad edilir.”.

3. 99-1-ci maddə üzrə:

3.1. 99-1.1-ci maddəyə “aşağıda göstərilən əmlakın” sözlərindən sonra “məhkəmənin yekun qərarı ilə” sözləri əlavə edilsin;

3.2. 99-1.1.1 və 99-1.1.2-ci maddələrdə “məhkumun” sözü “şəxsin” sözü ilə əvəz edilsin;

3.3. 99-1.3-cü maddənin birinci cümləsində “Məhkum” sözü “Cinayət törətmiş şəxs” sözləri ilə, ikinci cümləsində “məhkum” sözü “cinayət törətmiş şəxs” sözləri ilə əvəz edilsin.

4. 99-2-ci maddə üzrə:

4.1. adında “Əmlakın dəyərinə görə” sözlərindən sonra “xüsusi” sözü əlavə edilsin;

4.2. mətnində “məhkuma məxsus olan digər əmlak” sözləri “cinayət törətmiş şəxsə məxsus olan digər əmlak məhkəmənin yekun qərarı ilə xüsusi” sözləri ilə əvəz edilsin.

5. 99-3.2-ci maddə aşağıdakı redaksiyada verilsin:

“99-3.2. Cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyan müsadirə edilmiş əmlak hesabına ödənilməli, bundan sonra əmlakın qalan hissəsi dövlət nəfinə alınmalıdır. Müsadirə edilmiş əmlak cinayət nəticəsində əmlakın qanuni sahibinə vurulmuş ziyanın ödənilməsinə kifayət etmədiyi və cinayət törətmiş şəxsin müsadirə edilmiş əmlakdan başqa əmlakı olduğu hallarda ziyanın qalan hissəsi cinayət törətmiş şəxsin həmin əmlakının hesabına ödənilir.”.

6. 99-4.6-cı maddəyə “271-284,” rəqəmlərindən sonra “303.2,” rəqəmləri əlavə edilsin.

7. 99-5.3-cü (ikinci halda), 99-5.3.1 - 99-5.3.6-cı maddələr müvafiq olaraq 99-5.4-cü, 99-5.4.1 - 99-5.4.6-cı maddələr hesab edilsin.

8. 209.3-cü maddədə “209.1-ci maddəsində” sözləri “209.1 və 209.2.1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

9. 213.3-cü maddədə “213.1-ci maddəsində” sözləri “213.1 və 213.2.1-ci maddələrində” sözləri ilə əvəz edilsin.

10. 234.4-cü maddədə “və 234.3-cü” sözləri “, 234.3 və 234.3-1-ci” sözləri ilə əvəz edilsin.

11. 303.2-ci maddəsinə “Məhkəmənin hökmünə” sözlərindən sonra “(qərarına)” sözü və “hökmünün” sözündən sonra “(qərarının)” sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1639-VQD nömrəli Qanununun tətbiqi barədə

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1639-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2019-cu il*

# “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 10-cu bəndini rəhbər tutaraq **qərara alır:**

“Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikası Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2004, № 1, maddə 8; 2005, № 1, maddə 1, № 8, maddə 700; 2006, № 2, maddə 70; 2008, № 2, maddə 49; 2010, № 4, maddə 265; 2012, № 1, maddə 2, № 7, maddə 651; 2013, № 12, maddə 1479; 2014, № 2, maddə 78, № 7, maddə 769, № 11, maddə 1356, № 12, maddə 1526; 2015, № 11, maddə 1259; 2016, № 4, maddə 644, № 10, maddə 1606; 2017, № 5, maddələr 709, 724, № 10, maddə 1775; 2018, № 12 (I kitab), maddələr 2471, 2531; 2019, № 1, maddələr 16, 21) aşağıdakı dəyişikliklər edilsin:

1. 12.8.1-ci maddəyə “yenidən təşkili,” sözlərindən sonra “məhkəmənin yekun qərarı ilə cinayət-hüquqi tədbir qismində hüquqi şəxsin müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum edilməsi,” sözləri əlavə edilsin.

2. Aşağıdakı məzmunda 14.1.8-1-ci, 14.1.9-1-ci və 14.3-cü maddələr əlavə edilsin:

“14.1.8-1. qurum barəsində müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi haqqında məhkəmənin yekun qərarına dair məlumat;”;

“14.1.9-1. hüquqi şəxsin yenidən təşkil edilməsinin, yaxud ləğv olunmasının qadağan edilməsi, habelə hüquqi şəxsi müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə növündə cinayət-hüquqi tədbirlərin tətbiq edilməsi ilə bağlı məlumatlar;”;

“14.3. Bu Qanunun 14.1.9-1-ci maddəsində nəzərdə tutulan məlumatlar Azərbaycan Respublikasının Mülki Məcəlləsi və Azərbaycan Respublikasının Cəzaların İcrası Məcəlləsində müəyyən edilmiş qaydada qeydiyyat orqanına göndərilir.”.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1641-VQD nömrəli Qanununun tətbiqi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu bəndini rəhbər tutaraq, “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1641-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2019-cu il*

# Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 6-cı bəndini rəhbər tutaraq **qərara alır:**

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (II kitab), maddə 585; 2001, № 7, maddə 455; 2002, № 1, maddə 9, № 5, maddə 233, № 8, maddə 463; 2003, № 6, maddə 276; 2004, № 5, maddə 321, № 7, maddə 505, № 8, maddə 598, № 10, maddə 761, № 11, maddə 890; 2005, № 1, maddə 4, № 4, maddə 278, № 6, maddə 462, № 8, maddə 686, № 10, maddə 874, № 12, maddə 1079; 2006, № 1, maddə 3, № 2, maddə 64, № 5, maddə 390, № 10, maddə 847, № 11, maddə 929, № 12, maddə 1032; 2007, № 2, maddələr 65, 68, № 6, maddə 560, № 7, maddə 712, № 8, maddə 756, № 11, maddə 1049, № 12, maddə 1221; 2008, № 6, maddə 462, № 7, maddələr 606, 607, № 12, maddələr 1045, 1049; 2009, № 5, maddə 315, № 7, maddə 517, № 12, maddə 966; 2010, № 3, maddələr 171, 173, 178, № 7, maddə 593, № 12, maddə 1058; 2011, № 6, maddə 480, № 7, maddələr 589, 599; 2012, № 7, maddə 674, № 11, maddə 1062, № 12, maddə 1215; 2013, № 2, maddə 77, № 6, maddələr 616, 626, № 7, maddə 786, № 11, maddə 1265, № 12, maddə 1493; 2014, № 2, maddələr 90, 102, № 4, maddələr 328, 344, № 6, maddə 600, № 11, maddələr 1354, 1362; 2015, № 4, maddə 342, № 5, maddə 511, № 11, maddələr 1270, 1288; 2016, № 2 (II kitab), maddə 218, № 10, maddə 1607, № 12, maddələr 2020, 2031, 2034, 2039; 2017, № 5, maddə 751, №12 (I kitab), maddələr 2232, 2267; 2018, № 5, maddələr 877, 882, № 7 (I kitab), maddə 1421, № 11, maddə 2235, № 12 (I kitab), maddə 2515) aşağıdakı dəyişikliklər edilsin:

1. 40-cı maddə üzrə:

1.1. 40.2-ci maddədə “72” rəqəmi “72.1” rəqəmi ilə, “aşağıdakı hallarda təhqiqatçının və” sözləri “hallarda təhqiqatçının və ya” sözləri ilə, iki nöqtə işarəsi nöqtə işarəsi ilə əvəz edilsin və 40.2.1-40.2.3-cü maddələr ləğv edilsin;

1.2. aşağıdakı məzmunda 40.3-cü və 40.4-cü maddələr əlavə edilsin:

“40.3. Şəxsin cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 72.2-ci, 73.2-ci, 73.3-cü, 73-1.1-ci və 73-1.2-ci maddələrində, habelə Xüsusi hissəsinin müvafiq maddələrində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin prokurorla razılaşdırılmış qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.

40.4. Şəxsin iqtisadi fəaliyyət sahəsində olan cinayətlərə görə cinayət məsuliyyətindən azad edilməsi üçün Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 73-2-ci maddəsində nəzərdə tutulmuş hallar müəyyən edildikdə təhqiqatçının və ya müstəntiqin qərarına əsasən cinayət təqibi başlanılmır və ya ona xitam verilir.”.

2. Aşağıdakı məzmunda 41.1-1-ci maddə əlavə edilsin:

“41.1-1. Cinayət təqibi üzrə icraata bəraətverici əsaslar olmadan xitam verilməli olduğu, lakin Azərbaycan Respublikası Cinayət Məcəlləsinin müddəalarına əsasən xüsusi müsadirənin tətbiq edilməsi üçün əsaslar müəyyən edildiyi hallarda, cinayət təqibi üzrə icraat bu Məcəllə ilə müəyyən edilmiş qaydada davam etdirilir və məhkəmənin yekun qərarının çıxarılması ilə başa çatdırılır.”.

3. 43.1.2-ci maddədə “39.1.6-39.1.11-ci” sözləri “39.1.6-39.1.11, 40.3 və 40.4-cü” sözləri ilə əvəz edilsin.

4. 84.5.3-cü maddədə “orqandan” sözü “müvafiq icra hakimiyyəti orqanından” sözləri ilə əvəz edilsin və həmin maddədə “icraatına vermək” sözlərindən sonra “, habelə istintaqı aid olan orqanın bir istintaq qurumundan digərinə vermək” sözləri əlavə edilsin.

5. 85.2.11-ci maddədə “əmlak müsadirəsinin” sözləri “xüsusi müsadirənin” sözləri ilə əvəz edilsin.

6. 86.2.7-ci maddədə “əmlak müsadirəsinin” sözləri “xüsusi müsadirənin” sözləri ilə əvəz edilsin.

7. 132-ci maddənin mətni aşağıdakı redaksiyada verilsin:

“132.1. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar məhkəmə yekun qərar çıxararkən aşağıdakı qaydalara riayət etməlidir:

132.1.1. şəxsin cinayət törədilərkən istifadə etdiyi alət və vasitələr (qanuni sahibinə qaytarılmalı olan alət və vasitələr istisna olmaqla) xüsusi müsadirə olunmalı və müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;

132.1.2. şəxsin cinayət yolu ilə əldə etdiyi pul vəsaitləri və ya digər əmlak, habelə həmin pul vəsaitləri və ya digər əmlak hesabına əldə edilmiş gəlirlər (qanuni sahibinə qaytarılmalı olan pul vəsaitləri və ya digər əmlak və ondan əldə edilmiş gəlirlər istisna olmaqla), həmçinin şəxsin cinayət yolu ilə əldə etdiyi pul vəsaitləri və ya digər əmlakın mülki-hüquqi əqdlərin bağlanması və ya digər üsullarla tam və ya qismən çevrildiyi digər əmlak və ya onun müvafiq hissəsi xüsusi müsadirə olunmalı və cinayət nəticəsində vurulmuş ziyanın ödənilməsinə yönəldilməli, qalan hissəsi dövlətin nəfinə keçirilməlidir (zərər çəkmiş şəxs məlum olmadıqda isə tam həcmdə dövlətin nəfinə keçirilməlidir);

132.1.3. terrorçuluğun, qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələrin və ya qrupların, mütəşəkkil dəstələrin və ya cinayətkar birliklərin (cinayətkar təşkilatların) maliyyələşdirilməsi üçün nəzərdə tutulan və ya istifadə olunan əmlak xüsusi müsadirə olunmalı və dövlət nəfinə keçirilməlidir;

132.1.4. mülki dövriyyəsi məhdudlaşdırılmış (qanuni əsaslarla əldə etmə halları istisna olmaqla) və mülki dövriyyədən çıxarılmış əşyalar müvafiq təşkilatlara verilməli, onların dəyəri olmadıqda isə məhv edilməlidir;

132.1.5. cinayət qanunu ilə nəzərdə tutulmuş əməlin törədilməsi nəticəsində qanuni sahiblikdən çıxarılmış pul və qiymətli əşyalar sahiblərinə, mülkiyyətçilərinə və ya hüquqi varislərinə qaytarılmalıdır;

132.1.6. maddi sübut olan sənədlər cinayət təqibi üzrə icraat materiallarının saxlanma müddəti ərzində işdə saxlanılmalı və ya maraqlı təşkilatların və şəxslərin vəsatəti olduqda bu Məcəllənin 136.3-cü maddəsində nəzərdə tutulmuş qaydada onlara verilməlidir;

132.1.7. dəyəri olmayan digər əşyalar məhv edilməlidir.

132.2. Maddi sübutlar barədə məsələnin həlli ilə əlaqədar cinayət prosesini həyata keçirən orqan cinayət təqibi üzrə icraata xitam verilməsi haqqında qərar çıxararkən bu Məcəllənin 132.1.4-132.1.7-ci maddələrində müəyyən edilmiş qaydalara riayət etməlidir.”.

8. 217.3-cü maddədə “onun” sözündən sonra “, habelə işin icraata qəbul edilməsi haqqında qərarın” sözləri əlavə edilsin.

9. 248.1.1-ci maddədə “əmlak müsadirəsini” sözləri “xüsusi müsadirəni” sözləri ilə əvəz edilsin.

10. 254.1-ci maddə aşağıdakı redaksiyada verilsin:

“254.1. Cinayət işi üzrə məhkəməyədək icraat zamanı mülki iddiadan imtina edildikdə və ya cinayət təqibi üzrə icraata xitam verildikdə əmlak üzərinə məhkəmə tərəfindən qoyulmuş həbs müstəntiqin ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorla razılaşdırılmış qərarına əsasən ləğv edilir. Məhkəmə icraatı zamanı və bu maddədə göstərilməyən digər hallarda əmlak üzərinə qoyulmuş həbs yalnız məhkəmənin qərarı əsasında ləğv edilə bilər.”.

11. 289.8.3-cü maddə aşağıdakı redaksiyada verilsin:

“289.8.3. xüsusi müsadirə olunması təklif edilən əmlak barədə;”.

12. 289.8.4-cü, 290.2.8-ci və 346.1.18-ci maddələrdə “əmlak müsadirəsinin” sözləri “xüsusi müsadirənin” sözləri ilə əvəz edilsin.

13. 346.1.19-cu maddədə “müsadirə edilməli olduğu, cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində təqsirləndirilən şəxsə məxsus olan hansı məbləğdə pulun və ya hansı əmlakın müsadirə edilməli olduğu” sözləri “xüsusi müsadirə edilməli olduğu” sözləri ilə əvəz edilsin.

14. 353-cü maddə üzrə:

14.1. 353.4.11-ci maddədə “əmlak müsadirəsi cəzası təyin olunduğu halda müsadirə edilməli olan cinayətin predmetləri, cinayət törədərkən istifadə olunan alət və vasitələr, cinayət yolu ilə əldə edilmiş əmlakın siyahısı, habelə cinayət yolu ilə əldə edilmiş əmlak və ya cinayətin predmeti istifadə edildiyi, özgəninkiləşdirildiyi və ya başqa səbəblərdən dövlət nəfinə alına bilinmədiyi halda həmin əmlakın dəyəri məbləğində müsadirə olunacaq məhkuma məxsus olan pulun miqdarı və ya” sözləri “xüsusi müsadirə edilən” sözləri ilə əvəz edilsin;

14.2. 353.5.3-cü maddədə “əmlak müsadirəsinin” sözləri “xüsusi müsadirənin” sözləri ilə əvəz edilsin.

15. 506-cı maddə üzrə:

15.1. maddənin adına “cəzalarını” sözündən sonra “və cinayət-hüquqi xarakterli digər tədbirləri” sözləri əlavə edilsin;

15.2. 506.0.4-cü maddədə “ərizəsinə və ya cəzanı” sözləri “, barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilən hüquqi şəxsin nümayəndəsinin ərizəsinə və ya cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri” sözləri ilə əvəz edilsin.

16. 510-cu maddə üzrə:

16.1. maddənin adına “Hökmün” sözündən sonra “və ya məhkəmənin digər yekun qərarının” sözləri əlavə edilsin;

16.2. 510.3-cü maddəyə “Məhkum” sözündən sonra “və ya hüquqi şəxs” sözləri əlavə edilsin;

16.3. 510.4-cü maddəyə aşağıdakı məzmunda ikinci cümlə əlavə edilsin:

“Bu Məcəllənin 510.3-cü maddəsində nəzərdə tutulmuş halda hüquqi şəxs barəsində cərimə növündə cinayət-hüquqi tədbirin tətbiq edilməsi haqqında məhkəmənin yekun qərarının icrasının təxirə salınması məsələsinə hüquqi şəxsin nümayəndəsinin ərizəsi əsasında məhkəmə tərəfindən baxılır.”.

17. 518.0-cı maddədə “ərizəsinə, cəzanı” sözləri “və ya barəsində cinayət-hüquqi tədbirlər tətbiq edilmiş hüquqi şəxsin nümayəndəsinin ərizəsi, cəzanı və ya cinayət-hüquqi xarakterli digər tədbirləri” sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 iyul 2019-cu il*

# “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1638-VQD nömrəli Qanununun tətbiqi və “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2019-cu il 9 iyul tarixli 1638-VQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. Azərbaycan Respublikası qanunlarının və Azərbaycan Respublikası Prezidentinin aktlarının “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması ilə bağlı təkliflərini üç ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

1.2. Azərbaycan Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını üç ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.3. mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının həmin Qanuna uyğunlaşdırılmasını nəzarətdə saxlasın və bunun icrası barədə beş ay müddətində Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

1.4. həmin Qanundan irəli gələn digər məsələləri həll etsin.

2. Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi mərkəzi icra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının və normativ xarakterli aktların “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılmasını təmin edib Azərbaycan Respublikasının Nazirlər Kabinetinə məlumat versin.

3. “Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında” Azərbaycan Respublikası Qanununun və həmin Qanunla təsdiq edilmiş Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin tətbiq edilməsi barədə” Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 25 avqust tarixli 387 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2000, № 8 (III kitab), maddə 610; 2001, № 10, maddə 646; 2002, № 5, maddələr 273, 279, № 7, maddə 413, № 8, maddə 478, № 9, maddə 563; 2003, № 8, maddə 434; 2004, № 1, maddə 19, № 5, maddə 345; 2005, № 1, maddə 18, № 4, maddə 299, № 9, maddə 799, № 12, maddə 1101; 2006, № 8, maddə 676, № 11, maddə 935; 2007, № 1, maddə 10, № 3, maddə 223, № 9, maddə 865, № 12, maddə 1247; 2008, № 1, maddələr 7, 10; 2009, № 7, maddələr 531, 534; 2010, № 7, maddə 615; 2011, № 11, maddə 999; 2013, № 5, maddə 509, № 6, maddə 649, № 8, maddə 900; 2014, № 4, maddə 348, № 6, maddə 625; 2015, № 12, maddələr 1450, 1461; 2016, № 4, maddələr 667, 669, № 10, maddə 1644; 2017, № 3, maddə 353, № 5, maddə 814, № 7, maddə 1321; 2018, № 3, maddə 444, № 4, maddə 680, № 6, maddə 1219, № 9, maddələr 1824, 1832, № 10, maddə 2004, № 11, maddə 2271; 2019, № 4, maddə 648) 2-ci hissəsinin altıncı abzasına “cümlələrində” sözündən sonra “, 84.5.3-cü” sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 22 iyul 2019-cu il*

# Fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıb








İyulun 22-də Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun (KİVDF) Azərbaycan Milli Mətbuatının yaranmasının 144-cü ildönümü münasibətilə keçirdiyi fərdi jurnalist yazıları müsabiqəsinin qalibləri mükafatlandırılıb.

AZƏRTAC xəbər verir ki, mərasimdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Aparıcılar Azərbaycan Milli Mətbuatının yaranmasından, "Əkinçi" qəzetinin, eləcə də o dövr mətbu nəşrlərinin cəmiyyətin inkişafında oynadığı mühüm roldan danışıblar. Qeyd olunub ki, Həsən bəy Zərdabinin rəhbərliyi ilə 1875-ci il iyulun 22-də fəaliyyətə başlayan və Azərbaycanda ilk milli mətbu orqanı olan "Əkinçi" öz ətrafında dövrünün qabaqcıl ziyalılarını birləşdirmişdi.

Diqqətə çatdırılıb ki, "Əkinçi" qəzeti ilə təməli qoyulan milli mətbuatımız müstəqilliyimizin bərpasından sonra özünün intibah dövrünü yaşayır. Ölkəmizdə kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyəti üçün əlverişli şərait yaradılıb, plüralizm, söz və mətbuat azadlığına mane olan senzura ləğv edilib, mətbuatın fəaliyyətini tənzimləyən qanunvericilik bazası formalaşdırılıb. Bildirilib ki, Ümummilli Lider Heydər Əliyevin milli mətbuata, jurnalistikaya göstərdiyi qayğı bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun icraçı direktoru Vüqar Səfərli çıxış edərək KİVDF-nin fəaliyyət göstərdiyi ötən müddətdə dövlətin mətbuatın inkişafına göstərdiyi dəstəkdən söz açıb. Qeyd edib ki, fond mütəmadi olaraq müsabiqələr təşkil edir. Budəfəki müsabiqə 2019-cu il iyunun 8-dən iyulun 12-dək Azərbaycan Respublikasında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Konsepsiyasında əksini tapmış 19 istiqamət üzrə keçirilib. Müsabiqəyə 56 KİV-dən 142 yazı təqdim edilib. Yazılar ekspertlər tərəfindən qiymətləndirilib, ümumilikdə 111 nəfər jurnalistin mükafatlandırılması haqqında qərar qəbul olunub.

Sonra Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov Azərbaycan Milli Mətbuatının 144 illiyi münasibətilə media işçilərini təbrik edib. Azərbaycan mediasının inkişafından danışan Əli Həsənov bildirib ki, mətbuatımızın 144 ilinin 27 ili müstəqillik dövrünə aiddir. Bu, bir reallıqdır ki, 27 illik tarixə malik müstəqil mediamız ölkəmizi dünyada layiqincə təmsil edir və bu istiqamətdə fəaliyyətini davam etdirəcək.

Müstəqil mediamızın inkişafında Ulu Öndər Heydər Əliyevin mühüm xidmətlərini xatırladan Əli Həsənov deyib ki, 1998-ci ildə Ümummilli Liderin fərmanı ilə Azərbaycan mətbuatı üzərindən senzura strukturları, eləcə də medianı tənzimləyən dövlət qurumu olan Mətbuat və İnformasiya Nazirliyi ləğv olundu. Beləliklə, Azərbaycan mediasına özünü ictimai tənzimləyə bilməsi üçün şərait yaradıldı. Jurnalistlərin dəstəyi və iştirakı ilə Mətbuat Şurası təsis olundu. Bu şura mətbuatın, o cümlədən jurnalistlərin problemlərini mütəmadi araşdırır, dövlət qarşısında təşəbbüslərlə çıxış edir və müvafiq olaraq, dövlət tərəfindən o təşəbbüslərin ən mütərəqqilərinə dəstək verilir. "Həsən bəy Zərdabi Azərbaycan milli mətbuatının təməlini qoymuşdusa, Ulu Öndər Heydər Əliyevin adı azad medianın banisi kimi tariximizə düşdü. Ümummilli Lider media ilə bağlı bütün tənzimləmə və senzura mexanizmlərini ləğv edərək Azərbaycanda azad mətbuat üçün lazımi şəraiti yaratdı. Ulu Öndərin 2003-cü ilə qədər bilavasitə özünün iştirakı ilə davam etdirilən media siyasəti həmin dövrdən etibarən Prezident İlham Əliyev tərəfindən dönmədən, ardıcıl, prinsipial şəkildə həyata keçirilir və medianın bugünkü inkişafında dövlət başçısının xüsusi xidmətləri var", - deyə Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi qeyd edib.

Mətbuatımızın bugünkü reallığının Azərbaycan dövlətinin mediaya, jurnalistlərə dəstəyinin tam şəffaflaşdırılması, sistemləşdirilməsi və ardıcıl olaraq həyata keçirilməsindən ibarət olduğunu vurğulayan Əli Həsənov deyib: "2008-ci ildə Prezident İlham Əliyevin sərəncamı ilə "Azərbaycan Respublikasında kütləvi informasiya vasitələrinin inkişafına dövlət dəstəyi Konsepsiyası" qəbul olundu, sonra o konsepsiyanı reallaşdıracaq KİVDF yaradıldı. O gündən bugünə qədər fond bilavasitə jurnalistlərin iştirakı ilə özünün Müşahidə Şurasını formalaşdıraraq Azərbaycan dövləti, Azərbaycan Prezidenti tərəfindən ayrılan yardımları media ictimaiyyətinə çatdırır, mətbuatımızın ictimailəşmiş problemlərini təhlil edir, araşdırır, dövlət qarşısında bu və ya digər təkliflərlə çıxış edir və o təkliflərə də dövlət tərəfindən dəstək verilir. Bu müddətdə Azərbaycan mediasına 50 milyon manata yaxın yardım göstərilib. Qəzetlərimiz bilavasitə və qismən dövlət tərəfindən maliyyələşdirilib. Qəzetlərin uzun müddət yaranmış borcları dövlət tərəfindən ödənilib, ayrı-ayrı sahələr üzrə dotasiyalar verilib. Azərbaycan dövləti hesab edir ki, bu gün mətbuat dövlətin himayəsində və qayğısında olmalıdır. Mətbuat mədəniyyətin bir hissəsidir, onun əsas sahələrindən biridir. Əgər dövlət bu gün özünün milli-mənəvi simasını, milli-mənəvi varlığını nümayiş etdirən teatrına, ədəbiyyatına, şairinə, yazıçısına, teatr xadiminə, rəssamına dəstək göstərir, yardım edirsə, nəyə görə bu yardım mediaya göstərilməməlidir. Buna görə də mediamızın inkişafı Azərbaycan dövlətinin inkişafına tam adekvatdır. Azərbaycan dövləti mədəniyyət xadimlərinə də, idmançılara da, jurnalistlərə də ev verir, onların sosial həyatının yaxşılaşdırılması istiqamətində addımlar atılır. Buna qarşı qısqanclıq, buna qarşı hər hansı fikir formalaşdırmaq, düşünürəm ki, sağlam məntiqin, sağlam düşüncənin nümunəsi deyil. Siz jurnalistlər yaxşı bilirsiniz ki, bunların heç biri təmənna daşımır, bunların heç biri sizin yaradıcılıq imkanlarınızı məhdudlaşdıra da bilməz".

Əli Həsənov sonda müsabiqədə qalib gələn jurnalistləri təbrik edərək, Milli Mətbuat Günü münasibətilə media işçilərinə xoş arzularını çatdırıb.

Daha sonra müsabiqənin qaliblərinə mükafatlar təqdim edilib.

Mətbuat Şurasının sədri Əflatun Amaşov çıxış edərək Həsən bəy Zərdabi yolunun davamçıları olan Azərbaycan jurnalistlərini milli mətbuatımızın 144 illiyi münasibətilə təbrik edib, "Əkinçi"dən bəri keçən mətbuatımızın tarixinə qısa nəzər salıb, ölkəmizdə jurnalistlərə göstərilən dövlət qayğısının önəmini vurğulayıb.

Daha sonra jurnalistika sahəsində xüsusi xidmətlərinə görə Mətbuat Şurasının mükafatları sahiblərinə təqdim olunub.

Tədbir bədii hissə ilə davam edib.

# Çin ilə Azərbaycan strateji tərəfdaşlardır

İyulun 22-də Bakıda "Si Cinpinin yeni dövr Çin səciyyəvi sosializm ideyası" mövzusunda konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, konfransda çıxış edən Yeni Azərbaycan Partiyası icra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanla Çin arasında əlaqələrin inkişafından danışıb. O qeyd edib ki, Çin Azərbaycana tərəfdaş, dost ölkədir. Çin ilə Azərbaycan arasında əlaqələr yüksələn xətt üzrə inkişaf edir. Bu əlaqələrin inkişafında yüksəksəviyyəli qarşılıqlı səfərlər, tərəflər arasında imzalanan sənədlər mühüm rol oynayır.

YAP icra katibinin müavini bildirib ki, Çin Azərbaycanın müstəqilliyini ilk tanıyan ölkələrdən biridir. 1990-cı illərin əvvəlindən Çin ilə Azərbaycan arasında diplomatik münasibətlər yaranıb. İki ölkə arasında qarşılıqlı səfərlər müxtəlif sənədlərin imzalanması ilə nəticələnib və həmin sənədlər əsasında əməkdaşlıq güclənir. Çin ilə Azərbaycan strateji tərəfdaşlardır. Eyni zamanda, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı Çin Azərbaycanın ədalətli mövqeyini həmişə dəstəkləyib və bu mövqe dəyişməz qalıb.

M.Qurbanlı Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası, eləcə də Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasındakı əməkdaşlığın mövcud durumundan bəhs edərək münasibətlərin inkişafı üçün geniş perspektivlərin olduğunu bildirib. O, Azərbaycan ilə Çin arasındakı dostluq əlaqələrinin əhəmiyyətini vurğulayaraq ortaq iqtisadi maraqlar, hər iki ölkənin tarixi İpək yolunun bərpasındakı rolu və digər bu kimi amillərin əməkdaşlığın inkişafına zəmin yaratdığını qeyd edib. Dövlət komitəsinin sədri Çinin müəllifi olduğu "Bir kəmər, bir yol" layihəsinin də dünyanın marağında olduğunu söyləyib.

Çıxış edən Çin Kommunist Partiyası Mərkəzi Komitəsinin Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sun Tao bildirib ki, Çinlə Azərbaycanın əlaqələri yüksək səviyyədədir. Bu da xalqlar arasında münasibətlərə müsbət təsir göstərir.

Sun Tao qeyd edib ki, Çin əvvəlki dövrlərdən fərqli olaraq yoxsulluq problemini həll edib. Ötən 70 il ərzində Çin böyük inkişaf yolu keçib. Çində bir çox sahələr, o cümlədən maşınqayırma, sənaye sahəsi inkişaf edib. Çin beynəlxalq aləmdə nüfuzlu ölkəyə çevrilib. O, Çin Kommunist Partiyasının Yeni Azərbaycan Partiyası ilə əlaqələrin daha da genişləndirilməsində maraqlı olduğunu bildirib.

Milli Məclisin Azərbaycan-Çin parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü, "Yeni Azərbaycan" qəzetinin baş redaktoru Hikmət Babaoğlu çıxışında iki ölkə arasındakı əməkdaşlıq mühitindən danışıb. O vurğulayıb ki, Çinin təşəbbüsü ilə həyata keçirilən "Bir kəmər, bir yol" layihəsi böyük kommunikasiya, siyasi, iqtisadi, mədəni, ən əsası, inqilabi bir layihədir. Azərbaycan bu layihənin həyata keçirilməsini dəstəkləyən ilk dövlətlərdən biridir. Çindən Avropaya gedən yolda Ələt Beynəlxalq Dəniz Ticarət Limanı vacib rol oynayacaq. Bu yaxınlarda Azərbaycana səfər edən Avropa İttifaqı Şurasının prezidenti Donald Tusk Ələt limanının əhəmiyyətini vurğulayıb. Deputat Azərbaycanla Çin arasında münasibətlərin inkişafının hər iki ölkənin maraqlarına cavab verdiyini qeyd edib.

Sonra çıxış edən YAP Nəsimi rayon təşkilatının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızı və YAP Qaradağ rayon təşkilatının sədri, Milli Məclisin deputatı Aydın Hüseynov da Azərbaycan-Çin əlaqələrinin əhəmiyyətindən danışıblar.

# Məhkəmə-hüquq islahatlarının yeni mərhələsi

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar nəticəsində ölkəmiz bütün sahələrdə dinamik inkişaf edir, yeni ictimai münasibətlər yaranır, mövcud olanlar isə keyfiyyətcə yeni xarakter alır. İctimai həyatda münasibətlərin yenilənməsi onların ədalətli, səmərəli və çevik tənzimlənməsi üçün müvafiq hüquqi norma və mexanizmlərin təkmilləşdirilməsini zəruri edir. Bu istiqamətdə həyata keçirilən və keçiriləcək işləri Azərbaycan Respublikası Prezidentinin Hüquq mühafizə orqanları ilə iş və hərbi məsələlər üzrə köməkçisi-şöbə müdiri Fuad Ələsgərov AZƏRTAC-a şərh edərək deyib:*

- Möhtərəm cənab Prezident cari ilin mart ayında məhkəmə-hüquq islahatlarına ciddi ehtiyac olduğunu bəyan edərək onların yeni mərhələsinin başlanmasına təkan vermişdir. "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanı isə bu prosesin əsas istiqamət və prioritetlərini müəyyən etmişdir.

Fərmanda verilmiş tapşırıq və tövsiyələrin həyata keçirilməsi məqsədilə intensiv iş aparılmış, statistik məlumatlar təhlil edilərək ümumiləşdirilmiş, habelə qabaqcıl beynəlxalq təcrübə öyrənilmişdir. Azərbaycan Respublikasının Prezidenti islahatların institusional komponentini əhatə edən ilk qanunvericilik aktları paketini 2019-cu il iyulun 20-də imzalamışdır.

İslahatların fərmanda nəzərdə tutulan digər komponentləri, yəni, qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlı növbəti normativ hüquqi aktlar üzərində hazırda hərtərəfli iş aparılır, habelə praktiki sahədə verilən tapşırıq və tövsiyələrin yerinə yetirilməsi istiqamətində tədbirlər davam etdirilir.

İmzalanan normativ hüquqi aktlar paketinə "Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa, Mülki-Prosessual, İnzibati-Prosessual və Cinayət-Prosessual məcəllələrə dəyişikliklərin edilməsini nəzərdə tutan qanunlar, habelə həmin qanunların tətbiqini təmin edən müvafiq sərəncam və fərmanlar daxildir.

"Məhkəmələr və hakimlər haqqında" Azərbaycan Respublikasının Qanununa edilən dəyişikliklər ixtisaslaşmış məhkəmələrin iki sisteminin - inzibati məhkəmələr və kommersiya məhkəmələrinin yaradılmasının hüquqi təməlini formalaşdırır. Qeyd edilən qanunlar qüvvəyə mindiyi gündən, yəni, 2020-ci il yanvarın 1-dən etibarən mövcud inzibati-iqtisadi məhkəmələr sistemi ləğv ediləcəkdir.

Məsələyə bir qədər tarixi rakursdan yanaşaq. 2005-ci ildə "İnzibati icraat haqqında" qanunun, 2009-cu ildə Azərbaycan Respublikasının İnzibati-Prosessual Məcəlləsinin qəbulu və növbəti il inzibati-iqtisadi məhkəmələrin yaradılması ölkənin məhkəmə-hüquq sisteminin inkişafında əhəmiyyətli mərhələ olmuşdur. Bununla istənilən müasir cəmiyyətdə həyatın ən mühüm aspektlərindən olan inzibati münasibətləri, yəni, inzibati orqanlarla fiziki və ya hüquqi şəxslər arasındakı münasibətləri tənzimləyən normativ bazanın formalaşdırılması prosesi yekunlaşdırılmış, inzibati münasibətlərdən irəli gələn mübahisələrə məhkəmələrdə baxılması qaydası təsbit edilmişdir.

Ötən dövr ərzində inzibati-iqtisadi məhkəmələr inzibati mübahisələrə baxılması sahəsində geniş təcrübə toplamış, iqtisadi mübahisələrin araşdırılması praktikasını daha da inkişaf etdirmişlər.

Bununla belə, Azərbaycan Respublikasının Prezidenti tərəfindən ardıcıl olaraq həyata keçirilən dövlət idarəetməsi sisteminin təkmilləşdirilməsinə, iqtisadiyyatın şaxələndirilməsinə, xüsusilə onun qeyri-neft sektorunun inkişafına, kiçik və orta sahibkarlığın dəstəklənməsinə yönəlmiş islahatlar inzibati və iqtisadi sahələrdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılmasını labüd etmişdir.

Qeyd edilən sahələrdə yaranan mübahisələrə dair məhkəmə qərarlarının keyfiyyətinin artırılması üçün hakimlər yüksək peşəkarlıq səviyyəsinə, daha dərin hüquqi biliklərə və zəngin təcrübəyə malik olmalı, həm inzibati, həm də iqtisadi hüquq münasibətlərinin ən son təkamül meyillərindən xəbərdar olmalıdırlar.

Məhz bu məqsədə nail olmaq üçün "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında ədalət mühakiməsi sahəsində ixtisaslaşmanın dərinləşdirilməsi mühüm vasitə qismində müəyyən edilmişdir.

Hazırda fəaliyyət göstərən inzibati-iqtisadi məhkəmələr sistemi yaradıldığı dövr üçün mütərəqqi yenilik olsa da, artıq öz missiyasını başa çatdırmış hesab edilə bilər. Həm inzibati, həm iqtisadi münasibətlərin hazırkı səviyyəsi və onların inkişaf potensialı baxımından müvafiq məhkəmələrin və hakimlərin daha yüksək ixtisaslaşma dərəcəsinə nail olunması vacibdir.

İkili, yəni, ümumi (publik) və xüsusi hüquqi təbiətə malik inzibati-iqtisadi məhkəmələr əvəzinə ayrıca inzibati məhkəmələrin və kommersiya məhkəmələrinin yaradılması, məhkəmə-hüquq islahatlarının indiki mərhələsində ixtisaslaşmanın dərinləşdirilməsi üçün optimal üsul hesab edilir.

İnzibati məhkəmələr müstəsna olaraq inzibati orqanların hərəkət və hərəkətsizlikləri, inzibati aktları ilə bağlı olan mübahisələrə, o cümlədən "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Fərmanında nəzərdə tutulduğu kimi vergi və gömrük ödənişləri, məcburi dövlət sosial sığorta haqlarının ödənilməsi ilə bağlı yaranan mübahisələrə baxacaqdır. Bununla da fərmanda verilmiş tapşırıq, yəni, sahibkarların bütün dövlət qurumları, inzibati orqanlarla mübahisələrinə bu sahədə ixtisaslaşmış vahid bir məhkəmə instansiyasında baxılmasının təmin edilməsi üçün institusional çərçivənin yaradılması göstərişi yerinə yetirilmiş olacaqdır.

Kommersiya məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olan mülki mübahisələrə baxmaqla, bu zaman mülki prosessual normaları rəhbər tutacaqlar. Bundan əlavə, prosessual qanunvericiliyə edilən dəyişikliklər nəticəsində kommersiya məhkəmələrinin aidiyyətinə həmçinin sahibkarlıq fəaliyyəti subyektlərinin maraqlarına toxunan və hazırda rayon (şəhər) məhkəmələri tərəfindən baxılan bir sıra digər kateqoriyalara daxil olan işlər də aid ediləcəkdir. Rayon (şəhər) məhkəmələri isə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə əlaqədar olmayan bütün digər mübahisələrə dair işlərə baxacaqlar.

Proqnozlaşdırmaq olar ki, kommersiya məhkəmələrinin yaradılması sahibkarların hüquqlarının təmin edilməsinin səmərəliliyini artırmaqla bütövlükdə ölkədə biznes mühitinin inkişafına önəmli töhfə verəcəkdir.

Beləliklə, ayrıca inzibati və kommersiya məhkəmələrinin yaradılması həm onlarda ixtisaslaşmanın artırılmasına şərait yaradacaq, həm də rayon (şəhər) məhkəmələrinin üzərinə düşən iş yükünün müəyyən dərəcədə azaldılmasına imkan verəcəkdir ki, bununla da bütövlükdə məhkəmə sistemində iş yükünün daha balanslaşdırılmış olmasına yardım edəcəkdir.

Ədalət mühakiməsi sistemi daxilində iki yeni elementin yaradılması yalnız birinci instansiya məhkəmələri səviyyəsini əhatə etsə natamam olardı və qarşıya qoyulmuş məqsədlərə çatmağa imkan verməzdi. Bu səbəbdən yeni dəyişikliklər bütün instansiya məhkəmələrini əhatə edir.

Belə ki, hazırda Ali Məhkəmədə və apelyasiya məhkəmələrində mülki, inzibati-iqtisadi, cinayət və hərbi kollegiyalar fəaliyyət göstərir. İnzibati və kommersiya məhkəmələri sistemlərinin ayrılması prinsipinin apelyasiya və kassasiya instansiyalarında da öz məntiqi davamını tapması üçün mövcud məhkəmə kollegiyalarının quruluşunda müvafiq dəyişikliklər edilərək, yuxarı instansiya məhkəmələrində də iki müvafiq kollegiya yaradılır.

Yuxarı instansiya məhkəmələrində fəaliyyət göstərən digər iki kollegiya, yəni, cinayət kollegiyası və hərbi kollegiya cinayət-prosessual normaları rəhbər tutmaqla aşağı instansiya məhkəmələrinin cinayət işləri üzrə hökm və digər yekun qərarlarından şikayət və ya protestlərə baxır. Burada yeganə fərqli cəhət hərbi kollegiyaların müharibə və hərbi xidmət əleyhinə olan cinayətlər, habelə hərbi qulluqçular tərəfindən törədilmiş cinayətlər üzrə ixtisaslaşmasıdır. Həmçinin statistik rəqəmlərin müqayisəsi göstərir ki, hərbi kollegiyalarda baxılan işlərin sayı kifayət qədər azdır.

Qeyd edilənləri nəzərə alaraq apelyasiya və kassasiya instansiya məhkəmələrində hərbi və cinayət kollegiyalarının birləşdirilməsi nəzərdə tutulmuşdur. Burada xüsusi vurğulamaq lazımdır ki, bu dəyişiklik birinci instansiya hərbi məhkəmələrinin fəaliyyətini əhatə etmir, onlar hazırkı qaydada fəaliyyətlərini davam etdirəcəklər.

Bundan əlavə, prosessual qanunvericiliyə edilmiş dəyişikliklərin digər bir istiqaməti işin məhkəmə aidiyyətinə dair mübahisələrə baxılma prosedurlarının səmərəliliyinin artırılması və müddətlərinin qısaldılması ilə bağlıdır.

Hazırda işin inzibati-iqtisadi və ya rayon (şəhər) məhkəməsinə aid olmasına dair mübahisələrə ardıcıl olaraq üç instansiyada - birinci, apelyasiya və kassasiya instansiyalarında baxılır.

Məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurunun sadələşdirilməsi üçün belə mübahisələrə baxan instansiyaların sayının azaldılması nəzərdə tutulmuşdur. Yeni qanunla müəyyən edilmişdir ki, birinci instansiya məhkəmələrinin məhkəmə aidiyyətinə dair mübahisələr üzrə qərarlarından verilən şikayətlərə birbaşa Ali Məhkəmə baxacaqdır.

Ali Məhkəmədə bu kateqoriyadan olan şikayətlərə mülki, kommersiya və inzibati kollegiyalara daxil olan hakimlərin qarışıq tərkibində tərəflərin təqdim etdiyi sənədlər əsasında baxılacaqdır. Belə şikayətlərə baxılması üçün nəzərdə tutulmuş müddət də 2 aydan 10 günədək qısaldılır. Nəticədə aidiyyətlə bağlı mübahisələrə baxılmasında yubatma və süründürməçilik, heç bir zərurət olmadan aidiyyətlə bağlı çoxsaylı şikayətlərin verilməsi hallarının qarşısı alınacaqdır.

Nəzərdə tutulan dəyişikliklər bir tərəfdən məhkəmə kollegiyaları strukturunun optimallaşdırılmasına, digər tərəfdən isə istər cinayət işləri, istərsə də aidiyyətlə bağlı mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün daha əlverişli şəraitin yaradılmasına səbəb olacaqdır.

Ümumilikdə qeyd edə bilərik ki, qəbul olunmuş qanunvericilik aktları paketi məhkəmə-hüquq islahatlarının hazırkı mərhələsində aşağıdakı məqsədlərə nail olunmasına şərait yaradacaqdır:

- ayrıca inzibati və kommersiya məhkəmələri sistemlərinin yaradılması yolu ilə məhkəmələrdə ixtisaslaşmanın dərinləşdirilməsi;
- inzibati, kommersiya və rayon (şəhər) məhkəmələri arasında iş yükünün balanslaşdırılması;
- məhkəmə quruluşunun optimallaşdırılması;
- məhkəmə aidiyyətinə dair mübahisələrə baxılması prosedurlarının sadələşdirilməsi və müddətlərinin qısaldılması;
- məhkəmə aidiyyətinə dair mübahisələr üzrə vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün əlavə mexanizmlərin təsbit edilməsi.

Sonda bir daha vurğulanmalıdır ki, hazırda məhkəmə-hüquq islahatları çərçivəsində növbəti normativ hüquqi aktlar toplusu üzərində iş davam edir.

Bu sənədlər toplusuna cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, mülki prosessual qanunvericiliyin kompleks şəkildə təhlili və təkmilləşdirilməsi, Ali Məhkəmə tərəfindən vahid məhkəmə təcrübəsinin formalaşdırılması üçün yeni mexanizmlərin təsbit edilməsi, məhkəmə ekspertizasının təyin edilməsi və keçirilməsi ilə bağlı müddəaların, habelə məhkəmə qərarlarının icrası mexanizmlərinin təkmilləşdirilməsi ilə bağlı qanunvericilik aktlarının layihələri daxil olacaqdır. Həmçinin məhkəmə, cinayət təqibi və məhkəmə qərarlarının icrası orqanlarının fəaliyyətində informasiya-kommunikasiya texnologiyalarının, o cümlədən "Elektron məhkəmə", "Elektron icra" sistemlərinin tətbiqinin genişləndirilməsinə yönəlmiş qanunvericilik və praktiki tədbirlər həyata keçiriləcəkdir.

Eyni zamanda, yeni məhkəmələrin yaradılması, apelyasiya və kassasiya instansiyası məhkəmələrində kollegiyaların tərkibinin dəyişməsi ilə bağlı müvafiq kadr islahatları da aparılacaqdır. Yeni hakim vəzifələrinə namizədlərin seçilməsi prosesi zamanı onların peşəkarlıq səviyyəsi qiymətləndiriləcək, müvafiq sahələrdə yüksək nəzəri və praktiki hazırlığın olmasına xüsusi diqqət yetiriləcəkdir. Bu isə dövrün tələbləri ilə ayaqlaşan hüquqşünasların hazırlanması üzrə işin gücləndirilməsini şərtləndirir, o cümlədən hüquq təhsili qarşısında yeni tələblər qoyur.

İctimai münasibətlər daim dəyişməkdədir. Yeni informasiya texnologiyalarının və innovasiyaların tətbiq edildiyi müasir dövrdə ictimai münasibətlərin inkişaf sürəti dəfələrlə artmışdır. Belə olan halda hətta ən mükəmməl qanun çoxşaxəli və mürəkkəb münasibətlərin bütün detallarını mütləq dəqiqliklə tənzimləyə bilməz. Bu baxımdan hüququn tətbiqi təcrübəsi xüsusi əhəmiyyət kəsb edir və hakimlər bu prosesdə olduqca böyük rol oynayırlar. Onlar məhkəmələrdə baxılan mübahisələri həll edərkən yalnız qanunun hərfi mənasını deyil, həmçinin ictimai münasibətlərin mahiyyətini və "qanunun ruhunu" nəzərə almalıdırlar. Yalnız bu halda məhkəmələr Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 3 aprel tarixli Fərmanında nəzərdə tutulmuş ideyaların həyata keçirilməsinə nail olacaq, hüquqi məsələlərin həllinə yanaşmanın sabitliyini və məhkəmə qərarlarının daha proqnozlaşdırılan olmasını təmin edəcəklər.

Bütövlükdə, qədəm qoyduğumuz məhkəmə-hüquq islahatları Azərbaycan Respublikası Prezidentinin "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanında verilmiş tapşırıq və tövsiyələrə müvafiq olaraq, vətəndaşların hüquqlarının məhkəmələrdə daha etibarlı müdafiəsini təmin etməklə məhkəmələrə etimadın və məhkəmə sisteminin nüfuzunun daha da yüksəldilməsinə səbəb olacaqdır. Aparılan islahatlar ədalət mühakiməsinin keyfiyyətini və səmərəliliyini artırmaqla, ümumilikdə hüquq sisteminin inkişafına mühüm təsir göstərəcəkdir.

# Vətəndaşların qəbulu keçirilib

"Azərsu" ASC-nin sədri Qorxmaz Hüseynov iyulun 19-da Şəki şəhərində Şəki və Qax rayonlarından olan sakinləri qəbul edib. "Şəki Su-kanal" Törəmə Səhmdar Cəmiyyətinin inzibati binasında keçirilən qəbulda Şəki və Qax rayonlarından olan 25 vətəndaşın müraciət və şikayətlərinə baxılıb. Müraciətlər əsasən içməli su təchizatı və kanalizasiya xidmətlərinin, içməli sudan əziyyət çəkən kəndlərin su təchizatının yaxşılaşdırılması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciətini dinləyən "Azərsu" ASC-nin sədri şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər isə nəzarətə götürülüb.

* * *

İyulun 22-də Vergilər nazirinin müavini Mətin Eynullayev Qax şəhərində yerləşən Vergiödəyicilərinə xidmət mərkəzində vətəndaşları qəbul edib.

Vergilər Nazirliyinin Media və kommunikasiya mərkəzindən AZƏRTAC-a bildirilib ki, qəbulda Qax, Zaqatala və Balakən rayonlarından olan sakinlər iştirak ediblər. Görüş zamanı vətəndaşlar əsasən vergi qanunvericiliyi və inzibatçılığı, vergi nəzarəti tədbirlərinin nəticələrinə yenidən baxılması, həmçinin vergi orqanlarına işə qəbulla bağlı bir sıra məsələlərlə əlaqədar müraciət ediblər.

Vətəndaşların müraciətləri dinlənilib, onların bəziləri yerindəcə həll olunub, digərləri barədə nazirliyin struktur bölmələrinə müvafiq tapşırıqlar verilib.

## AĞDAMIN İŞĞALINDAN 26 İL KEÇİR

# ƏSİR AĞDAM MƏSCİDİ




**Viktor Hüqo sevimli yazıçılarımdan olub!**

**"Səfillər"i bir neçə dəfə, hər dəfə də heyranlıqla oxumuşam!**

**"Doxsan üçüncü il", "Gülən adam" romanları da qeyri-adi əsərlərdəndir!**

**"Paris Notr-Dam kilsəsi" isə bir neçə dəfə ekranlaşdırılıb!**

**Qəhrəmanları - Qvazimoda, Quinplin qəribədirlər: zahirən çirkin, qəribə, daxilən pak, yüksək mənəviyyat daşıyıcıları!**

**Başqa cür ola da bilməzdi!**

**Allaha məxsus dini məbəddə ancaq belələri sığınacaq tapa bilərdilər!**

❖ ❖ ❖

Paris Notr-Dam kilsəsinin yanmasına dərin təəssüflə baxdım...

Əsrlərin sınağından çıxan möhtəşəm dini məbəd, bəşəriyyətə məxsus olan qeyri-adi memarlıq abidəsi...

*Ancaq heç kəs məni qınamasın: Ağdam məscidi dağıdılanda, onun qırılmış daşlarından kiçik parçanı ATƏT-in Minsk qrupunun sədrlərindən biri Bakıya gətirərək Ulu Öndər Heydər Əliyevə təqdim edəndə daha çox ağrımışdım!*

**Bəlkə də içərimdə Notr-Dam kimi yanmışdım!**

**Bəli, mənə Ağdam məscidi Notr-Damdan daha doğmadır, daha əzizdir!**

**Nə olsun ki, həcmcə kiçikdir!**

**Nə olsun ki, dünya mədəniyyəti incilərindən sayılmır!**

**Axı hər ikisi bir nöqtədə birləşir: çünki hər ikisi Allahın evi sayılır!**

❖ ❖ ❖

Məscid kimsəsizlərə pənah yeri, sığınma yeri olub.

Esmiralda da, Kvazimoda da orada gizlənərək özlərini ağır cəzadan qoruyurdular!

Hər ikisi ədalətsizliyin qurbanı idi!

Hər ikisinə qarşı haqsızlıq edib, cəza vermək istəyirdilər!

Amma dini məbəd onları qoruyub saxlayırdı!

Qanunun cəza əli isə bu müqəddəs məkana çata, girə bilməzdi!

**Çünki o yer Allaha məxsusdur!**

**Allah evi hesab olunur!**

Bu gün isə erməni vəhşiləri həmin müqəddəs məkanları, pirləri, tarixi abidələri yandırıb dağıdırlar, heyvan saxlanan tövləyə çevirirlər!

İşğaldakı ərazilərdə 13 dünya (6 memarlıq və 7 arxeoloji), 292 ölkə əhəmiyyətli abidə və muzey, 13 mindən artıq nadir eksponat məhv edilib!

Xislətləri budur!

Faşist Njdeyə heykəl qoyanlardan, Xocalı soyqırımını törədənlərdən daha nə gözləmək olar?!

*Dəniz sahilinə bir balina atılanda "humanist duyğuları" dilə gələn dünya isə bütün bunları sanki nə görür, nə də eşidir!*

İraqda bombardman nəticəsində yaralanan 6 yaşlı ərəb uşağının bu vəhşilikləri və qırğınları törədənləri ölüm ayağında hədələməsi məni həm sarsıtmışdı, həm də kövrəltmişdi: "Bunların hamısını Allaha danışacam!" demişdi həmin oğlan uşağı!

... Və artıq danışıb da!

**Bəs görəsən Allah bizə niyə kömək etmir ki, öz məscidimizə qayıdaq?!**

❖ ❖ ❖

Vaxtilə dünya iki qütbə bölünmüşdü: kommunizmə və kapitalizmə!

Müxtəlif əqidəyə və dünyagörüşünə malik insanların yaşadığı dövlətlər arasındakı müharibələrdə milyonlarla adam qırıldı, əlil oldu, əzab və məşəqqətlərə məruz qaldı.

Bu gün dünya birqütblüdür, qloballaşır!

Yeni prosesin fəsadları artıq təkcə ərəb dünyasını və müsəlmanları deyil, Avropanı, habelə dağılan ölkələrdə yaşayan müxtəlif dinlərə sitayiş edənləri də kənarda qoymur, küçə və dini məbədlərdə törədilən partlayışlar hesabına vaxtsız ölümlər, dağıntı və "miqrant" (əslində qaçqın) axını ilə "mükafatlandırır".

Hələ də bu faciələr davam edir!

İkiqütblü dünyada baş verən müharibələrdə dövlət sərhədləri bəlli idi!

Sivilizasiyalararası çarpışmalarda isə proseslər əsasən dövlətlərin daxilində gedir!

*Dövlətlərin daxilində sərhədlər çəkərək insanları dininə görə ayırmaq mümkün deyil!*

*Bu cür qarşıdurmaların və "terror aktları mübadiləsinin" sonunda qalib gələn də olmur!*

*Dünyanı bu təlatümlərdən və qırğınlardan yalnız sülh və multikulturalizm xilas edə bilər!*

*Azərbaycanın dünyaya təklif etdiyi multikulturalizm!*

*Azərbaycanın öz təcrübəsinə və Azərbaycan xalqının həyat tərzinə əsaslanan multikulturalizm!*

Belə halda nə məscid, nə kilsə, nə sinaqoq və digər dini məbədlər də partlayışlar və terror aktlarına hədəf olmaz!

Günahsız insanlar qurbana çevrilməz!

**Heç bir dini məbəd Ağdam məscidi kimi xaraba qalmaz!**

❖ ❖ ❖

Allah Allah evlərini yandıranları və dağıdanları, xaraba qoyanları heç vaxt bağışlamayacaq!

Hər əməlin cəzasının zamana ehtiyacı var!

Bu gün kriminal və qaniçən erməni siyasətçiləri və dövlət başçıları bir-birlərini həbsxanaya atdıraraq cəzalandırırlar!

Allahın cəzası isə hələ sonra olacaq!

NƏ QƏDƏR Kİ:

- *Dünyada ikili standartlar hökm sürür;*
- *Terrorun səbəbi yalnız islam dinində və müsəlmanlarda axtarılır;*
- *Terrorçu qrup və birləşmələri gizli şəkildə silahlandırılıb maliyyələşdirilərək məkrli niyyətlərin icrasına yönəldilir;*

BU MÜDDƏTDƏ:

Məscidlər və başqa dini məbədlər partladılacaq, ibadətə gələnlər qətlə yetiriləcək, ölkələr daxilində sabitlik pozulacaq, günahsız insanlar dinindən və milliyyətindən asılı olmayaraq sağlam təfəkkürə deyil, zora əsaslanan siyasətin qurbanına çevriləcəklər!

ADƏTƏN:

- *İnsanlar dünyanın o başındakı əzizlərinin yanına gedə bilir...*
- *Xəstəxanada yatanlara baş çəkə bilir...*
- *Həbsxanadakılarla görüşə bilir...*

Bircə əsir və girovların yanına getmək, onlara baş çəkmək, onlarla görüşmək mümkün olmur!

**Artıq 26 ildir əsir Ağdam məscidinə gedə, orda Allaha dua edə, arzularımızı gerçəkləşdirmək üçün ondan kömək istəyə bilmirik!**

**Çünki bu müqəddəs məkan özü əsirlikdədir!**

**Özünün köməyə ehtiyacı var!**

**Özü Quran və əzan səsinə həsrətdir!**

*Bu həsrət nə qədər çəkəcək, bircə Allah bilir!*

*O da bunu nə bizə deyir, nə də hələlik kömək göstərir!*

Allah hamımıza yalnız bol-bol səbir verir!

❖ ❖ ❖

Sovet hakimiyyəti yaşadığı 73 il ərzində bizi ateist kimi tərbiyə etməyə, Allahın yoxluğuna inandırmağa çalışdı. Amma bütün təqiblərə, qorxu və qadağalara baxmayaraq heç kəs Allahından üz döndərmədi, onu danmadı!

Hətta elmi ateizm fənnindən imtahan verib qiymət alandan sonra Tanrıdan üzrxahlıq dilədik, bizi bağışlamasını xahiş etdik: "Dediklərimiz ürəkdən gəlmirdi, qiymət almağa xidmət edirdi" söylədik.

Yəqin ki, uca Tanrı da bizi anlayıb, günahımızdan keçdi.

*Sovetin bütün illərində Ağdam məscidi fəaliyyətini dayandırmadı, "vicdan azadlığı" nümunəsi kimi daim işlədi, qapıları açıq oldu.*

*Məhərrəm ayında, aşura günlərində qonşu rayonlardan da buraya gəlirdilər...*

*Allaha dualar edən kim, nəzir-niyaz verən kim, ağlayaraq dərdinə əlac istəyən kim...*

Dərs qurtaran kimi məscidə qaçar, müəllimlərimiz bizi görməsinlər deyə künc-də-bucaqda gizlənər, sonra dəstə tutub "şaxsey-vaxsey" deyənlərə qoşulardıq...

Şapalaqla sinəmizi vurub qızardar, səsimiz batana qədər qışqırardıq...

**Allahın böyüklüyünə, ədalətinə, bizi eşidəcəyinə, istəklərimizi yerinə yetirəcəyinə inanardıq!**

**Bu gün də həmin inamdayıq!**

**Əlimiz hər yerdən üzüləndə belə Allahın ətəyini buraxmırıq!**

**"Allah Kərimdir!" deyirik!**

**Bəxtiyar SADIQOV**

## Fotomüxbirin albomundan

# AĞDAMDA NƏYİM QALDI...









**56 ildir fotojurnalistəm. Bu dünyanın gözəlliklərini, yadda qalan, bəzən kədərli, bəzən də xoşbəxt anlarını fotolentin yaddaşına köçürmüşəm. Həm də təkcə fotolentin yox, bu ecazkar mənzərələri, duyğulu, fərəhli anları, qəlb donduran hadisələri gözlərimlə ürəyimə, qəlb yaddaşıma, beynimə həkk etmişəm...**

Ən qürurverici, kədərli anların şahidi, həm də o anı donduraraq tarixin yaddaşına çevirən biri olmuşam...

Çox yerlər gəzmişəm, Vladivostokdan Anqolayacan, Pribaltikadan Orta Asiyayacan...

Amma Azərbaycanın bölgələrindən hazırladığım fotoreportajlar mənim üçün daha doğma olub. Yenə də bölgələrimizdə aparılan abadlıq, quruculuq işlərini sevə-sevə çəkirəm...

Bu günlərdə isə yolumu Ağdamdan salmışdım...

Fotolar çəkirdim, amma çəkdiklərim heç cür ürəyimə yatmırdı...

Axı bu həmin Ağdam deyildi...

Ağdamın Çörək, Tarix Ölkəşünaslıq muzeylərini, tarzən Qurban Pirimovun xatirə muzeyini, Ağdam şəkil qalereyasını çəkmədən necə deyim ki, bura Ağdamdır...

Ağdamda çox olmuşam, amma 1988-89-cu illərdə orada olarkən yaşadıqlarım, hiss etdiklərim heç zaman yaddaşımdan silinmir...

Dağlıq Qarabağ münaqişəsinin ən qızğın zamanları idi və Ağdam əhalisinin necə mətanətlə öz yurdlarının keşiyində durduqlarının şahidi idim. Ağdamlılar deyirdilər ki, nəinki Ağdam, heç Xankəndi də ermənilərə qalmayacaq...

Ağdamın işğalından əvvəl, sonuncu dəfə 1992-ci ildə oldum orada...

İndinin özündə də o mənzərələr gözlərim önündə canlananda az qalır ürəyim partlaya...

Daha Ağdam o Ağdam deyildi...

Məscidində azanının, dağlarında tütəyinin, meşəsində quşlarının cəh-cəhi kəsilmişdi...

Onları Ağdamı xarabazara çevirən bombaların, qradların, alazanların, çovuyan güllələrin səsi əvəz etmişdi...

Ağdamın ağır günlərini çəkmək isə çox əzabverici idi...

Bu gün oxucularla paylaşdığımız şəkillər Ağdamın bəxtəvər, qayğısız, həm də dar günündə çəkdiyim fotolarıdır...

İnanıram, daha doğrusu əminəm ki, o gün gələcək ki, Ağdamı Gülablıdan Şelliyəcən, Kolanıdan Papravəndəcən qarış-qarış çəkəcəm, özü də daha heç vaxt o şəkillərdə qəm, kədər, nisgil öz əksini tapmayacaq...

***Ağaəli MƏMMƏDOV,***
***"Azərbaycan"***

















# IX Beynəlxalq Multikulturalizm Yay Məktəbi başa çatıb

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Böyük Britaniyada fəaliyyət göstərən Gənclər Arasında Ümumi Söz (ACWAY) beynəlxalq təşkilatı və Azərbaycan Respublikası Gənclər Fondunun birgə təşkilatçılığı ilə işə başlayan "Bakı Mədəniyyətlərarası Gənclər Forumu: Dinlərarası dialoqdan fəaliyyətə doğru" IX Beynəlxalq Multikulturalizm Yay Məktəbinin başa çatması ilə bağlı iyulun 21-də tədbir keçirilib.







AZƏRTAC xəbər verir ki, BBMM-in icraçı direktoru Rəvan Həsənov tədbirdəki çıxışında Yay məktəbi barədə məlumat verib. Bildirib ki, BBMM yarandığı gündən Prezident İlham Əliyevin qarşıya hədəf kimi qoyduğu Azərbaycan multikulturalizminin dünyada tanıdılması, beynəlxalq arenada təbliği və təşviqi ilə bağlı əhəmiyyətli layihələr reallaşdırır. Mərkəzin önəmli layihələrindən biri də artıq ənənəyə çevrilən, mütəmadi olaraq ildə iki dəfə təşkil edilən Beynəlxalq Multikulturalizm Qış və Yay məktəbləridir.

R.Həsənov deyib ki, Yay məktəbi Bakı şəhəri ilə yanaşı, bölgələrdə də fəaliyyət göstərib. İştirakçılar yerli əhali, dini icmalar və din xadimləri ilə görüşüb, tarixi abidələrlə tanış olublar.

Qeyd edilib ki, Yay və Qış məktəbləri layihəsi BBMM-in "Azərbaycan multikulturalizmi fənninin xaricdə və ölkə universitetlərində tədrisi" layihəsinin məntiqi davamıdır. Tədris layihəsi çərçivəsində hazırda dünyanın 21, Azərbaycanın isə 39 nüfuzlu ali təhsil ocağında Azərbaycan multikulturalizmini öyrənən tələbələr üçün təşkil olunan Yay və Qış məktəblərinin məqsədi həmin gənclərin nəzəri biliklərini multikultural və tolerant dəyərlərin qorunub yaşandığı ölkəmizdə öz gözləri ilə görüb şahid olmasına şərait yaratmaqdır.

Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov isə bildirib ki, multikulturalizm cəmiyyətdə mövcud olan etnik, dini, irqi, mədəni müxtəlifliklər arasında əlaqələrin tənzimlənməsində mühüm rol oynayır.

Bildirilib ki, Azərbaycan multikulturalizmi dövlət siyasətinin tərkib hissəsi elan edən çox az ölkələrdən biridir. Azərbaycan bu sahədə böyük uğur qazanıb. Azərbaycanda dini azadlıq tam təmin olunub. Ölkəmizin əhalisinin 90 faizindən çoxu müsəlman olsa da, burada müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Dövlət bütün dinlərə lazımi yardımlar, o cümlədən maliyyə yardımı göstərir.

Qeyd edilib ki, IX Beynəlxalq Multikulturalizm Yay Məktəbində 38 ölkənin - Azərbaycan, Madaqaskar, Mərakeş, ABŞ, Keniya, Çex Respublikası, Almaniya, Meksika, İngiltərə, Kanada, Hindistan, Avstriya, Yaponiya, Polşa, Rusiya, Efiopiya, Braziliya, Macarıstan, Türkiyə, Pakistan, Ruanda, Sudan, Myanma, Əlcəzair, Kamboca, Zambiya, Kamerun, Argentina, İndoneziya, İsveç, Estoniya, Portuqaliya, Xorvatiya, Qazaxıstan, Rumıniya, Ukrayna, İran və Avstraliya kimi ölkələrin aparıcı universitetlərindən 110 tələbə iştirak edib. Yay məktəbinin iştirakçılarına Azərbaycandakı multikultural durum, tolerant əhvali-ruhiyyə, etnik-dini müxtəliflik, ölkəmizdə müxtəlif xalqların nümayəndələrinin, fərqli konfessiyaların dinc yanaşı yaşaması haqqında mühazirələr təqdim edilib.

Digər çıxış edənlər bildiriblər ki, artıq ənənəyə çevrilmiş Beynəlxalq Multikulturalizm Yay və Qış məktəblərinin nəticəsi olaraq xaricdə Azərbaycanın gənc dostlarının və onların yaxın çevrəsinin timsalında ölkəmizin haqq işini dəstəkləyən intellektual gənclərdən ibarət ünsiyyət platforması və güclü lobbi formalaşıb. İntensiv şəkildə davam edən bu proses sübut edir ki, Prezident İlham Əliyevin Azərbaycanın dünyada tanıdılması istiqamətində müəyyənləşdirdiyi hədəflər uğurla reallaşmaqdadır.

Tədbirdə Yay məktəbi iştirakçılarının Prezident İlham Əliyevə müraciəti oxunub.

Sonda Yay məktəbinin iştirakçılarına sertifikatlar təqdim edilib.

# "Davamlı inkişaf haqqında hesabat" təqdim olundu

## Bir daha ötən ilin mühüm hadisələri barədə

2018-ci il Azərbaycanın neft-qaz sahəsində böyük uğurlar əldə etdiyi illərdən olub. Təkcə Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) genişləndirilməsinin başa çatdığını, "Şahdəniz-2"dən hasilatın əldə olunduğunu qeyd etmək kifayətdir. Sözügedən ilk iki mühüm seqmentin hazır olması keçən il mayın 29-da Səngəçal terminalında "Cənub qaz dəhlizi"nin açılış mərasiminin keçirilməsinə imkan verdi.

Bu və digər əhəmiyyətli hadisələr haqqında ətraflı məlumat BP Azərbaycan şirkətinin nəşr etdiyi 2018-ci ilə aid "Davamlı inkişaf haqqında hesabat"ında geniş əksini tapıb. Hesabat neft-qaz mövzusunda yazan jurnalistlərə təqdim olunub.

Xatırladaq ki, belə hesabatı Azərbaycanda ən böyük neft-qaz və ixrac layihələrinin əməliyyatçısı olan şirkət 2003-cü ildən buraxır. Jurnal şəklində nəşr edilmiş növbəti hesabatda 2018-ci təqvim ili ərzində qazanılmış istehsalat göstəriciləri, ətraf mühitin mühafizəsi ilə bağlı görülən işlər və digər fəaliyyət sahələri əhatə olunub.

Beləliklə, bir daha ötən ilin ən mühüm hadisələri haqqında:

Apreldə BP və SOCAR Şimali Abşeron hövzəsində D230 blokunun birgə kəşfiyyatı və işlənməsi üçün yeni Hasilatın Pay Bölgüsü Sazişi (HPBS) imzaladılar. Saziş Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Böyük Britaniyanın Baş Naziri Tereza Meyin iştirakı ilə London şəhərində imzalandı.

Mayda "Şahdəniz-2" və CQBK-nın genişləndirilməsi layihələri istismar mərhələsinə daxil oldu.

İyunda "Şahdəniz-2" layihəsi çərçivəsində Türkiyəyə plana uyğun şəkildə ilk kommersiya məqsədli daşımalar başlandı.

İyulda "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olundu.

Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri 255 milyon barelə yaxın (təxminən 34 milyon ton) xam neft nəql etdi. Bu neft Türkiyənin Ceyhan limanında 327 tankerə yükləndi.

"Azəri-Çıraq-Günəşli" yataqlarından 1997-ci ilin axırlarında başlanan neft hasilatı 2018-ci ilin sonunda 3,5 milyard barelə çatdı.

İlin sonunda eləcə də "Şahdəniz" yatağından 100 milyardıncı kubmetr qazın əldə olunduğu qeyd edildi. Bu, "Şahdəniz"in birinci mərhələsinin işə düşdüyü 2006-cı ildən sonrakı 12 il ərzində çıxarılmış qaz həcmi idi.



Topludakı "Əməliyyatlarımız", "Əməkdaşlarımız", "Əməyin təhlükəsizliyi", "Ətraf mühit", "Cəmiyyət", "Beşillik icra göstəriciləri" bölmələrində bir sıra digər önəmli fakt və rəqəmlər də diqqətə çatdırılıb. Məsələn, göstərilib ki, ilin sonunda BP-nin Azərbaycanda işə götürdüyü əməkdaşların sayı 2714 nəfərə çatıb. Bunların 2458-i Azərbaycan vətəndaşıdır. Hazırda dənizdəki əməliyyatlara 9 qazma qurğusu (onlardan 2-si səyyardır) cəlb edilib. Şirkət ölkəmizdə əməliyyatlara başlayandan bəri icma inkişafı, təhsil təşəbbüsləri də daxil olmaqla sosial proqramların həyata keçirilməsinə 82 milyon dollar vəsait xərcləyib və s.

Qeyd edək ki, sözügedən toplu BP Azərbaycanın sayca 16-cı hesabatıdır. Toplu hazırlanarkən əvvəlki hesabatlar barədə daxil olan rəylər də nəzərə alınıb.

***"Azərbaycan"***

# Ermənistan silahlı qüvvələri atəşkəs rejimini pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 16 dəfə pozub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, Ermənistanın Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Zamanlı kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Ağdam rayonunun işğal altında olan Cəvahirli, Mərzili, Füzuli rayonunun Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Ağdam rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Paytaxtda yeni layihənin icrasının ilkin nəticələri uğurludur

İyul ayının 10-dan paytaxtın Nərimanov rayonunda Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən Böyük Britaniyanın "Mott MacDonald" şirkəti ilə birgə hazırlanmış yeni pilot layihənin - bərk məişət tullantılarının yığılması, daşınması və çeşidlənməsinin ən müasir səviyyədə təşkil edilməsi layihəsinin icrasına başlanılıb.




Hazırlıq və sakinlərlə maarifləndirmə işlərinin yüksək səviyyədə aparılması nəticəsində keçən müddət ərzində bu istiqamətdə xeyli irəliləyişlər əldə olunub. Maarifləndirici tədbirlər, evlərə paylanan broşurlar, bloklara yapışdırılan elanlar, həyətlərdə, məhəllələrdə keçirilən görüşlər öz bəhrəsini verməkdədir. Meydançalara lazımi miqdarda konteynerlər yerləşdirilib, həyət və məhəllələrə cavabdehlər təyin edilib. Könüllülər gündəlik izahetmə işləri aparırlar. Sanitar-gigiyena tələblərinə uyğun mütəmadi olaraq konteynerlər yuyulur, meydançalar dezinfeksiya edilir.

Bakı Şəhər Mənzil Kommunal Təsərrüfatı Departamenti tərəfindən yaradılan Monitorinq Mərkəzində Bakıya ezam olunmuş "Mott MacDonald" şirkətinin nümayəndəsi - Tullantı menecmenti məsləhətçisi Artur Guasti ictimaiyyət və mətbuat nümayəndələrinə konsepsiya çərçivəsində indiyədək görülən və nəzərdə tutulan işlər barədə ətraflı məlumat verib və jurnalistləri maraqlandıran sualları cavablandırıb. Bildirib ki, tullantıların kompozisiyasının araşdırılmasının təkrarlanması əldə edilən təkrar emal tullantılarının nisbətinin dəqiq öyrənilməsidir: "Kompozisiya araşdırılmasının təkrarlanması hər dəfə nəticələrin dəqiqləşdirilməsi üçündür və hər 2-3 aydan bir təkrarlanması nəzərdə tutulub. Burada əsas məqsəd hansı materialların uğurlu, hansının isə uğursuz toplanması, nələri az, nələri çox əldə edə bilməyi öyrənməkdir".

Qeyd edilib ki, hər gün konteynerlər yoxlanılır, onların yerləşmə strukturu müzakirə olunaraq optimal variant tapılır, ümumi planda dəyişiklik edilərək mövcud vəziyyətə uyğunlaşdırılır: "Layihənin icrasının birinci həftəsinin nəticələri çox uğurludur. Kiçik, çox da vacib olmayan problemlər var, onlar qaçılmazdır. Onlar operativ şəkildə aradan qaldırılır. Hər gün yığılan tullantıların tərkibi və çəkiləri araşdırılır, məlumat bazasına əlavə edilir. Gündəlik olaraq "Təmiz şəhər" ASC-də oluruq və nəqliyyatın gətirdiyi tullantıları orada da araşdırırıq".

"Mott MacDonald" şirkətinin Tullantı menecmenti məsləhətçisi Artur Guasti bildirib ki, bir sıra ölkələrdə buna nail ola bilmirlər. Lakin sürətlə inkişaf edən Azərbaycanda bu layihənin tətbiqi mümkün olacaq: "Birinci həftə ərzində görülən işlərin araşdırılması bunu deməyə əsas verir. Bununla bağlı layihənin həyata keçirilməsində iştirak edənlərə və ilk növbədə Nərimanov sakinlərinə öz minnətdarlığımızı bildiririk".

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Əliyevşünaslığa dəyərli töhfə

## "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" memuar kitabı Ulu Öndərin zəngin irsinin öyrənilməsi üçün mühüm sənədli vəsaitdir

Azərbaycanın dilbər guşəsi olan muxtar respublikamızın son 30 ilə yaxın bir dövrdə qazandığı mühüm uğurlardan biri də naxçıvanşünaslıq elmi istiqamətinin formalaşdırılmasıdır. Bu elmi istiqamət tarixi-mədəni abidələrin bərpası və təbliği, elmi-tədqiqat işlərinin genişləndirilməsi ilə yanaşı, həm də çoxsaylı elmi-kütləvi nəşrlərin həyata keçirilməsi ilə də zənginləşdirilir.




Naxçıvan Muxtar Respublikası Ali Məclisinin keçmiş deputatı, 1989-1992-ci illərdə Naxçıvan Qarnizonunun rəisi olmuş general-mayor Rostislav Slaboşeviçin "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində yüksək poliqrafik keyfiyyətlə yenicə nəşr olunmuş "Heydər Əliyevin vətəni haqqında hərbçi deputatın xatirələri" kitabı da Naxçıvanla bağlı dəyərli rusdilli memuar ədəbiyyatdır.

Müəllifin də yazdığı kimi, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov 26 illik tarixi olan fotonu Minskə, ona göndərərək general-mayoru Naxçıvana dəvət etməklə 26 il sonra - 14-15 iyun 2018-ci il tarixlərində həmin səfərin yüksək səviyyədə təşkili ilə kitabın yaranmasının ideya təşəbbüskarı olub.

Yeni nəşrdə ötən əsrin 90-cı illərində Naxçıvanın ağır sosial-iqtisadi və siyasi vəziyyəti ilə bağlı əhəmiyyətli faktlar yer alıb. Kitab həmin tarixi prosesləri o dövrdə Naxçıvanda fəaliyyət göstərən hərbçi-deputatla birgə bugünkü prizmadan daha obyektiv qiymətləndirməyə imkan verir. Ümummilli Lider Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının müdafiəsi ilə bağlı gördüyü mühüm işlər general-mayorun şahidi olduğu tarixi proseslər kimi oxucuya çatdırılır. Bununla yanaşı, Ulu Öndərin Naxçıvanda yerləşən sovet ordusunun şəxsi heyətinin yerli əhali ilə münasibətlərinin tənzimlənməsindəki xidmətlərindən, xüsusilə dağılmış sovet iqtisadiyyatı şəraitində qoşun hissələrinin təminatına xüsusi diqqət yetirməsindən bəhs olunur. Bu mənada yeni nəşr 1989-1992-ci illərdə muxtar respublikada baş verən ictimai-siyasi hadisələrin öyrənilməsi baxımından mükəmməl sənədli-siyasi publisistika nümunəsi, ən yeni siyasət və hərb tariximizin real inikasıdır. Buna görə də yeni nəşri Ümummilli Liderin ölkəmizə rəhbərliyinin 50 illiyinə, muxtariyyətimizin 95 illik yubileyinə də layiqli töhfə hesab etmək olar.

Kitab 1949-cu il iyunun 25-də Minsk şəhərində anadan olmuş Rostislav Slaboşeviçin şəxsiyyəti, ən ağır ictimai-siyasi dövrləri də əhatə edən 9 il ərzində (1983-1992-ci illərdə) Naxçıvanda hərbi xidmət göstərməsi, müəllifin Ümummilli Liderimiz Heydər Əliyevlə birgə fəaliyyəti ilə bağlı real maraqlı faktlarla zəngindir. Xarkov Ali Tank Komandirləri Məktəbinin, Frunze adına Hərbi Akademiyanın məzunu olan, Belarusda müxtəlif hərbi vəzifələrdə xidmət edən, Zaqafqaziya Hərbi Dairəsinə alay komandirinin müavini təyin edilərək Gürcüstanın Duşeti şəhərində xidmət edən bir hərbçinin keçdiyi yol bu gün hərb sənətini seçənlər üçün bir örnəkdir. Rostislav Slaboşeviç 1983-cü ilin avqustunda Qıvraq kəndində yerləşən hərbi hissədə alaya komandirin birinci müavini təyin edilib, 1984-cü ildə isə Gəncə şəhərinə alay komandiri vəzifəsinə keçirilib, orada diviziya komandirinin müavini vəzifəsinədək yüksəlib. Naxçıvanla bağlılığı könüllü olaraq 1989-cu ildə bu diyara yenidən qayıtmasına səbəb olub, buradakı 75-ci Motoatıcı Diviziyaya komandir təyin edilib və 1992-ci ilə qədər həmin vəzifədə çalışıb.

Naxçıvanda müxtəlif hərbi vəzifələrdə uğurla xidmət etməsi nəticəsində bu diyar, müəllifin özünün də etiraf etdiyi kimi, onun hərbçi karyerasında tramplin rolunu oynayıb, arzularının reallaşmasına səbəb olub. O, əvvəlcə polkovnik-leytenant və polkovnik, daha sonra isə general-mayor rütbəsinə yüksəlib. 29 yanvar 1991-ci ildə general-mayor hərbi rütbəsi alarkən Ulu Öndərin onu şəxsən səmimi təbrik etməsi isə kitabda ən unudulmaz və əziz xatirə kimi təsvir olunur. General-mayorun kiçik qızı Nataşanın Qıvraqda doğulması, böyük qızının ilk dəfə burada məktəbə getməsi, hərbçi yoldaşları ilə bağlı xoş xatirələri onun Naxçıvana olan sevgisini təcəssüm etdirir.

Öz zəngin təcrübəsindən çıxış edən general-mayor bu gün Naxçıvan ordusunda xidmət edənlərə bu sənətin böyük iradə və əqidə, qətiyyət tələb etdiyini, öz hərbi andına sədaqətin, dəmir hərbçi nizam-intizamının, hərbi geyimdəki səliqə-sahmanın, yüksək davranış və ciddiyyətin ordunun siması olması, onun döyüş əzmkarlığı, müdafiə əzmi barədə ictimai rəy doğurması ilə bağlı dəyərli tövsiyələr verir. Naxçıvan gənclərinə öz milli ordusunda xidmət edib öz vətənini və xalqını qorumağın böyük səadət olduğunu həsəd hissi ilə etiraf edir.

Kitabda Sovet İttifaqı Qəhrəmanı, general-polkovnik Boris Qromovun rəhbərliyi ilə Rusiya Federasiyası Dövlət Dumasının deputatlarının 1992-ci ildə Naxçıvanda olmaları, naxçıvanlıların hansı çətinliklərlə yaşayıb nəinki doğma yurdu tərk etməmələrini, eyni zamanda böyük vətənpərvərliklə erməni işğalçıları ilə mübarizə aparmalarını həsəd və heyrətlə müşahidə etmələrindən bəhs olunur. Elə buna görə də deputatların Sovet İttifaqı, sonra isə Rusiya Federasiyasına məxsus silah-sursat, hərbi texnika, təsərrüfat əmlakı və texniki qurğuların yalnız Naxçıvana məxsus olması qərarına gəlmələri də maraqdoğuran faktlardandır.

Qeyd olunur ki, Ümummilli Lider Heydər Əliyevin müdrik siyasəti nəticəsində bu proses digər yerlərdən fərqli olaraq heç bir dağıntı və talana yol verilmədən həyata keçirilib, Naxçıvanda yerləşən 75-ci Motoatıcı Diviziyanın zabit və əsgər heyəti, onların ailə üzvləri, başda diviziya komandiri general-mayor Rostislav Slaboşeviç olmaqla, 1992-ci ilin avqust ayının 18-də xüsusi təyyarə ilə yola salınıblar.

Kitabda Naxçıvanın müdafiəsində iştirak edən rus hərbçilərinə öz doğmaları kimi qayğı göstərən yerli əhalinin mentalitetindən, qonaqpərvərliyindən, Naxçıvan mətbəxinin zənginliyindən, Naxçıvanın təbiətinin ecazkar gözəlliklərindən və bu gözəlliyə yeni çalarlar qatan müasir infrastrukturdan da söhbət açılır.

Müəllif ermənilərlə sərhəd bölgəsi olan Sədərəkdə, işğalçılar ilə mübarizə aparan bir diyarla bugünkü Naxçıvanı müqayisə edərək inkişafın heyrətamiz olduğunu, muxtar respublika rəhbərinin Naxçıvanın müdafiəsi və qorunması üçün böyük işlər gördüyünü, müasir ordu yaradıldığını, əhalinin həyat səviyyəsinin yüksəldiyini böyük qürurla qeyd edir: "Naxçıvanın 26 il əvvəlki keçmişini xatırlayaraq bugününə nəzər salanda qətiyyətli inamla deyə bilərəm ki, həyatın mənası var və o, sizin zəhmətsevər əllərinizdə, sizin təfəkkürünüzdə, "bu gün yaxşıdır, sabah daha gözəl olacaq" inamınızdadır. Yaşamalı, yaratmalı, övlad və nəvələrinizi böyütməlisiniz. Onda daha gözəl olacaq. Ən əsası isə öz respublikanızın, ordunuzun müdafiə qüdrətini daim gücləndirməlisiniz. Bu, sizin xoşbəxtliyinizin və firavanlığınızın əsas faktorudur".

Müəllif "Sülh istəyirsənsə, hərbə hazır ol!" müdrik deyiminin bu gün mənfur düşmənlə həmsərhəd olan Naxçıvan üçün xüsusilə aktual olduğunu və nail olunan ordu quruculuğunun əhəmiyyətini vurğulayır. Hərbi hissələrdəki güclü nizam-intizamdan, qayda-qanundan, yeməkxanada daddığı hərbçi yeməyinin çox evlərdəkindən keyfiyyətli olmasından, sanitar-gigiyenanın qorunmasından, hərbi tibbi müəssisələrin, hərbi tibbi personalın, şəfqət bacılarının fəaliyyətindən məmnunluqla danışır.

Rostislav Slaboşeviç yazır: "2017-ci ildə Naxçıvanda keçirilən hərbi parada baxarkən qeyd etmək istəyirəm ki, Naxçıvan rəhbərliyi, ordu komandanlığı mövcud hərbi təcrübənin ən yaxşı ənənələrini qətiyyətlə inkişaf etdirir. Real göstəricilərə nail olmaq, müasir hərbi texnika və silahla təminat, əsgərdən generalınadək hərbi geyim, texniki təchizat... Bu, öz xalqına və dövlətinə qürur gətirməyə bilməz. Bu, mənə ilk olaraq vaxtilə Ümummilli Lider Heydər Əliyevin Naxçıvanın özünümüdafiə dəstələrinə baxış keçirərkən Naxçıvanda güclü ordu olacağı ilə bağlı inam və arzularını xatırlatdı".

Rostislav Slaboşeviç Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı kimi ictimai-siyasi fəaliyyəti ilə də seçilib. Elə kitabda da müəllif təkcə hərbçi kimi deyil, ictimai-siyasi xadim kimi də Azərbaycanın keçdiyi inkişaf yolunu, düzgün siyasi strategiyasını dərin təhlil edərək hələ də konkret siyasi xəttini, prioritet hədəflərini müəyyənləşdirə bilməyən bəzi keçmiş MDB ölkələri ilə müqayisədə respublikamızın möhtəşəm uğurlar qazandığını bildirir, bunu Heydər Əliyev dühasının, zəkasının təntənəsi kimi qiymətləndirir. Müəllif Ümummilli Lideri kabinetdəki təkbətək görüşlər və gərgin müzakirələr, hərbçilərlə bayram süfrəsi arxasında səmimi söhbətlər, sessiyadakı birgə fəaliyyət fonunda dahi siyasətçi kimi təqdim edir. Əsrdə Ali Məclisin Sədri, DTK generalı, xalqına və vətəninə bağlı dövlət başçısı kimi, milli-mənəvi dəyərləri yaşadan, mədəniyyətimizin qorunub saxlanılmasında və təbliğində özünəməxsus rol oynayan bir şəxsiyyətin parlaq siması yaradılır.

Naxçıvanın keçmişi ilə bugününün real faktlar üzərində dolğun müqayisəsindən ibarət kitabı mütaliə etdikcə, belaruslu müəllifin "müqayisəolunmaz dərəcədə, yerdən göyə qədər fərq var, Naxçıvan inanılmaz və sürətli inkişaf yolu keçib" qənaəti fəxarət və iftixar doğurur. Başlıcası isə Naxçıvanın ən ağır sınaqlar qarşısında qaldığı, çətin və məşəqqətli günlərdə, müharibə vəziyyətində sovet hərbçisinin bütün bunlara mətanətlə dözərək naxçıvanlılarla birgə yaşaması, fəaliyyət göstərməsi və bu gün həmin dövrü xoş xatirələrlə yada salması, müəllifin özünün də etiraf etdiyi kimi, Ümummilli Liderin dahiliyinə, vətəninə və xalqa bağlılığına, milli fədailiyinə yaranan sevgisindən irəli gəlirdi. Bu, bir daha təsdiq edir ki, vətəni məhz Ümummilli Lider Heydər Əliyev kimi tarixi şəxsiyyət tanıda və sevdirə bilər.

Görkəmli dövlət xadiminə dərin sevgi və ehtiram, Naxçıvana bağlılıq bu gün də uzaq Minskdə, Rostislav Slaboşeviçin qəlbində yaşayır. Bunu elə yeni kitabın ərsəyə gəlməsində, Azərbaycanın Belarusdakı səfirliyi ilə sıx əlaqələrində, Ümummilli Liderin hədiyyəsi olan "Hüseyn Cavid" fotoxalçasını qiymətli yadigar kimi əzizləməsində də görmək olar. 1992-ci il avqustun 18-də 75-ci Motoatıcı Diviziyanın silah-sursatının Naxçıvana təhvil verilməsi mərasimində Ümummilli Lider Heydər Əliyevin də siyasi uzaqgörənliklə dediyi kimi, vaxtilə burada xidmət etmiş hərbi qulluqçular bu gün də Naxçıvanla əlaqələrini kəsmir, Azərbaycan həqiqətlərinin dünyəvi təbliğinə, ölkələr və xalqlar arasında əlaqələrin möhkəmlənməsinə çalışırlar.

Heydər Əliyev irsinin layiqli siyasi varislərindən olan muxtar respublika rəhbəri və qədirbilən xalqımız da Naxçıvan və naxçıvanlılar üçün xüsusi xidmətləri olmuş insanları unutmur. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin dəvəti ilə general-mayor Rostislav Slaboşeviçin iyun ayının sonlarında Naxçıvana gəlməsi, onun 70 illik yubileyinin və kitabın təqdimatının yüksək səviyyədə təşkili bunun bariz nümunəsidir. Səfər zamanı general-mayor ötən dövr ərzində muxtar respublikada inkişaf və tərəqqinin yaratdığı yeni möcüzələrlə rastlaşıb. İyunun 7-11-də Naxçıvanda keçirilən Azərbaycan-Türkiyə Silahlı qüvvələrinin "Sarsılmaz qardaşlıq - 2019" birgə döyüş atışlı taktiki təlimləri, Kəngərli rayonunun Qıvraq qəsəbəsindəki hərbi hissədə zabit-gizir ailələri üçün yeni yaşayış binasının istifadəyə verilməsi və daha belə neçə faktlarla dolu zəngin təəssürat, heç şübhəsiz ki, uzaq Minskdə Naxçıvanla bağlı səmimiyyət və hərarət dolu yeni rusdilli memuarın yaranmasına səbəb olacaq. Bir sözlə, müasir Naxçıvan öz inkişaf və uğurları ilə heyrətləndirməyə davam edir...

***Mehriban SULTAN,***
***"Şərq qapısı" qəzetinin baş redaktoru,***
***filologiya üzrə fəlsəfə doktoru***

# QMİ-nin Gürcüstan nümayəndəliyi Keşikçidağ məbəd-kompleksi ətrafında yaranmış vəziyyətlə bağlı bəyanat yayıb

"Azərbaycan və Gürcüstan xalqları arasında əsrlər boyu tarixi dostluq və qardaşlıq münasibətləri mövcud olub. Əsrlərin sınağından çıxmış qardaşlığımız son günlər baş verən təxribat səbəbindən daha bir imtahandan keçir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Qafqaz Müsəlmanlar İdarəsinin (QMİ) Gürcüstandakı səlahiyyətli nümayəndəsi Hacı Əli Əliyevin Keşikçidağ məbəd-kompleksi ətrafında yaranmış vəziyyətlə bağlı bəyanatında yer alıb.

Bəyanatda deyilir: "Mən Gürcüstan vətəndaşı və Gürcüstan azərbaycanlısı olaraq əminliklə deyə bilərəm ki, gürcü və Azərbaycan xalqları, dindarları arasında heç bir nifaq, milli və ya dini qarşıdurma halı yoxdur, ola da bilməz. Bunun üçün əsas yoxdur və xalqlarımız, dövlət, hökumət rəsmilərimiz arasında olan strateji münasibətlər, dini liderlərimizin müdrikliyi, onların dünyaya örnək qardaşlıq əlaqələri buna imkan vermir".

Vurğulanır ki, Gürcüstanda yaşayan azərbaycanlılar Gürcüstan dövlətinin diqqət və qayğısını hər zaman hiss edirlər. Dindarlarımızın ibadət və mərasimləri üçün hər cür şərait mövcuddur. Dövlət rəsmiləri dini bayramlarımızda bizi təbrik edir, mərasimlərimizdə iştirak edirlər. Gürcüstan vətəndaşları olan azərbaycanlılar Gürcüstan dövlətinin inkişafı üçün əllərindən gələni əsirgəmirlər. Yarım milyonluq azərbaycanlı icması gürcü xalqı ilə birlikdə çiyin-çiyinə Gürcüstan dövlətinin siyasi, iqtisadi, mədəni həyatının bütün sahələrində iştirak edir. Onlar ölkənin ərazi bütövlüyü uğrunda şəhidlər veriblər. Azərbaycanlı müsəlman icmasının bütün məsələlərinə gürcü hökuməti hər zaman həssaslıqla yanaşır, onların müsbət həllinə yardımçı olur.

"QMİ-nin səlahiyyətli nümayəndəsi olaraq Ümumgürcüstan Katolikos-Patriarxı II İlya həzrətləri ilə tez-tez görüşürəm, onun xalqımıza olan xoş münasibətinin şəxsən şahidiyəm. Azərbaycanda yaşayan gürcü xalqının nümayəndələri üçün də hər cür şərait yaradılıb.

Belə bir qarşılıqlı ehtiram və etimad mühiti, görünür, bədxahlarımızın işinə yaramır. Təxribatlara əl atmaqla iki xalqın arasına nifaq toxumu səpmək, qarşıdurma yaratmaq ümidindədirlər. Xəyanətkarlığın ardında duran qüvvələrin ən böyük məqsədi bu qarşıdurmanı təkcə milli deyil, dini müstəviyə daşımaqdır. Bu mənfur, bədxah niyyəti Qafqazda gerçəkləşdirmək cəhdləri məlum qüvvələrin zəhərli təfəkküründə hər zaman mövcud olub. Xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi başlanan zamanlarda bu məsələ erməni ekstremistləri tərəfindən xüsusi canfəşanlıqla, məqsədyönlü şəkildə xristian-müsəlman qarşıdurması kimi qabardılırdı. O zaman Qafqazın dini liderlərinin müdrik mövqeyi, Azərbaycanın dini lideri Şeyxülislam Allahşükür Paşazadə həzrətləri və Gürcü Pravoslav Kilsəsinin rəhbəri Patriarx II İlya həzrətlərinin birgə zəruri addımlar atmaları nəticəsində münaqişəyə dini səciyyə vermək istəyənlərin niyyətinin qarşısı alındı. Lakin təəssüflər olsun ki, maraqlı qüvvələrin Qafqazda bu ssenarinin zaman-zaman yenidən gündəmə gətirmək istəkləri var. Eyni ssenarinin gürcü və Azərbaycan xalqları arasında yaşanmasına imkan verə bilmərik.

Biz ümidvarıq ki, Keşikçidağ məbədi ətrafında yaradılmış süni problem aidiyyəti qurumlar tərəfindən tezliklə həllini tapacaqdır, inşallah. Bu istiqamətdə işlər gedir və öz hüquqi həllini tapacaq. Biz dindarlar bunun üçün Bir Olan Yaradanımıza dualar edir, xalqlarımız və dövlətlərimizin dostluq və qardaşlıq münasibətlərinin bu imtahandan da üzüağ çıxaraq daha da dərinləşməsini diləyirik. Biz, Gürcüstan və Azərbaycanın sağlam düşüncəli qüvvələri, siyasiləri, ictimai və din xadimləri, siravi vətəndaşları yalnız səylərimizi birləşdirməklə bütün problemləri, anlaşılmazlıqları aradan qaldıra bilərik. Kənardan müdaxilə və təxribatlar yolverilməzdir. Ağsaqqallarımız olan dini liderlərimizin birmənalı mövqeyi olduqca mühümdür.

Keşikçidağ məbəd-kompleksi ətrafında yaranmış məsələyə dair ötən aylarda Katolikos-Patriarx II İlyanın müdrik ağsaqqal mövqeyinin, təmkinli, xalqlarımız arasında sülh və qardaşlığın qorunub saxlanılmasını prioritet sayan yanaşmanın şahidi olduq. Bu məsələləri kənardan körükləyənlərə qarşı II İlya həzrətlərinin kəskin mövqeyi və ciddi etirazı özünü gözlətmədi. Bu məsələdə maraqlı olan kənar qüvvələrin rolunu da istisna etməyən patriarxlıq bunun yolverilməz olduğuna dair qətiyyətli mövqe bildirdi.

Eyni zamanda Qafqaz Müsəlmanlarının dini lideri Şeyxülislam Allahşükür Paşazadə bununla bağlı birmənalı mövqeyini ifadə etdi".

Dini hissələrdən siyasi məqsədlər üçün sui-istifadə yolverilməzdir və dini qarşıdurma yaratmaq cəhdi ikrah doğuran haldır. Biz, Gürcüstan və Azərbaycan dindarları dövlətlərimizin və dini liderlərimizin mövqeyindən çıxış edərək bu yolda öz səylərimizi əsirgəməyəcək, xalqlarımızı qarşı-qarşıya qoymağa çalışan qüvvələrin təxribatlarına uymayacağıq. Bədxahlarımızın, marağı olan qüvvələrin məkrli niyyətləri tarixi qardaşlıq və ənənəvi Qafqaz müdrikliyi qarşısında puç olacaqdır, inşallah!", - deyə bəyanatda bildirilir.

# Atletlər kəndində "Olimpiya mədəniyyəti və təhsil proqramı" pavilyonunun açılışı olub





Azərbaycan Milli Olimpiya Komitəsi, Təhsil, Gənclər və İdman nazirlikləri, "Bakı 2019" Əməliyyat Komitəsinin dəstəyi ilə "Olimpiya mədəniyyəti və təhsil proqramı"nın iyulun 22-də Atletlər kəndində pavilyonunun açılış mərasimi olub.

AZƏRTAC xəbər verir ki, pavilyonda Atletlər kəndində məskunlaşan idmançılara, rəsmi nümayəndələrə və qonaqlara proqram vasitəsilə Bakıdan seçilmiş 49 təhsil müəssisəsinin nümayəndələri tərəfindən Avropa ölkələrinin mədəniyyəti, incəsənəti, tarixi və idmanı barədə məlumat təqdim edilir. Pavilyonun qarşıya qoyduğu digər məqsəd gənc idmançılar arasında Olimpiya dəyərləri, mədəniyyətlərarası əlaqə, sülh və dostluğu təşviq etməkdir.

Mərasimdə Gənclər və İdman naziri Azad Rəhimov, Təhsil naziri Ceyhun Bayramov, Milli Olimpiya Komitəsinin (MOK) vitse-prezidentləri Çingiz Hüseynzadə, Xəzər İsayev, MOK baş katibinin müavini Azər Əliyev, üzv ölkələrin Milli Olimpiya komitələrinin rəsmiləri, Azərbaycanda fəaliyyət göstərən diplomatik korpusun nümayəndələri, müxtəlif ölkələrdən olan qonaqlar iştirak ediblər.

Çingiz Hüseynzadə tədbirdə çıxış edərək dostluğu, qarşılıqlı hörməti, sülhü və mükəmməlliyi özündə ehtiva edən Olimpiya hərəkatının Avropa Gənclər Olimpiya Festivalında təşəkkül tapdığını bildirib. O deyib ki, idmançılar və məktəblilər Olimpiya dəyərlərinin təbliğində əsas aspektləri təşkil edirlər.

Gənclər və İdman naziri Azad Rəhimov "Bakı 2019" Avropa Gənclər Yay Olimpiya Festivalının nəinki Azərbaycanda, Avropanın bütün ölkələrində bədən tərbiyəsi və idmanın inkişafı baxımından töhfəsini yüksək qiymətləndirib. "Biz Avropa Gənclər Olimpiya Festivalı və "Olimpiya mədəniyyəti və təhsil proqramı" vasitəsilə mümkün qədər daha çox uşağın idmana maraq göstərməsini və sağlam həyat tərzi sürməsini istəyirik", - deyə nazir əlavə edib.

Təhsil naziri Ceyhun Bayramov məktəblərin və şagirdlərin bu proqramdakı rolundan danışıb. Bildirib ki, belə layihələr məktəblilərdə sağlam həyat tərzinin formalaşmasında, idmanın kütləviliyinin təmin olunmasında, ölkələr və mədəniyyətlərarası dostluğun inkişafında və istedadlı gənclərin üzə çıxarılmasında misilsiz rol oynayır. Nazir Gənclər və İdman Nazirliyi, Milli Olimpiya Komitəsi ilə Təhsil Nazirliyinin daha bir uğurlu və tarixi layihəyə imza atdıqlarını vurğulayıb.

Çıxışlardan sonra tədbir iştirakçıları pavilyonla tanış olublar.

Sonda məktəblilərin hazırladıqları bədii hissə təqdim edilib.

# Azərbaycanın Gənclər və İdman naziri Slovakiya Baş Nazirinin müavini ilə görüşüb

İyulun 22-də Azərbaycan Respublikasının Gənclər və İdman naziri Azad Rəhimov növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın ölkəmizdə səfərdə olan Baş Nazirinin müavini Riçard Rasi ilə görüşüb.

Gənclər və İdman Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə A.Rəhimov Azərbaycanın evsahibliyi etdiyi ilk Avropa, IV İslam Həmrəyliyi Oyunları və digər mötəbər turnirlər, eləcə də həmin yarışlara hazırlıq çərçivəsində görülən işlər, kadr potensialı barədə məlumat verib. Nazir vurğulayıb ki, xüsusilə I Avropa Oyunları zamanı ölkəmizdə qısa müddətdə yüksək səviyyədə inşa olunan yeni idman qurğuları növbəti yarışlar üçün miras qalıb.



I Avropa Oyunlarından sonra Azərbaycanda keçirilən digər yarışlar məhz bu idman qurğularında yüksək səviyyədə təşkil olunub.

Söhbət zamanı nazir gənc idmançılar nəslinin yetişməsində və inkişafında böyük rolu olan Avropa Gənclər Olimpiya Festivalı haqqında da məlumat verib. Nazir ölkəmizin bu mötəbər yarışa ciddi hazırlaşdığını bildirib, görülən işlərdən danışıb. Qeyd edib ki, Avropa Olimpiya Komitələrinin əlaqələndirmə komissiyasının il ərzində Bakıda keçirilən görüş və iclaslarında yarışa hazırlıq prosesi ətraflı müzakirə edilib. A.Rəhimov qonağa festivalın keçirildiyi arenalar, eləcə də Atletlər kəndində yaradılan şərait və digər məsələlər barədə ətraflı məlumat verib.

Slovakiya Baş Nazirinin müavini Riçard Rasi Azərbaycanın mötəbər idman tədbirlərinə çox yüksək səviyyədə evsahibliyi etdiyini və bu sahədə zəngin təcrübəyə malik olduğunu vurğulayıb. Qonaq XV Avropa Gənclər Olimpiya Festivalının da Bakıda uğurla təşkil edildiyini deyib. Növbəti festivala Slovakiyanın evsahibliyi edəcəyini xatırladan R.Rasi həmin yarışların ölkəsində uğurla keçiriləcəyinə əminliyini bildirib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

# Təhsil avtobusu iki min kilometrdən çox məsafə qət edəcək

"Təhsil avtobusu - Nəsimi" yay məktəbinin məqsədi təhsilin keyfiyyətinin yüksəldilməsində ictimaiyyətin iştirakına şərait yaradılması, əlavə təhsil imkanları ilə şagirdlərin biliyinin, dünyagörüşünün artırılması və Nəsimi yaradıcılığının tanıdılmasıdır.

AZƏRTAC xəbər verir ki, bu fikri təhsil nazirinin müavini Firudin Qurbanov iyulun 22-də Təhsil Nazirliyində Nəsimi ilinə həsr olunan "Təhsil avtobusu - Nəsimi" yay məktəbi ilə bağlı mətbuat konfransında söyləyib.



Prezident İlham Əliyevin 2019-cu ilin ölkəmizdə "Nəsimi ili" elan olunması ilə bağlı sərəncamının əhəmiyyətini qeyd edən Firudin Qurbanov dövlət başçısı tərəfindən təhsil sahəsinə xüsusi diqqət və qayğı göstərildiyini bildirib. Nazir müavini təhsillə bağlı müxtəlif layihələrin uğurla reallaşdırıldığını söyləyib.

Firudin Qurbanov deyib ki, əsas məqsəd yeni nəslə təkcə bilik, bacarıq və vərdişlərin ötürülməsi deyil, həm də milli-mənəvi dəyərlərin aşılanmasıdır.

Layihə rəhbəri Şahin Seyidzadə layihənin ölkənin 5 bölgəsindəki ümumtəhsil məktəblərinin akademik göstəriciləri zəif və orta olan 6-9-cu sinif şagirdlərinin şəxsi inkişafına, dünyagörüşünün formalaşmasına, onların dərslərə marağının artmasına şərait yaradacağını vurğulayıb.

Tədbirdə məlumat verilib ki, iyulun 23-dən 29-dək davam edəcək yay məktəbi çərçivəsində ölkənin 5 bölgəsində yaşayan şagirdlər peşə, natiqlik, incəsənət, fərdi-inkişaf təlimləri və intellektual yarışlarda iştirak edəcəklər.

"Təhsil avtobusu - Nəsimi" Bakı şəhərindən yola düşərək Qusar-Astara-Cocuq Mərcanlı-Qazax-Şamaxı-Bakı marşrutu üzrə səyahət edəcək. Layihənin bağlanış mərasimi İmadəddin Nəsiminin doğulduğu Şamaxı şəhərində keçiriləcək.

"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"na uyğun həyata keçirilən layihə keyfiyyətli təhsil üçün bərabər imkanlar yaradılmasına xidmət edən təhsil proqramıdır.

"Təhsil avtobusu - Nəsimi" yay məktəbi Təhsil Nazirliyinin təşkilatçılığı, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi və "Kapital Bank"ın əsas dəstəyi, "Bakcell", "Paşa Həyat Sığorta" və "Optimal" şirkətlərinin dəstəyi, "Vitam Reklam", "Şərq-Qərb" ASC əsas tərəfdaşlığı, Azərbaycan İntellektual Klublar Assosiasiyası, "Asmart" yaradıcılıq mərkəzi, "Bir" tələbə-könüllü proqramı, "BD Kids", "Code Tusi" şirkəti, "SABAH" qrupları, "SABAH" Futbol Klubu, "Şəhanə" onlayn mağazasının tərəfdaşlığı ilə keçirilir.

Layihəyə informasiya dəstəyi verənlər sırasında Azərbaycan Dövlət İnformasiya Agentliyi (AZƏRTAC) də var.

"Təhsil avtobusu" yay məktəbi "Azərbaycan üçün öyrət" Milli Təhsil Proqramının ölkəmizin müxtəlif şəhər və rayonlarını əhatə edən təhsil marafonudur. 2016-cı ildən start götürən "Təhsil avtobusu" yay məktəbi çərçivəsində 6 min km yol qət edilib, Bakı və 12 bölgənin (Lənkəran, Quba, Gəncə, Şəki, Masallı, Cəlilabad, Sabirabad, Mingəçevir, İsmayıllı, Zaqatala, Şəmkir, Qəbələ) 29 şəhər və 31 kənd-qəsəbə məktəbinin, 22 ali və orta ixtisas təhsili müəssisəsinin 550-dən çox şagird və tələbəsi cəlb edilib, təlimçi və ekspertlər tərəfindən 200 akademik saatdan çox həcmdə təhsil proqramları və komanda-öyrədici oyunları keçirilib.

# İqor JDANOV: "İdman sahəsində ölkələrimiz arasında çoxdan bəri sıx əlaqələr mövcuddur"

Ukraynanın Gənclər və İdman naziri İqor Jdanov başda olmaqla bu ölkənin nümayəndə heyəti Azərbaycan tərəfinin dəvəti ilə XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Bakıda səfərdədir.

AZƏRTAC xəbər verir ki, iyulun 22-də Azərbaycan Gənclər və İdman Nazirliyində Azərbaycanın və Ukraynanın Gənclər və İdman nazirlikləri arasında Bədən tərbiyəsi və idman sahəsində İkiillik əməkdaşlıq proqramı imzalanıb. Sənədi Azərbaycanın Gənclər və İdman naziri Azad Rəhimov və onun ukraynalı həmkarı İqor Jdanov imzalayıb.

Qarşılıqlı anlaşma memorandumu çərçivəsində iki ildə bir dəfə imzalanan Əməkdaşlıq Proqramı Azərbaycan ilə Ukrayna arasında bədən tərbiyəsi və idman sahəsində qarşılıqlı fəaliyyəti konkretləşdirir. Ukraynanın Gənclər və İdman naziri İqor Jdanov AZƏRTAC-a müsahibəsində bildirib ki, imzalanmış Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramı 2019-2020-ci illər üçün nəzərdə tutulub. İ.Jdanov deyib: "Bu gün biz Azərbaycanın və Ukraynanın Gənclər və İdman nazirlikləri arasında Bədən tərbiyəsi və idman sahəsində İkiillik Əməkdaşlıq Proqramını imzaladıq. Biz ukraynalı idmançıların sizin idmançılarla birgə toplantılar və məşqlər keçirmək üçün Azərbaycana gəlməsinə hazırıq və əlbəttə, Azərbaycan idmançılarını Ukraynaya dəvət edirik. İdman sahəsində ölkələrimiz arasında çoxdan bəri sıx əlaqələr mövcuddur və düşünürəm ki, həmin əlaqələr bundan sonra da inkişaf edəcək".

Ukraynalı nazir XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün dəvətə görə Azərbaycan rəhbərliyinə, habelə Gənclər və İdman naziri Azad Rəhimova təşəkkürünü bildirib. İ.Jdanov sonda deyib: "Tədbir çox gözəl təşkil edilib. Dünən biz festivalın açılışında olduq, hər şey çox gözəl idi. Düşünürəm ki, açılış bu hadisəyə layiq oldu".

# 144 illik şərəfli yol

## Azərbaycanda KİV-in inkişafı dövlət siyasətinin əsas xəttini təşkil edir

*Əvvəli 1-ci səh.*

Ona görə də müstəqil ölkəmizdə mətbuatın inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Heydər Əliyev tərəfindən dəfələrlə mətbuat işçilərinə müxtəlif yardımların edilməsi, redaksiyaların maddi-texniki bazalarının formalaşdırılması, qəzetlərin "Azərbaycan" nəşriyyatına olan borclarının dondurularaq sonradan ləğv edilməsi, ayrı-ayrı vaxtlarda ölkənin aparıcı media nümayəndələrini qəbul etməsi Azərbaycan mətbuatının bugünkü inkişafını və gələcək perspektivini təmin etmiş oldu.

Ümumilikdə Ulu Öndər mətbuatın problemlərinin həlli ilə bağlı 10-dan çox sərəncam və fərman imzaladı. 1999-cu ildə "Kütləvi İnformasiya Vasitələri haqqında" beynəlxalq tələblərə cavab verən qanun qəbul edildi. Heydər Əliyevin 1998-ci il 6 avqust tarixli sərəncamı ilə Azərbaycanda senzura ləğv olundu.

2001-ci il dekabrın 18-də ölkənin əsas kütləvi informasiya vasitələri və jurnalist təşkilatlarının rəhbərləri ilə görüşən Ulu Öndər mətbuatın problemlərini müzakirə etdikdən sonra bəzi məsələlər operativ həllini tapdı, qəzetlər əlavə dəyər və mənfəət vergisindən azad edildi. Ümummilli Liderin mətbuata bu cür dost münasibəti jurnalistlər tərəfindən də yüksək dəyərləndirildi.

Mətbuat demokratik prinsiplərin formalaşmasında ən başlıca vasitədir. Ona görə də, hansı cəmiyyət özünü demokratik görmək, bu dəyərlərə yiyələnmək istəyirsə, mətbuatın inkişafına diqqət yetirməlidir. Məhz bu baxımdan da, ölkəmizdə mətbuata, söz azadlığına böyük diqqət və qayğı göstərilir. Elə bu diqqətdən irəli gələn bir keyfiyyətdir ki, Azərbaycan mətbuatı bu gün jurnalistikanın yeni dövrünə qədəm qoyub. Yeni jurnalistika, ilk növbədə, 144 ildə keçmiş olduğu tarixi yola və qazanmış olduğu ənənələrə söykənir.

Hazırda respublikada çoxlu sayda müxtəlif qəzet və jurnallar nəşr olunur, internet media inkişaf edir. Müasir dövrdə informasiya texnologiyalarının inkişafı Azərbaycan mətbuatını qlobal informasiya şəbəkəsinin bir hissəsinə çevirib. Ölkədə söz və mətbuat azadlığına, KİV-ə ən yüksək səviyyədə diqqət və qayğı var.

Prezident İlham Əliyevin 31 iyul 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında KİV-in inkişafına dövlət dəstəyi Konsepsiyasının" təsdiq edilməsi, bir il sonra, 3 aprel 2009-cu il tarixində Prezident yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun yaradılması azad medianı inkişaf etdirmək, mətbuatın maddi-texniki bazasını möhkəmləndirmək, jurnalistlərin sosial-iqtisadi vəziyyətini yaxşılaşdırmaq məqsədilə atılan mühüm addımlar idi.

Milli mətbuatın yubileylərinin ölkədə geniş qeyd olunması, KİV-ə birdəfəlik yardımların göstərilməsi, mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsi tədbirləri, həmçinin milli mətbuatın inkişafındakı xidmətlərinə görə jurnalistlərin fəxri adlarla təltif edilməsi haqqında sərəncamlar da mətbuata və mətbuat işçilərinə qayğının tərkib hissəsidir. Dövlət başçısının Azərbaycan mətbuat işçilərinin sosial müdafiəsinin gücləndirilməsinə dair sərəncamları əsasında jurnalistlər üçün iki yaşayış binası tikilib. 2013-cü və 2017-ci illərdə Prezident İlham Əliyev jurnalistlər üçün tikilmiş binalarda Milli Mətbuat Günü münasibətilə mənzillərin paylanması mərasimlərində iştirak edib. Dövlət başçısı 2017-ci ildə mətbuat işçiləri üçün sayca üçüncü yaşayış binasının tikintisi ilə bağlı sərəncam imzalayıb.

Göründüyü kimi, ildən-ilə inkişaf edən Azərbaycan mətbuatına dövlət tərəfindən yüksək qayğı göstərilir və bu sahəyə diqqət daimidir.

Müasir dövrdə informasiya amili mühüm önəm kəsb edir və dünyada bu faktor daha da güclənməkdədir. Milli mətbuatımız milli və ümumbəşəri dəyərlərin təbliğində, xalqımızın tarixi keçmişinin öyrənilməsində, vətənpərvərlik hisslərinin cəmiyyətə aşılanmasında, ölkəmizin müstəqillik illərində bütün sahələrdə əldə etdiyi uğurlu nəticələrin cəmiyyətə çatdırılmasında yaxından iştirak edir. Mətbuat Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı həqiqətlərin dünya ictimayyətinə çatdırılmasında, düşmənə qarşı aparılan informasiya müharibəsində çox mühüm rol oynayır. Prezident İlham Əliyev də "Facebook" səhifəsində 22 iyul - Milli Mətbuat Günü münasibəti ilə etdiyi paylaşımda vurğulayıb ki, bünövrəsi "Əkinçi" ilə qoyulmuş milli mətbuatımız bu gün Azərbaycanın dünyada eşidilən səsidir.

Bir sözlə, bu gün Azərbaycanda mətbuata dövlət tərəfindən ən yüksək səviyyədə diqqət və qayğı göstərilir. Bu gün Azərbaycanda Heydər Əliyevin siyasi kursu və ideyaları uğurla davam etdirilir. Ölkədə güclü, müstəqil, obyektiv informasiya daşıyıcısı olan, eyni zamanda dövlətçilik prinsiplərinə sədaqət nümayiş etdirən, milli maraqların təəssübkeşi olan mətbuatın formalaşması və inkişafı dövlət siyasətinin əsas xəttini təşkil edir.

**Rəşad BAXŞƏLİYEV,**
**"Azərbaycan"**

# Azərbaycanla Türkiyə arasında əmlak idarəçiliyi sahəsində əməkdaşlıq genişlənir

Azərbaycanla Türkiyə arasında əmlak idarəçiliyi sahəsində əməkdaşlıq getdikcə genişlənir, mütəmadi birgə təcrübə mübadiləsi aparılır, yeni layihələr reallaşdırılır. Əmlak Məsələləri Dövlət Komitəsinin (ƏMDK) sədri Kərəm Həsənovun Türkiyəyə işgüzar səfəri bu qarşılıqlı əməkdaşlığın daha da genişləndirilməsi baxımından səmərəli olub. İlk görüş qardaş ölkənin Ətraf Mühit və Şəhərsalma naziri Murat Kurum, Tapu və Kadastro genel müdiri Ahmet Zeki Adlı ilə keçirilib.

ƏMDK sədri qeyd edib ki, təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan və hazırda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən uğurlu siyasət nəticəsində Azərbaycan dünyanın dinamik inkişaf edən ölkələrindən birinə çevrilib. Qeyd olunub ki, Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən də son dövrlər yeni layihələr həyata keçirilir, beynəlxalq əməkdaşlıq əlaqələrində, daşınmaz əmlak idarəçiliyi sahəsində yüksək nailiyyətlər əldə edilir. Komitənin fəaliyyət istiqamətlərindən olan daşınmaz əmlakın qeydiyyatı sahəsində genişmiqyaslı islahatlar




aparıldığını deyən sədr bildirib ki, müasir informasiya-kommunikasiya texnologiyalarının imkanlarından istifadə etməklə daşınmaz əmlakın qeydiyyatı prosesi elektronlaşdırılır, sadə, eyni zamanda şəffaf və səmərəli qeydiyyat sistemi formalaşdırılır, bu sahəni tənzimləyən qanunvericilik aktlarına bir sıra mühüm dəyişikliklər edilir.

Komitə sədri "Daşınmaz əmlakın dövlət reyestri haqqında" qanuna edilmiş dəyişiklik nəticəsində dövlət reyestrindən çıxarışların elektron şəkildə əldə edilməsindən danışıb, qanunvericiliyə 2018-ci ildə edilmiş dəyişikliyə əsasən çıxarışların 1 iş günü müddətində verilməsi imkanından bəhs edib. Görülən işlərin nəticəsidir ki, Dünya Bankının "Doing Business 2019" sorğu icmalının nəticələrinə görə, "Əmlakın qeydiyyatı" indikatoru üzrə Azərbaycan ümumi reytinq siyahısında 190 ölkə arasında 17-ci yerə layiq görülüb.

Türkiyənin Ətraf Mühit və Şəhərsalma naziri Murat Kurum isə bildirib ki, qarşılıqlı əməkdaşlıq görülən işlərin effektivliyini artıracaq, yeni layihələrin həyata keçirilməsinə imkan verəcək.

K.Həsənov Türkiyə Özəlləşdirmə Təşkilatının prezidenti Bekir Emre Haykırla da görüşüb. Görüşdə özəlləşmə sahəsində qarşılıqlı əməkdaşlıq nəticəsində həyata keçirilən işlər və reallaşdırılacaq tədbirlərdən danışılıb. Komitə sədri bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi altında aparılan iqtisadi islahatlar ölkə iqtisadiyyatına daxil olan xarici investisiyaların artmasına səbəb olub: "Müasir idarəetmə standartlarının, innovativ yanaşmaların tətbiq edildiyi özəlləşmə sahəsində də proses modernləşdirilir, elektron müstəviyə keçid genişləndirilir. Hazırkı mərhələdə özəlləşdirilən dövlət əmlakı müstəqil qiymətləndiricilər və məsləhətçilər cəlb olunmaqla bazar prinsipləri əsasında qiymətləndirilir, açıq hərraclar və investisiya müsabiqələri vasitəsilə özəlləşdirilməyə çıxarılır. Özəlləşdirmə sahəsində innovativ yenilik, xüsusi model olan elektron hərracın istifadəyə verilməsi investorların işini xeyli sadələşdirib. Özəlləşməyə çıxarılan əmlaklar haqqında bütün məlumatlar "Özəlləşdirmə portalı"nda yerləşdirilir".

Bekir Emre Haykır da iki qardaş ölkə arasında mövcud olan iqtisadi əlaqələrdən danışıb. Bildirib ki, Azərbaycanda özəlləşmə sahəsində həyata keçirilən yeniliklər türkiyəli iş adamlarının marağına səbəb olur: "Hazırda türkiyəli investorlar Azərbaycanda pambıqçılıq, yeyinti, ərzaq, kənd təsərrüfatı məhsulları sektorlarında geniş təmsil edilirlər".

**"Azərbaycan"**

# XV Avropa Gənclər Yay Olimpiya Festivalı

Baku 2019 EUROPEAN YOUTH OLYMPIC FESTIVAL





# Azərbaycan Festivalın lideridir: 4 qızıl, 4 gümüş, 2 bürünc










## Pəhləvanlarımızın zəfər yürüşü

Əvvəli 1-ci səh.

Sərbəst güləşdə A qrupunda rusiyalı Eldar Asakayevlə gücünü sınayan təmsilçimiz Murad Haqverdiyev (45 kq) ilk turda qələbə qazanıb. Ardınca belaruslu Mikita Berazuna, türkiyəli Bahri Soylerə aman verməyən həmyerlimiz yarımfinala adlayıb. Finala gedən yolda polşalı Fabian Niedziedzkini mübarizədən kənarlaşdıran Murad həlledici mərhələdə Gürcüstan idmançısı Nikolozi Santeladze ilə qarşılaşıb.

Nəhayət, həyəcanlı məqam gəlib çatdı. Murad xalça üstündədir. Tribunada "Azərbaycan, Azərbaycan" sədaları səngimək bilmirdi. Hamı güləşçimizdən qələbə gözləyirdi. Güləş başladı. Hər iki pəhləvan ilk hissədə fəal idi. Lakin rəqibindən daha güclü olan Murad 11:4 hesabı ilə qələbə qazanaraq "Bakı-2019"un qalibi adını qazandı.

Görüşdən sonra M.Haqverdiyev qeyd edib ki, XV Avropa Gənclər Yay Olimpiya Festivalında qızıl medal qazandığı üçün çox sevinclidir: "Rəqiblərim arasında ən çətini həlledici görüşdə qarşılaşdığım gürcüstanlı Nikolozi Santeladze idi. Ötən ay İtaliyada yeniyetmə güləşçilər arasında keçirilən Avropa çempionatında həmin idmançıya məğlub olaraq gümüş medal qazanmışdım. Bu dəfə isə doğma divarlar arasında rəqibimi məğlub edərək çempion oldum. Qarşıdan dünya çempionatı gəlir. Həmin mötəbər yarışda da özümü çempion görürəm".

Yunan-Roma güləşində isə ölkəmizin hesabına qızıl medalı Fərid Sadıqlı (45 kq) yazdırıb. Səkkizdəbir finalda İtaliya idmançısı Andrea Martinonu, dörddəbir finalda gürcü Davit Qvasalianı, yarımfinalda rusiyalı Maksim Qurovu məğlub edən pəhləvanımız həlledici mərhələdə türkiyəli Umut Çobanla güləşib. Rəqibini böyük üstünlüklə məğlub edən Fərid Avropa Gənclərinin XV Yay Olimpiya Festivalının qalibi olub. Sevincimizin həddi-hüdudu yoxdur. Halal olsun, Fərid!

Sonda media nümayəndələrinin suallarını cavablandıran Fərid Sadıqlı yarışlara çox ciddi hazırlaşdığını bildirib: "XV Avropa Gənclər Yay Olimpiya Festivalı vətənimdə keçirildiyi üçün daha məsuliyyətli və həyəcanlı idim. Çempion olduğum üçün sevincimin həddi-hüdudu yoxdur. Yarışda ən çətin görüşüm dörddəbir finalda gürcü Davit Qvasalia ilə oldu. Səhv edərək rəqibə bir neçə xal verdim. Lakin özümü toparlayıb yarışdan qalib ayrılmağı bacardım. Məqsəd bundan sonra dünya çempionatında uğurla çıxış edərək ölkəmizin adını uca tutmaqdır".

Sərbəst güləşçimiz Əbülfəz Nəsirov (55 kq) da "Bakı-2019"u medalla başa vurub. Təmsilçimiz finala gedən yolda britaniyalı Harvey Ridinqsi, gürcüstanlı Bejani Barsonidzeni, rusiyalı Maqomedemi Eltemirovu məğlubiyyətə uğradıb. Həlledici mərhələdə italiyalı Simone Vinçenzo Pirodduya uduzan pəhlavanımız gümüş medalla kifayətlənməli olub.

Yunan-Roma güləşində ölkə hesabına daha bir medalı Nihad Məmmədli (55 kq) yazdırıb. Olivye Şkripçaka (Polşa) ilə görüşdən tam üstünlüklə ayrılaraq adını 1/4 finala yazdıran təmsilçimiz bu mərhələdə gürcü Romeo Beridzeyə uduzub. Təsəlliverici görüşdə fransalı Driss Nifriyə qalib gələn güləşçimiz 3-cü yer uğrunda mübarizə aparmaq imkanı əldə edib. Bürünc medal uğrunda görüşdə türkiyəli Ateş Bekirə 9:0 hesabı ilə qalib gələn Nihad üçüncü yeri tutub.

Dünən ikinci yarış günündə daha 7 çəkidə (4 oğlan, 3 qız) qaliblər müəyyənləşib.

Yunan-Roma və sərbəst güləşin hərəsində iki, qadın güləşində üç çəkidə qaliblər bəlli olub. Sevindirici haldır ki, Azərbaycan milli komandası günü 6 medalla - 2 qızıl, 3 gümüş və 1 bürünc mükafatla yekunlaşdırıb.

Sərbəst güləşçilərin mübarizəsində 48 kq çəki dərəcəsində yarışan Mircavad Nəbiyev 1/8 finalda rusiyalı Maqomedamin Bekbulatovla qarşılaşıb. Gərgin keçən görüşün yekununda mərhələ adlayan tərəf Rusiya idmançısı olub. Rusiyalı güləşçi finala yüksəldiyindən təmsilçimiz təsəlliverici görüşə qatılıb. Şükrü Korpeni (Türkiyə) 10:0 hesabı ilə məğlub edən M. Nəbiyev bürünc medal üçün Tomas Fişerlə (İsveçrə) qarşılaşıb. Qələbə qazanan təmsilçimiz fəxri kürsünün üçüncü pilləsinə qalxıb.

60 kq çəki dərəcəsində yarışan Sabir Cəfərov 1/8 finalda macarıstanlı Marsel Deli ilə güləşib. Görüşü vaxtından əvvəl qalib başa vuran idmançımız dörddəbir finalda belaruslu Anatoli Xramika üzərində 12:1 hesabı ilə qələbə qazanaraq yarımfinala yüksəlib. Finala gedən yolda bolqarıstanlı İvan Stoyanovu da mübarizədən kənarlaşdıran pəhləvanımız həlledici mərhələdə rusiyalı Fyodor Baltuyevlə güləşib. Rəqibin üstünlüyü ilə keçən görüş həmyerlimizin 3:7 hesablı məğlubiyyəti ilə başa çatıb.

Yunan-Roma güləşində 48 kq çəkidə yarışan Qurban Qurbanov isə mübarizəyə səkkizdəbir final mərhələsindən qoşulub. Polşalı Kaçper Karaskieviçlə güləşdən qalib ayrılan idmançımız daha sonra türkiyəli Emin Çakırı mübarizədən kənarlaşdıraraq yarımfinala yüksəlib. Q. Qurbanov finala gedən yolda Maksim Stupakeviçdən (Belarus) üstün olub. Həlledici görüşdə güləşçimizin rəqibi gürcüstanlı Xviça Abuladze olub. Rəqibinə aman verməyən Qurban qalib gələrək ölkəmizin hesabına daha bir qızıl medal yazdırıb.

Qurban Qurbanov jurnalistlərə açıqlamasında qeyd edib ki, Avropa Gənclər Yay Olimpiya Festivalına ciddi hazırlaşıbmış: "Qələbə qazanacağıma inanırdım. Göygöl rayonunda təlim-məşq toplanışında iştirak etmişdim. Rəqiblərimin gücünü yaxşı təhlil edib, onların potensialına bələd olmuşdum. Məhz bunun sayəsində rəqiblərimə çətinlik çəkmədən qalib gəldim. Təkcə belaruslu idmançı Maksim Stupakeviç ilə görüş gərgin keçdi. Buna baxmayaraq, qalib gəldim. Doğma divarlar arasında mübarizə aparmaq çətindir. Çünki xalqın, tamaşaçıların inamını, ümidini doğrultmaq böyük məsuliyyət tələb edir. Bu inamı doğrultduğum üçün çox məmnunam".

60 kq çəkidə xalça üzərinə çıxan yunan-Roma güləşçimiz Həsrət Cəfərov 1/8 finalda litvalı Donatas Rindeikislə görüşdən qalib ayrılıb. 1/4 finalda Mikita Muraşkanı (Belarus) 13:5 hesabı ilə məğlub edən Həsrət yarımfinalda Andrea Settiyə (İtaliya) də qalib gələrək finala yüksəlib. Həlledici görüşdə rusiyalı Maqomed Qiqiyevlə qarşılaşmadan qalib ayrılan Həsrət "Bakı-2019"un qızıl medalına yiyələnib.

Qadın güləşçilərin yarışında 46 kq çəkidə təmsilçimiz Gültəkin Şirinova 1/8 finalda finlandiyalı Jutta Ala-Ranta ilə qarşılaşmadan qalib ayrılaraq dörddəbir finala yüksəlib. Yarımfinala gedən yolda həmyerlimiz Belarusu təmsil edən Tatyana Pertsavanı da 6:1 hesabı ilə məğlub edərək yarımfinala yüksəlib. G. Şirinova bu mərhələdə Fanni Viquronı (Fransa) da üstələyərək adını finala yazdırıb. Güləşçimiz həlledici qarşılaşmada Georgiana-Lavinia Antuka (Rumıniya) ilə münasibətinə aydınlıq gətirib. Lakin idmançımız uduzaraq festivalı gümüş medalla başa vurub.

49 kq çəkidə yarışan daha bir xanım güləşçimiz Lalə Mirzəyeva isə mübarizəyə 1/4 finaldan başlayıb. Moldovalı Mihaela Samoillə güləşən idmançımız uduzaraq mübarizəni erkən dayandırıb.

61 kq çəkidə güləşən Mərziyə Sadıqova 1/8 finalda ukraynalı Manola Skobelska ilə qarşılaşıb. Görüşü qalib başa vuran idmançımız ardıcıl olaraq Alina Kasabyeva (Rusiya) və Elmas Çeliki (Türkiyə) məğlub edərək, finala vəsiqə qazanıb. Finalda italiyalı Aurora Russo ilə qarşılaşan təmsilçimiz uduzaraq festivalı gümüş medalla başa vurub.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

| Ölkələr | qızıl | gümüş | bürünc |
|---|---|---|---|
| 1. AZƏRBAYCAN | 4 | 4 | 2 |
| 2. İtaliya | 3 | 0 | 1 |
| 3. Rusiya | 2 | 1 | 5 |
| 4. Türkiyə | 1 | 1 | 3 |
| 5. Rumıniya | 1 | 1 | 0 |

## Atletika yarışlarının birinci gününə yekun vuruldu






Dünən XV Avropa Gənclər Olimpiya Festivalının atletika yarışlarının birinci gününə yekun vurulub.

Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən və 36 ölkədən 641 idmançının qatıldığı yarışlarda Azərbaycan 18 idmançı ilə təmsil olunur.

Festivalın atletika yarışlarının birinci günündə yarışlar iki sessiyada keçirilib. Səhər sessiyasında atletlər 100 və 800 metr məsafəyə qaçış, uzunluğa tullanma və nüvəitələmə növlərində mübarizə aparıblar. Axşam sessiyasında isə 110 metr məsafəyə maneələrlə qaçış, 400 metr məsafəyə qaçış, 10 kilometr məsafəyə idman yerişi, uzunluğa və hündürlüyə tullanma idman növləri üzrə yarışlar təşkil olunub.

Axşam sessiyasında isə 110 metr məsafəyə maneələrlə qaçış, 400 metr məsafəyə qaçış, 10 kilometr məsafəyə idman yerişi, uzunluğa tullanma və çoxnövçülük idman növləri üzrə yarışlar təşkil olunub.

Atletika üzrə oğlanların mübarizəsində 10 kilometr məsafəyə idman yerişi yarışında mükafatçılar müəyyənləşib. İtaliyalı Qabriel Qamba 45 dəqiqə 15 saniyəlik nəticə ilə birinci olub. Gümüş medala İspaniya təmsilçisi Paul Makqrat (45 dəqiqə, 51 saniyə), bürünc medala isə türkiyəli Mustafa Tekdal (46 dəqiqə 6 saniyə) layiq görülüblər.

Oğlanlar arasında 110 metr məsafəyə maneələrlə qaçış yarışında finala Mark Pap (Macarıstan), Kristian Reboldi (İsveçrə), Moritz Mainka (Almaniya), Tomas Oberndorfer (Çexiya), Mario Revenqa (İspaniya), Samuele Maffezzoni (İtaliya), Oskar Lucki (Polşa) və Priel Rada (İsrail) vəsiqə qazanıblar.

Qızların 100 metr məsafəyə qaçış yarışında qrup mərhələlərində ən yaxşı nəticə göstərən 8 nəfər finala yüksəlib. Beləliklə, bu yarışın finalında Mariam Oulare (Belçika), Rasidat Adeleke (İrlandiya), Çeyenne Kuhn (Almaniya), Yohanna Kilmanen (Finlandiya), Zala İstenik (Sloveniya), Polyniki Emmanouilidou (Yunanıstan), Viktoriya Forster (Slovakiya) və Eva Kubickova (Çexiya) medallar uğrunda mübarizə aparacaqlar.

Qızlar arasında 400 metr məsafəyə qaçış yarışında 8 atlet finala vəsiqəni təmin edib. Liefde Skoemaker (Belçika), Lakeri Ertzqaard (Norveç), Karmen Aviles (İspaniya), Olesya Soldatova (Rusiya), Stela Konstantinidou (Yunanıstan), Darya Karpoviç (Belarus), Kornelia Leşieviz (Polşa) və Lea Ammann (İsveçrə) finalda qüvvələrini sınayacaqlar.

Uzunluğa tullanma növündə 13 atlet finalda medallar uğrunda mübarizə aparmaq hüququ əldə edib.

Qızların 100 metr məsafəyə qaçış, oğlanların 110 metr məsafəyə maneələrlə qaçış və uzunluğa tullanma üzrə yarışların final mərhələsi iyulun 23-də keçiriləcək. Qızların 400 metr məsafəyə qaçış yarışının finalı isə iyulun 24-də təşkil olunacaq. Atletika yarışlarına iyulun 27-də yekun vurulacaq.

## Emine Çakmak: "Qardaş Azərbaycanda qızıl medal qazandığım üçün çox xoşbəxtəm"



Qardaş Azərbaycana çempion olmaq üçün gəlmişdim. Mənim üçün doğma olan bu ölkədə qızıl medal qazanmağım qürurvericidir. Özümü çox xoşbəxt hiss edirəm. Hədəfim Olimpiya çempionu olmaqdır. Bunun üçün inamla çalışacağam.

AZƏRTAC xəbər verir ki, bu sözləri XV Avropa Gənclər Yay Olimpiya Festivalında yunan-Roma güləşi üzrə 49 kiloqram çəki dərəcəsində qızıl medal qazanan türkiyəli güləşçi Emine Çakmak deyib.

Azərbaycanda olmasından məmnunluğunu ifadə edən Emine Çakmak bu mötəbər idman yarışının təşkilatçılarına təşəkkürünü bildirib.

## Üzgüçülük yarışlarına start verilib



Dünən Bakı Su İdmanı Sarayında XV Avropa Gənclər Olimpiya Festivalının üzgüçülük yarışlarına start verilib. Yarışın birinci günündə atletlər 100 və 400 metr məsafəyə sərbəst, 200 metr məsafəyə batterflyay, 200 metr məsafəyə brass, 400 metr məsafəyə fərdi qaydada qarışıq üsulla, 100 və 200 metr məsafəyə arxasıüstə üzmə yarışlarında mübarizə aparıblar. Üzgüçülük yarışları iki sessiyada keçirilib. Səhər sessiyasında təsnifat mərhələsinin yarışları baş tutub, axşam sessiyasında isə finalçılar və medalların sahibləri müəyyənləşib.

Oğlanların sərbəst üsulla 400 metr məsafəyə mübarizəsində təmsilçimiz Rəşad Əliquliyev 4 dəqiqə 19,85 saniyə nəticə göstərib. O, 33 üzgüçü arasında 30-cu yeri tutaraq mübarizəni dayandırıb. Yarışda bütün rəqiblərini geridə qoyan xorvatiyalı Franko Qrqiç festivalın çempionu adını qazanıb. Almaniyalı Silas Bet gümüş, Yunanıstan atleti Aleksandros Kaçris isə bürünc medallara layiq görülüblər.

Oğlanların 100 metr məsafəyə brass üsulu ilə üzmə yarışlarında isə Əliyar Cahangirov 1 dəqiqə 01,64 saniyə nəticə göstərərək 32 idmançı arasında 30-cu yeri tutub. O da mübarizəni erkən dayandırıb.

Qızlar arasında sərbəst üsulla 100 metr məsafədə qüvvəsini sınayan Məryəm Şeyxəlizadəxangah 58,85 saniyə nəticə ilə 28-ci yeri tutub və medal uğrunda mübarizədən kənar qalıb.



## Festivalda voleybol həyəcanı

Dünən XV Avropa Gənclər Olimpiya Festivalında kişi və qadın voleybolçuların mübarizəsində ilk görüşlər başa çatıb. Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində keçirilən kişi voleybolçuların yarışında birinci görüşdə Belarus və Rusiya yığmaları üz-üzə gəliblər. Oyunda Rusiya voleybolçuları rəqiblərini hər üç setdə (25:20, 25:21, 25:20) məğlub edərək yarışa qələbə ilə başlayıblar.

Azərbaycan Voleybol Mərkəzində təşkil olunan qadınların mübarizəsində isə ilk oyunda Rumıniya və Bolqarıstan yığmaları qarşılaşıblar. Görüşdə Rumıniya voleybolçuları 3:1 (25:23, 25:18, 16:25, 25:12) hesabı ilə qalib gəliblər.

Dünən kişi və qadın voleybolçuların mübarizəsində ikinci görüşlər də yekunlaşıb. Kişi voleybolçuların yarışında ikinci oyunda İtaliya və Bolqarıstan milliləri qarşılaşıblar. Gərgin keçən matç 3:2 (25:23, 25:21, 19:25, 21:25, 15:11) hesabı ilə Bolqarıstan seçməsinin xeyrinə başa çatıb.

Qadınların mübarizəsində isə ikinci oyunda Belarus və Türkiyə yığmaları üz-üzə gəliblər. Görüşdə Belarus seçməsi hər üç setdə (30:28, 25:22, 26:24) Türkiyə komandasını məğlub edib.

Fövqəladə Hallar Nazirliyinin İdman-Sağlamlıq Mərkəzində keçirilən kişi voleybolçuların yarışında dördüncü oyunda Belçika və Çexiya komandaları üz-üzə gəliblər. Maraqlı idman mübarizəsi şəraitində keçən qarşılaşmada əzmkarlıq nümayiş etdirən Belçika millisi rəqibinə 3:1 (25:23, 19:25, 25:22, 25:16) hesabı ilə qalib gəlib.

Azərbaycan Voleybol Mərkəzində təşkil olunan qadınların mübarizəsində isə günün sonuncu qarşılaşması Almaniya və İtaliya yığmaları arasında oynanılıb. Matçda İtaliya təmsilçiləri 3:0 (25:20, 25:13, 25:20) hesablı qələbə qazanıblar.

Sabahı düşünərkən

# Süni intellekt: bəşəriyyətin ən mükəmməl uğuru, yoxsa gələcək qatili?

**Dünya şöhrətli yazıçı Den Broun son romanı olan "Başlanğıc"da süni intellektin yeni tanrı olacağını və kompüterlər vasitəsilə yeni bir dinin formalaşdırılacağını irəli sürüb. Bəs nədir bu süni intellekt?**

Əsası keçən əsrin ortalarında qoyulan süni intellekt son zamanların ən çox investisiya qoyulan və maraq doğuran sahələrindəndir.

Süni intellekt - insan məntiqini maşınlarda tətbiq etmək məqsədi daşıyan riyazi elm və texnologiyadır. Bu elm intellektual maşın yaratmağı, xüsusən yalnız insanlara məxsus olduğu düşünülən yaradıcı fəaliyyət göstərən intellektual proqram yaratmağı özünə məqsəd götürüb. Eyni zamanda insan intellektinin araşdırılması kimi də başa düşülür.

Bu sahə insanın ən dəyərli mülkiyyəti olan intellektin maşınlar tərəfindən dəqiq şəkildə simulyasiya olunması məqsədilə yaradılıb və inkişaf etdirilib. Süni intellekt yaradıldığı gündən bəri müxtəlif optimist və pessimist fikirlərlə qarşılaşsa da, bu gün texnologiyanın inkişafında mühüm yer tutur. Onun tətbiqində elm və mühəndislikdən geniş şəkildə istifadə olunur.



## Yaranma tarixi

İntellektə malik olan maşınlar və digər süni aparatlar barəsində yazılı fikirlərə hələ qədim yunan miflərində rast gəlinir. İntellektə malik avtomatlaşdırılmış maşınlar Heron, Əl Cəzirə, Volfqanq von Kempelen, Cabir ibn Həyyan, Parasels və digər ixtiraçılar tərəfindən qədim dövrlərdən bəri hazırlanmışdı. E.ə. IV əsrdə yaşamış Aristotel süni intellekt düşüncəsinin əsasını təşkil edən sillogizm nəticələr nəzəriyyəsinin əsasını qoymuşdu. 1275-ci ildə Roman Llull özünün "Ars Maqna" adlı məntiq aparatını ixtira etmişdi. İstifadəçi ora xristianlıq haqqında öz sualını daxil edir və aparat insanın köməyi olmadan dərhal avtomatik bu suala cavab tapırdı. Bu aparat müsəlmanları xristianlaşdırmaq məqsədilə yaradılmışdı.

Süni intellekt haqqında ilk fikirlər mexaniki materealizmin yaranması ilə, Dekartın "Metod haqqında mühakimələr" və Tomas Qobbsun "İnsan təbiəti" əsərlərində öz əksini tapıb. 1943-cü ildə U.Mak Kallok və U.Pitts öz məqalələrində süni neyron sistemi anlayışını təklif ediblər. D.Xebb 1949-cu ildə "Davranış orqanizasiyası" əsərində neyronların öyrənilməsinin əsaslarını göstərdi. Bu fikirləri bir neçə il sonra amerikan neyrofizioloq Frenk Rosenblatt inkişaf etdirdi. O, insan davranışlarını modelləşdirən mexanizm yaratmağı təklif etdi və onu "Perceptron" adlandırdı.

Süni intellekt ifadəsi ilk dəfə 1956-cı ildə Con Makkarti tərəfindən istifadə olunub. O, bu ifadəni işlədərkən süni intellekti "maşınları intellektual etmək elmi və mühəndisliyi" adlandırıb.

## Turinq testi

Kompüter elminin atası sayılan, riyaziyyatçı, kriptoqraf, informatika elminin yaradılmasında böyük rol oynayan ingilis alim Alan Turinq isə süni intellekt haqqında ilk fikirlərini 1950-ci ildə "Mind" jurnalında çap edilmiş "Hesablama maşınları və şüur" məqaləsində bildirib. O, həmin məqalədə insanla kompüter arasında gedən testdən bəhs edirdi. Belə ki, bu test bir insan, bir kompüter və bir münsiflə aparılır. Münsif nə kompüteri, nə də insanı görə bilir, sadəcə onlarla dialoq aparır, sual-cavab edir. Münsifin sualları və təcrübədə iştirak edən kompüter ilə insanın verdiyi cavablar bir ekranda yazılı olaraq görünür. Məqsəd münsifin verilən cavablar əsasında hansının insan, hansının kompüter olduğunu tapmasıdır. Turinq deyir ki, kompüter o zaman süni intellektə sahib ola bilər ki, o, münsifi çaşdırsın və münsif onunla insanın, yoxsa kompüterin danışdığını başa düşə bilməsin. Test zamanı münsif bu fərqi aydınlaşdıra bilmirsə, deməli, həmin kompüter mükəmməl süni intellektdir.

Turinqin bu ideyası hazırda "Turinq testi" adlandırılır və süni intellektin yaradılmasında gedən araşdırmalarda ondan hələ də istifadə edirlər. Test kompüterin və ya başqa bir sistemin insanlarla eyni zehni bacarığa sahib olub-olmadığını müəyyən etmək məqsədi daşıyır. Ümumi mənada bu test bir mütəxəssisin, maşının performansı ilə bir insanınkını ayırd edib etməyəcəyini ölçür. Əgər ayırd edə bilməzsə, deməli, maşın insanlar qədər zehni bacarığa sahibdir. Hələ ki, Turinq testini keçən kompüter, maşın olmayıb. Lakin belə düşünülür ki, ideal virtual söhbət proqramı Turinq testini keçə biləcək...

Turinqin bu yanaşması süni intellekt araşdırmalarının ən ibtidai forması idi. Aradan keçən illərdə bu sahədə daha ciddi kəşflər edildi və süni intellektin həyatımızda nüfuzunu hiss etməyə başladıq; SİRİ kimi proqramlar vasitəsilə kompüterlə ünsiyyət qurub ondan cavablar almaq artıq heyrətləndirici hadisə deyil və ya şahmat oyununda kompüterə uduzmaq da normal hal sayılır.

## Süni intellektin üç növü məlumdur

Bunlar:

- Məhdudlaşdırılmış süni intellekt. Bu tip intellekt sizi, məsələn, şahmatda uda bilər. Amma ona "torpağı yemək olarmı?" sualını versəniz, cavab ala bilməzsiniz.

- Ümumi süni intellekt. Bu növ insan intellektinə maksimum yaxındır. O, məlumatları təhlil edir, digər maşınlarla ünsiyyətə girir, özünü təlimdən keçirir.

- Süni super intellekt. Bu intellekt növü o qədər inkişaf edib ki, insan intellektindən fərqlənir. Başqa sözlə, bizim intellektimiz həmin super intellektin motivlərini anlamaq üçün yetərincə inkişaf etmiş deyil.

İnsan intellektindən daha güclü bir intellektin yaradılması isə bu elmin əsas məqsədlərindəndir.

Bu gün bəşəriyyət süni intellektin birinci tipinin əsas prinsiplərini uğurla mənimsəyib. Artıq birinci çərçivədən kənara çıxmağa can atan şirkətlər var. Bir çoxları hesab edir ki, məhz "Google" ümumi süni intellekti dünyaya ilk dəfə təqdim edəcək. Bəs alimlər ümumi süni intellekti nəzarət altında saxlaya biləcəklərmi? Ümumi intellektin super intellektə qədər böyüməsini görə biləcəklərmi?

***Süni intellektlər haqqında maraqlı faktlar da var:***

*- Süni intellektlərin istifadə olunduğu ağıllı sistemlərdə əksər hallarda qadın səslərindən istifadə olunur.*

*- 1997-ci ildə Deep Blue adlı kompüter məşhur şahmat çempionu Harri Kasparovu məğlub edib.*

*- Bir çox valideynlər robot ev heyvanlarına üstünlük verirlər. Jan-Lu Raulun fikrinə görə, 2025-ci ildə robot ev heyvanları canlı ev heyvanlarına ciddi rəqib olacaq.*

*- 2015-ci ildə yapon tədqiqatçıları bildiriblər ki, öz-özünü bərpa edən robot düzəldiblər. Belə ki, həmin robot iki ayağı belə olmayanda özünü bərpa edə bilir.*

## İnsan əməyini sıradan çıxaracaq

Süni intellektin nəyə aid edilməsi sualına konkret cavab yoxdur. Onun haqqında kitab yazan hər bir müəllif, demək olar ki, o elmin nailiyyətlərini nəzərə alaraq, hansısa fikri müəyyən edir. Müxtəlif çətin hesablamalarda və digər tapşırıqların həyata keçirilməsində süni intellektin rolu böyükdür. Süni intellekt çox yüksək səviyyədə ixtisaslaşmış sahədir, onun çoxlu sayda istiqamətləri var. Çox zaman bir sahəsi digəri ilə qarşılıqlı əlaqədə olmur. Bəzi sahələri isə o dərəcədə inkişaf edib ki, artıq ayrıca bir ixtisas kimi fəaliyyət göstərirlər.

Süni intellekt proqramlarını danışa və hərəkət edə bilən robot kimi hər gün qarşımızda görməsək də, gündəlik həyatımızda həmin texnologiyadan istifadə edirik. Bu elmdən aviasiya, təhsil, səhiyyə, maliyyə, ağır sənaye, neyrocərrahiyə və digər sahələrdə tətbiq olunur. Mütəxəssislər deyir ki, süni intellekt böyük vaxt tələb edən məsələlərin həllində effektivdir, yuxu və fasilə tələb etmədiyindən fasiləsiz işləyə bilir, xətaların başvermə ehtimalı yoxdur, eləcə də ondan kosmos və okeanın dərinliklərinin araşdırılmasında istifadə edilir. Lakin onun insan əməyinə olan tələbatı aşağı salması kimi mənfi tərəfi də mövcuddur. Proqnozlara görə, 2030-cu ilədək dünyada işləyən əhalinin üçdə biri, Yaponiyada isə təqribən yarısı yeni peşələr axtarmaq məcburiyyətində qalacaq.

Yeri gəlmişkən, artıq süni intellektdən istifadə edərək sürücüsüz idarə olunan avtomobillər yaradılır. Beş ölkədə süni intellekt elmi-tədqiqat mərkəzi fəaliyyət göstərən "Google" şirkətinin yaratdığı pilotsuz avtomobillər ABŞ yollarında sınaqlardan da keçirilib. Bu ağıllı avtomobillər xeyli məsafə qət edərək, bir dəfə də olsun yol hərəkəti qaydasını pozmayıb və qəzaya uğramayıb. "Google" şirkətinin təcrübəsini yalnız nəqliyyat şirkətləri deyil, yol hərəkəti qəzaları sahəsində ixtisaslaşan hüquqşünaslar da izləyirlər. Onların fikrincə, insan xətalarının sayı səngidikcə xəsarət alan insan və maşınların sayı, nəticədə də ölüm hadisələri və sığorta haqqı da azalacaq. Bu o deməkdir ki, yol hərəkət hadisələrində zərər çəkən insanların hüquqlarını qoruyan hüquqşünasların da işinə tədricən ehtiyac qalmayacaq. Yalnız hüquqşünaslar deyil, sürücülər, yükdaşıyanlar, çağrı mərkəzlərinin, qaynar xətlərin operatorları öz işini itirəcək. Bu və digər peşə sahiblərini süni intellekt əvəz edəcək.

## Bəşəriyyətin ən yaxşı, yoxsa ən pis nailiyyəti?

Amma bu sahənin mütəxəssislərini düşündürən bir məqam da var - süni intellektin bu qədər avtonomlaşdırıldığı, geniş səlahiyyətlərin verildiyi bir şəraitdə, onlar öz yaradıcılarına qarşı hər zaman sadiq və mehriban qalacaqlarmı?

"Süni intellektin nəhəng potensialını nəzərə alaraq düşünməliyik ki, həmin texnologiyalarda mövcud olan gizli əngəllərlə üzləşmədən bunun müsbət cəhətlərindən necə faydalana bilərik. Bizim süni intellekt sistemlərimiz yalnız bizim istədiyimizi etməlidir". Bu, Həyatın Gələcəyi İnstitutunun saytında dərc edilən açıq məktubda yazılıb. Alimlər bu məktub vasitəsilə öz həmkarlarına səslənərək, onları süni intellekt probleminə daha diqqətli yanaşmağa çağırırlar. Alimlərin qoyduqları əsas sual isə belədir: insanlar intellektlə təchiz olunmuş maşınlara nəzarət edə biləcəklərmi? Bu suala hələ heç kim cavab verə bilməyib... Süni intellektin gələcəyini anlamaqda əsas çətinlik məhz buradadır. Amerikalı alim Eliezer Yudkovski "Süni intellekt qlobal risklərdə müsbət və mənfi faktor kimi" kitabında süni intellektin "bəli, bu intellekt insan iradəsinin xaricindədir" dedirdən ikicə davranış ehtimalını şərh edir:

*- Süni intellekt yeni icadları patentləyir, elmi əsərlər dərc edir, birjada pul qazanır və siyasi bloklara başçılıq edir.*

*- Tarixi, elmi və texnoloji biliklərə əsaslanan süni intellekt sivilizasiyanın inkişafını əsrlər və minilliklər müddətinə əvvəlcədən bilə bilir.*

Məşhur nəzəriyyəçi fizik Stiven Hokinq hesab edir ki, Yudkovskinin bəhs etdiyi mükəmməl süni intellekt "insan irqinin sonunu gətirə bilər". Alim süni intellekt haqda "bəşəriyyətin ya ən yaxşı, ya da ən pis naliyyəti olacaq" deyib. O, fikrini belə bir nümunə ilə əsaslandırıb: "Deyək ki, elektrik stansiyası tikirsiniz və bu zaman qarışqa yuvasını təsadüfən dağıdırsınız. Heç kim qarışqaları vecinə almayacaq. Özünüzü qarışqa yerinə qoymayın".

Elon Mask və bu sahədə çalışan bir neçə böyük alim də eyni fikirdədir. Hər kəsi bir məsələ narahat edir: "Əgər süni intellekt bizi işdə əvəz edəcəksə, onda müəyyən vaxtdan sonra o, bizi evdə də əvəz etmək istəməzmi?".

Görəsən həqiqətən də süni intellektlə təmin edilmiş robotlar insanları tam əvəz edə biləcəkmi?

E.Yudkovskinin məqalələrini oxuyan "Skype" proqramının yaradıcılarından Yaan Tallinn isə belə bir nəticəyə gəlib ki, süni intellektin daha da inkişaf etməsi partlayışa və ya onun insan nəzarətindən çıxmasına səbəb ola bilər. Bu isə bütövlükdə bəşəriyyəti böyük təhlükə altında qoya bilər. Belə ki, ultraağıllı süni intellektlər, təkamül-inkişaf nərdivanında bəşər övladının yerini tutacaq və biz qəfəsdə olan meymuna necə baxırıqsa, onlar, yəni süni intellekt də bizə o gözlə baxacaq. Ya da daha betəri olacaq: bütün insanların axırına çıxacaqlar.

Bəs hansı məqamda biz süni intellekt üzərində nəzarəti itirə bilərik? Süni intellekt öz qarşısına nə vaxt müstəqil şəkildə məqsədlər qoya biləcək? Bu məqsədlərin arasında bəşəriyyətin məhv edilməsi olacaqmı? Suallar çox, dəqiq cavablar isə yoxdur...

**Den Broun "Başlanğıc" əsərində baş qəhrəman professor Lanqdonun dili ilə süni intellekt robotu Vinstona mənalı sual verir - "Sənin ümidlərin və xəyalların varmı?"**
**Bəli, insan yalnız intellektual zəkadan ibarət canlı deyil. Onun ümidləri, xəyalları, arzuları, duyğuları, ən əsası ruhu var. İnsanı maşından, robotdan fərqləndirən də elə budur. Duyğulara və ruha sahib insan isə ruhsuz və duyğusuz hər cür robot və maşından həmişə bir addım öndə olacaq.**

*Xəyalə MURADLI,*
*"Azərbaycan"*



# Sağlıq olsun

# Yayın həm səfası, həm cəfası

Həkim məsləhəti



**Yayı kondisionersiz təsəvvür etmək mümkün deyil. Demək olar ki, bütün evlərdə, iş yerlərində, avtomobillərdə müasir dünyanın vazkeçilməzi olan bu cihazdan istifadə edilir. Ancaq kondisionerdən düzgün istifadə edilmədikdə, o, ciddi fəsadlara səbəb ola bilər.**

Belə ki, kondisioner yuxarı tənəffüs yollarında, ağciyərlərdə bir sıra ağır fəsadlara, hətta sətəlcəmə yol aça, eyni zamanda təmizlənməyən, nasaz işləyən kondisionerlər allergik soyuqdəymə, astma kimi xəstəliklər də yarada bilər.

Kondisionerdən istifadə edərkən onu gündüz 24, gecələr isə 26 dərəcədə qoymaqla xəstəlik riskini azaltmaq olar. Bundan başqa, kondisionerin zərərli təsirlərini minimuma endirmək üçün onu işlədərkən arabir pəncərəni açaraq otağın havasını dəyişmək lazımdır. Avtomobildə də kondisionerdən düzgün istifadə edilməlidir, əks halda tənəffüs yolları xəstəliklərindən bronxit, sinusit və sətəlcəm, həmçinin göz və beyin iltihabı, badamcıq iltihabı, bəzi əzələ xəstəliklərinə yol aça bilər. Buna görə avtomobildə kondisionerdən istifadə zamanı üz və sinə bölgəsinə sərin havanın birbaşa gəlməsinin qarşısı alınmalı, kondisioner ön şüşəyə doğru yönləndirilməlidir.

## Allergiyası olanlar kondisionerdən uzaq durmalıdırlar

Bu cihazın zərəri ilə bağlı həkim, pediatr Vaqif Qarayev bildirir ki, kondisioner işləyən otaqda havada ventilyasiya olmur: "Kondisionerin filtrləri həmin otaqda olan tozu, mikrobu özünə yığır. Amma ventilyasiya olmadığından müəyyən müddətdən sonra həmin xəstəlik törədiciləri yenidən havaya qarışır. Bu baxımdan bir çox kondisionerlər sərinlətməklə yanaşı xəstəliyə də səbəb olur. Ona görə hər bir kondisioner modelinin filtrinə qulluq qaydasına əməl edilməlidir. Bəzən illərlə bu filtrlər təmizlənmir. Açıb baxdıqda orada barmaq qalınlığında tozun yığıldığını görərik. Ona görə də kondisioner yalnız soyuqdəymə deyil, eyni zamanda allergik xəstəliklər də yaradır. Allergik problemi olan insanlar kondisionerdən uzaq durmalıdırlar".

## Kondisioner işləyən otaqda oksigenlə yanaşı karbon qazı da yaranır

Həkim qeyd edir ki, saatlarla kondisioner işlətmək də düzgün deyil. Onu söndürdükdən sonra mütləq qapı, pəncərəni açıb otaqda ventilyasiya yaratmaq lazımdır. Çünki kondisioner işləyən otaqda oksigenlə yanaşı karbon qazı da yaranır ki, bu da insan orqanizmi üçün ziyanlıdır. Həmçinin kondisioner otaqdakı havanı qurudur: "Onu elə tənzimləmək lazımdır ki, hava daha çox tavana istiqamətlənsin. Çünki birbaşa kondisionerdən gələn soyuq havanın altında oturduqda, uzandıqda mütləq əzələ-oynaq ağrıları yaradır, allergik problemləri, yaşlı insanlarda isə xroniki xəstəlikləri kəskinləşdirir. Bu problemləri olmayanlar da soyuq hava şırnağının altında saatlarla otursa, mütləq boyun və kürək nahiyəsində ağrılar hiss edir. Kondisionerin altında yatmaq isə yolverilməzdir. Çünki yuxu zamanı orqanizmin fəaliyyəti zəifləyir, müqaviməti aşağı düşür. Kondisioner işləyən otaqda sintetik olmayan təbii parçalardan, xüsusən də boyun və kürək nahiyəsini qapayan paltar geyinmək lazımdır. Bu mütləqdir. Belə olanda soyuq hava ilə dəri arasında yaranan boşluq soyuğun birbaşa təsirinin qarşısını alır".

## Körpə olan otaqda kondisioner işlətmək olmaz

V.Qarayev bildirir ki, bir yaşadək uşaqlar olan otaqda kondisioner işlətmək qətiyyən olmaz: "Böyüklərin orqanizmi yuxarıda sadaladıqlarıma nisbətən dözür, amma uşaq orqanizmi dözə bilmir. Yay aylarında təmiz havanın uşaq orqanizmi üçün böyük əhəmiyyəti var. Onu uzun müddət qapalı məkanlarda, kondisioner altında saxlamaq düzgün deyil. Uşaq, eyni zamanda böyüklər də bayırdan gəlib birbaşa kondisionerin soyutduğu məkana girəndə orqanizm temperatur fərqinə mənfi reaksiya verir. Əgər bayırdan gəlmisinizsə, kondisioneri bir müddətlik söndürmək lazımdır. Bədən kondisionersiz rejimə öyrəşəndən sonra otağı soyutmaq olar. Burada da temperatur rejimini düzgün tənzimləmək lazımdır. Hazırda bir çox insan əzələ, boyun, baş ağrılarından, burun tutulmasından şikayət edir. Bu hallar kimdə varsa, demək ki, o, kondisionerdən düzgün istifadə etmir".

## Kondisionerə də qulluq lazımdır

Kondisionerdə havada olan toz, tükcüklər və s. ziyanlı hissəcikləri tutmaq üçün xüsusi filtrlər var. Bu filtrlər həm kondisioneri, həm də nəfəs yollarımızı ziyanlı maddələrdən qoruyur. Lakin filtrlər çox çirkləndikdə artıq onlar özləri təhlükə mənbəyinə çevrilir. Filtrlərə yapışmış ziyanlı maddələr yenidən havaya buraxılır, oradan isə ağ ciyərlərə düşür. Çirklənmiş filtrlər və kondisionerin içində olan nəm mühit müxtəlif ziyanlı mikrobların sürətlə çoxalması üçün əlverişli şərait yaradır.

Kondisionerin filtrləri çirkləndikcə mütləq təmizləmək lazımdır. Bunu etmək isə çox asandır. Kondisionerin qapağını açın, filtrləri ehtiyatla çıxardın, tozsoranlayın və ya yumşaq şotka ilə təmizləyin, sonra soyuq sabunlu suda ehtiyatla yuyub axar suyun altında yaxşı yaxalayın. Filtrlər açıq havada qurumalıdır. Tam quruyandan sonra filtri yerinə taxın.

Filtrlərdən əlavə kondisionerin özü də ildə 2 dəfə mütləq təmizlənməlidir. Bunun üçün də mütəxəssislərə müraciət etmək lazımdır.

Yuxarıda sadalanan bütün bu nüanslara diqqət etməklə həm sağlamlığınızı qoruya, həm də kondisionerin ömrünü uzada bilərsiniz.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

### Bilirik?

- İnsan həyatının sonuna qədər təxminən 150 trilyon bit informasiya yadında saxlayır;
- İnsanın bədənində 700 ferment (orqanizmdə baş verən proseslər üçün katalizator rolunu oynayan, canlı hüceyrədə yaranan çətin orqanik maddələr) işləyir;
- İnsan beli üstündə yatan yeganə canlıdır;
- Uşaq 4 yaşında gündə orta hesabla 450 sual verir;
- Bakteriyaların yalnız 1 faizi insanda nasazlıq hissi yaradır;
- Dünyada cəmi 7 faiz solaxay var;
- İnsan bütün canlı aləmdə düz xətt çəkə bilən yeganə varlıqdır;
- Diş emalı insan orqanizmi tərəfindən istehsal olunan ən möhkəm toxumadır;
- Uşaqlar ən tez yazda böyüyürlər.

Doğru yaşam

# İş saatlarını oturaq vəziyyətdə keçirənlərin diqqətinə

**İş saatlarını bütünlüklə oturaq vəziyyətdə keçirən insanlar hərəkətli insanlara nisbətən orta hesabla 10 il tez qocalırlar.**

Bununla bağlı tədqiqatçılar onu da sübut ediblər ki, davamlı oturaq həyat tərzi artıq çəkiyə və maddələr mübadiləsinin pozulmasına gətirib çıxarır. Hərəkətsiz həyat tərzi orqanizmin müxtəlif sistemlərində pozulmalara səbəb olur. Bəzi orqanlar isə xəstəliklərə daha çox meyillənir.

Mütəmadi oturaq vəziyyət onurğa arteriyalarında durğunluğa və beynin qan təchizatının pozulmasına gətirib çıxarır. Nəticədə baş ağrıları yaranır, yaddaş pozulur, yorğunluq və təzyiq artır, habelə ürək ağrıları və ürək ritminin pozulması artır.

Belə problemlərdən uzaq olmaq üçün oturduğunuz vəziyyəti tez-tez dəyişin. Əgər gərginlik hiss edirsinizsə, stulda hərəkət edin, dartının, qollarınızı tərpədin, yəni qan dövranını fəallaşdırın.

Kompüterlər və kondisioner olan otaqda "ofis" sindromu yarana bilər. Onun ilk əlamətləri gözlərin qızarması, quruması, gözdə qum hiss etmək əlamətləridir. Bu sindromun qarşısını almaq üçün hər 45 dəqiqədən bir gözlərinizə 10 dəqiqə fasilə verin. Bu zaman pəncərədən səmaya, uzaqlara baxmağa, göz idmanı etməyə çalışın.



Oturaq həyat nəticəsində damarların varikoz genişlənməsinə tutulmaq olar. Varikoz genişlənməyə ayağı ayaq üstünə aşırmış vəziyyətdə oturmaq şərait yaradır. Nəticədə varikoz şiddətlənərək tromboza çevrilir, bədənin müxtəlif orqanları - ürək, ağ ciyər və beyin sıradan çıxır, son nəticədə insult, yaxud qəfil ölüm baş verir. Odur ki, işinizə tez-tez fasilə verib gəzməyə çalışın.

Beyin məşqi

# Yaddaş, diqqət, təfəkkür zəifliyinin qarşısını belə alın



**Bir neçə il əvvəl amerikalı neyrobioloq Lorens Kats və yazıçı Menninq Rubin beyni məşq etdirmək üçün effektli metodika hazırlayıblar. "Neyrobika" adlanan metodikanın əsas prinsipi - "gündəlik işlərdə yenilik"dir.**

İnsan hər gün eyni işləri görür və bu da beyinin fəaliyyətinə mənfi təsir edir - yaddaş, diqqət, təfəkkür zəifləyir. Bunun qarşısını almaq üçün beyinə daim məşq, yenilik lazımdır.

"Neyrobika"nın müəllifləri beyni məşq etdirmək üçün bu kimi tövsiyələr verirlər:

- İşə gedəndə yeni marşrutlardan istifadə edin.
- İş yerinizdə tez-tez yeniliklər edin (əşyaların yerini dəyişin, köhnə əşyaları yeniləri ilə əvəz edin).
- Dişlərinizi sağ əlinizlə yox, sol əlinizlə yuyun, düymələri sol əlinizlə bağlayın, kompüterdə işlədikdə mətni sol əlinizlə yığın və s.
- Yarasa məşqi. Evdə gözüyumulu gəzin və bəzi işləri gözüyumulu görün.
- Saç düzümünüzü, makiyajınızı, geyim stilinizi dəyişin.
- Evdə mebellərin yerini dəyişin, yeni yeməklər bişirin və s.

Belə məşqlər həmçinin sinir hüceyrələrinin bərpa proseslərini sürətləndirir.

Şəfalı bitkilər



# Sulu və dadlı meyvənin faydaları

**Yayın sulu və ləzzətli meyvəsi olan şaftalı vitamin, minerallar, orqanik turşular, efir yağları, qidalı liflər və digər faydalı maddələrlə zəngindir.**

Zəngin kimyəvi tərkibli bu dadlı meyvə insan sağlamlığı üçün olduqca faydalıdır.

Şaftalının tərkibində olan sərbəst radikallar günəş işığından orqanizmə dəyən zərərləri aradan qaldırır, bədənimizdə baş verən fərqli xəstəliklərə qarşı durur.

Tərkibindəki C vitamininə görə insan həyatı üçün vacib meyvələrdən sayılır. O, travma zamanı toxumalarda meydana çıxan zədələrin sürətlə sağalmasına yardım edir. Şaftalının tərkibindəki turşular infeksiyalara qarşı təsirini artırır.

A vitamini ilə zəngin şaftalı sümüklərin möhkəmlənməsinə yardım edir və sümük xəstəliklərinin artması riskini azaldır. Çoxlu şaftalı yemək yaşlanmanın qarşısını alır.

Şaftalı həmçinin arıqlamaq istəyənlər üçün mükəmməl qida vasitəsidir. Çünki kalori dəyəri aşağı olmaqla yanaşı, insanda toxluq hissi yaradır.

Meyvənin şirəsinin tərkibində də A, C, B3 vitaminləri, betakartoten, fol turşusu boldur. Saftalı şirəsi qanı təmizləmək qabiliyyətinə malikdir. O, damarlarda spazmların baş verməsinin qarşısını alır, qanın yaxşı işləməsinə yardım edir.

# Şahdağ Milli Parkında "Təbiətin keşiyində" adlı növbəti ekoskaut düşərgəsi təşkil edilib







IDEA İctimai Birliyi, Azərbaycan Skautlar Assosiasiyasının təşkilatçılığı və Azərbaycan Respublikasının Gənclər Fondunun dəstəyi ilə Şahdağ Milli Parkında "Təbiətin keşiyində" adlı növbəti ekoskaut düşərgəsi təşkil edilib.

Bu barədə AZƏRTAC-a İctimai Birlikdən bildirilib.

IDEA-nın ekoskaut proqramı çərçivəsində təşkil edilən düşərgələrin məqsədi gəncləri Azərbaycanın zəngin təbiəti, nəsli kəsilmək üzrə olan flora və fauna barədə məlumatlandırmaq, təbiəti qorumaq, onlara təbiətin bəxş etdiyi sərvətlərdən qənaətlə və düzgün istifadə etməyi, həmçinin gənclərə vəhşi təbiətdə düzgün davranışı, ətraf mühitə ziyan vermədən istirahəti təşviq etməkdir.

Düşərgəyə 18-25 yaş arası ekoloji təhsili və ya bu sahədə təcrübəsi olan, həmçinin ekoloji fəallığı ilə seçilən 100 nəfər gənc qoşulub.

Könüllü olaraq qoşulmuş gənclərin iştirakı ilə Şahdağ Milli Parkının ərazisində ekotur təşkil edilib. Gənclərə Şahdağ Milli Parkının yaradılmasında əsas məqsəd, əraziyə xas olan landşaft növləri, Azərbaycan Respublikasının Qırmızı Kitabına daxil edilən flora və fauna haqqında, həmçinin Fransa və Belçika zooparklarından Azərbaycana reintroduksiya edilmiş Qafqaz zubrları haqqında məlumat verilib.

Gənclər üçün üçgünlük düşərgə müddətində Azərbaycanın biomüxtəlifliyi və milli parkları mövzusunda təlim, o cümlədən təbiətdə olarkən çadırların qurulması, ilkin tibbi yardım, çölçülük üçün lazımi ləvazimatlar və təhlükəsiz geyimlər haqda seminar və praktik təlimlər, yarışlar və müsabiqələr keçirilib, həmçinin gənclər hayкinq, maraqlı ekoloji mövzularda fikir mübadilələri, ətraf mühitlə bağlı oyunlarda iştirak ediblər.

Düşərgə zamanı iştirakçıların zəngin təbiəti və mənzərəsi ilə seçilən Qaranohur gölünə hayking təşkil edilib.

Düşərgənin sonunda iştirakçılara xatirə hədiyyələri və sertifikatlar təqdim edilib.

Qeyd edək ki, IDEA İctimai Birliyinin "Ekoskaut" layihəsinə 2017-ci ilin mart ayında start verilib. Layihənin məqsədi gəncləri təbiətin mühafizəsinə cəlb etmək, canlı aləmi dərindən öyrənməyə və qorumağa, eləcə də cəmiyyətdə faydalı ekoloji işlərlə məşğul olmağa sövq etməkdən ibarətdir. "Ekoskaut" layihəsi çərçivəsində ilk düşərgə isə ötən ilin may ayında Şirvan, daha sonra Ağgöl və Göygöl Milli parklarında keçirilib.

Ekoloji maarifləndirmə, insan fəaliyyəti nəticəsində təbiətə vurulan ziyanın azaldılması və tədricən aradan qaldırılması, təbiətə münasibətdə etik davranışın formalaşdırılmasına töhfə verməsi baxımından "Təbiətin keşiyində" ekoskaut düşərgələrinin ölkəmizin digər milli parklarında da keçirilməsi planlaşdırılır.

# "AzerTelecom" "Microsoft" şirkətinin rəsmi tərəfdaşı oldu

Azərbaycanı beynəlxalq internet şəbəkəsinə bağlayan magistral (backbone) internet provayder şirkəti "AzerTelecom" informasiya və kommunikasiya texnologiyaları sahəsində fəaliyyət göstərən dünya üzrə tanınmış şirkətlərlə tərəfdaşlıq əlaqələrini genişləndirir.

Ölkənin telekommunikasiya sektorunda artıq 10 ildən çoxdur fəaliyyət göstərən və Azərbaycanın regional rəqəmsal mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital HUB" proqramını icra edən "AzerTelecom" şirkəti İKT sektorunun qlobal iştirakçılarından biri olan tanınmış "Microsoft" şirkətinin rəsmi tərəfdaşı olub.

"Microsoft" şirkəti ilə tərəfdaşlıq "AzerTelecom" tərəfindən korporativ sektorda müştərilərə ən müxtəlif İT xidmətlərin, məhsul və qabaqcıl həllərin təqdim edilməsinə şərait yaradır. Bu tərəfdaşlıq imkan verir ki, "AzerTelecom" öz müştərilərinə "Azure" (bulud üzərindən həllər), "Microsoft 365" (korporativ müştərilər üçün zəruri məhsullar toplusu), "Microsoft Windows" (Server və User) məhsulu, Vahid Ünsiyyət - Microsoft Teams (Unified Communication), "Office 365" (istifadəçilər üçün müxtəlif iş alətləri) və s. məhsul və həlləri təqdim etsin.

Qeyd edək ki, həmçinin "Microsoft" şirkətinin Server Node avadanlığı "AzerTelecom" şirkətinin Data Mərkəzində də yerləşdirilib. Müvafiq avadanlığın "AzerTelecom" şirkətinin Data Mərkəzində yerləşdirilməsi Microsoft korporasiyasının proqram təminatının yeniləmələrinin burada cəmlənərək müştərilərə çatdırılmasını təhlükəsiz, sürətli və fasiləsiz həyata keçirir. Bu zaman müştərilər proqram təminatını mütəmadi yeniləyərkən Avropada və ABŞ-da yerləşən serverlərdən deyil, məhz Azərbaycandakı xüsusi təhlükəsizlik tələblərinə cavab verən və "Microsoft"un Data Mərkəzləri ilə sinxronlaşdırılan serverlərdən daha sürətli əldə edə biləcəklər.

"AzerTelecom" şirkəti Azərbaycanın ilk mobil operatoru və ən sürətli mobil internet provayderi "Bakcell" şirkətinin törəmə müəssisəsidir və 2008-ci ildə təsis edilib. Şirkət telekommunikasiya sektorunda yerli və xarici şirkətlərə müxtləlif qabaqcıl xidmətlər təqdim edir. "AzerTelecom" hazırda Azərbaycanın sahib olduğu Enerji və Nəqliyyat Mərkəzi statuslarına əlavə olaraq ölkənin Regional Rəqəmsal Mərkəzə çevrilməsi üçün "Azerbaijan Digital Hub" proqramını icra edir. "Digital Hub" proqramının məqsədi ölkəni Qafqaz, MDB, Orta və Cənubi Asiya, Yaxın Şərq və ətraf regionlar üçün Rəqəmsal Mərkəzə çevirməkdir. Proqramın reallaşması ölkənin Milli İT və Milli İnnovasiya strategiyası üçün mühüm təməl yaradır və rəqəmsallaşmanın sürətlənməsinə, rəqəmsal iqtisadiyyata çevik transformasiyaya, start-apların, İT arxitekturasının inkişafına mühüm töhfə verəcəkdir. Proqram ümumilikdə ölkənin İKT sisteminin ən qabaqcıl dünya standartları səviyyəsinə çatdırılması, ölkənin beynəlxalq reytinqlərdə daha öncül sıralara çıxmasına şərait yaradacaqdır.

"Microsoft" (Nasdaq "MSFT" @microsoft) intellektual bulud və ağıllı texnologiyalar erasında rəqəmsal transformasiya üçün şərait yaradır. Onun missiyası daha böyük nailiyyətlər üçün hər bir insanın və hər bir təşkilatın imkanlarını genişləndirməkdir.

***"Azərbaycan"***


## AGENCY FOR AGRO CREDIT AND DEVELOPMENT UNDER THE MINISTRY OF AGRICULTURE/AGRICULTURAL COMPETITIVENESS IMPROVEMENT PROJECT ANNOUNCEMENT

The Government of Azerbaijan and the World Bank is implementing "Agricultural Competitiveness Improvement Project" (ACIP) in Azerbaijan. The overall objective of the "Agricultural Competitiveness Improvement Project" is to facilitate the access of agricultural producers to markets by strengthening sanitary and phyto-sanitary services, enhancing selected value chains and providing financial services to agribusiness enterprises. The Project would further promote agribusiness/food processing through providing the access to finance to improve their technologies and increase production and upgrade and modernize the plant protection service and veterinary services. The Project would also facilitate development of selected high-value chains through a series of activities and interventions targeted at key constraints in the functioning of marketing chains of agricultural commodities. Finally, the Project will support a focused food safety capacity building program for both public and private sector.

The project consists of four components:
(I) *Component A - Support for sanitary and phytosanitary services;*
(II) *Component B - Agribusiness value chain development;*
(III) *Component C - Financial services to agribusiness;*
(IV) *Component D - Project Management.*

Management responsibility for the Project will come under the Agency for Agro Credit and Development (AACD) within the Ministry of Agriculture. ACIP will be managed by the Project Management Unit (PMU) located in the AACD. The PMU functions will include among others, implementation of project activities, financial management, procurement, project monitoring and evaluation.

Agency for Agro Credit and Development /Agricultural Competitiveness Improvement Project is announcing a competition to the following vacant position under the Project. The attention of interested candidates is drawn to paragraph 1.9 of the World Bank's (**http://go.worldbank.org/U9IPSLUDC0**) *January 2011 edition revised July 2014* ("Consultant Guidelines"), setting forth the World Bank's policy on conflict of interest.

A Consultant will be selected in accordance with the Section V, Selection Individual Consultants set out in the Consultant Guidelines.

**Procurement Manager** The objective of the assignment is to ensure that goods and services under the Loan are procured in accordance with the provisions of the Loan Agreement, applicable World Bank Guidelines and Azerbaijan Public Procurement Law;

**Required qualifications:**
- Education in the field of procurement, economy, or finance;
- Minimum five (5) years practical experience in the field of procurement, preferably with the previous similar experience in the World Bank projects;
- Be able to work under pressure, be determined and hard-working and ability to work as team;
- Experience in procedures and regulations of the World Bank or other international organizations will be an advantage;
- Excellent interpersonal and communications skills;
- Demonstrated ability to work in a team;
- Fluent in Azerbaijani and English.
- Profound computer literacy (at least standard MS Office applications: Word, Excel, Outlook);

**Deadline: All the documents will be accepted up to 17:00, August 5, 2019**

**Required Documents: 1) Signed copy of CV prepared in English language;**
**2) Copy of diplomas, certificates etc.**
Please indicate the position you apply for in the subject line of the email.

**Contact person:** Further information can be obtained at the address below during working days' office hours 09:00-18:00
Anar Azimov - Project Director
Nargiz Iskenderova - Procurement Analyst
Tel: (012) 525 01 17/3015
E-mail: a.azimov@akia.gov.az,
anarazim@gmail.com;
n.isgandarova@akia.gov.az,
nargiz.acip@gmail.com

**The candidates meeting the above requirements can submit their documents to the following address or send them through e-mail:**
**Address: 25E, Nobel avenue, Baku White City Business Center, AZ1025, Baku, Azerbaijan**
**Project Management Unit**


# Beynəlxalq aləm

## Ukraynada növbədənkənar parlament seçkiləri keçirildi



Ukraynada keçirilmiş növbədənkənar parlament seçkilərində seçicilərin 48,37 faizi Prezident Vladimir Zelenskinin "Xalqın xidmətçisi" Partiyasına səs verib. Bu barədə Mərkəzi Seçki Komissiyasının sədri Tatyana Slipaçuk məlumat vermişdir.

Rusiyapərəst "Həyat uğrunda - müxalifətçi platforma" Partiyasını seçicilərin 12,80 faizi dəstəkləmişdir. "Avropa həmrəyliyi 8,70 faiz, sabiq baş nazir Yuliya Timoşenkonun "Batkivşina" Partiyası 8,05 faiz, müğənni Svyatoslav Vakarçukun "Səs" Partiyası 6,43 faiz səs qazanmışdır.

Seçkilərdə səsvermə hüququ olan vətəndaşların 49 faizi iştirak etmişdir.

Məlumata görə, V.Zelenskinin partiyası hazırda koalisiya üzrə tərəfdaş axtarır, lakin "Həyat uğrunda - müxalifətçi platforma" Partiyası ilə əməkdaşlıqdan imtina etmişdir.

## MAQATE-nin baş direktoru vəfat etdi



Beynəlxalq Atom Enerjisi Agentliyinin (MAQATE) baş direktoru Yukiya Amano 72 yaşında vəfat etmişdir. Bu barədə agentliyin katibliyindən məlumat verilir.

Bundan əvvəl onun xəstəliyə görə istefaya getdiyi bildirilmişdi.

Yukiya Amano 2009-cu ildə təşkilatın başçısı təyin olmazdan əvvəl MAQATE-nin Yaponiyadakı səfiri vəzifəsində çalışmışdır.

Beynəlxalq strukturun yeni rəhbəri növbəti seçkilərdə müəyyənləşəcək.

## ABŞ 2024-cü ildə astronavtlarını Aya göndərəcək



Amerikalı astronavtlar 2024-cü ildə Aya yollanacaq. Bu barədə ABŞ-ın vitse-prezidenti Mayk Pensə istinadən CBS telekanalı xəbər verir.

Pensin dediyinə görə, astronavtları Aya Orion raketi çatdıracaq. Orada yaradılacaq baza gələcəkdə insanın Marsa uçmasına imkan verəcək.

Bir müddət əvvəl Amerika lideri Donald Tramp təkcə Aya uçmaq deyil, həm də Amerika bayrağını Marsda sancmağı vəd etmişdi. Bu məqsədlər üçün büdcədən 1,6 milyard dollar ayrılacaq.

## Hindistanda 150 nəfəri sel apardı



Hindistanda leysan yağışların törətdiyi daşqınlar nəticəsində təxminən 150 nəfər həlak olmuşdur. Bu barədə "Rosbalt" agentliyi xəbər verir. "Sinxua" agentliyinin xəbərinə görə, 100 nəfərə yaxın adamı Bihar ştatında sel aparmışdır. Təxminən 50 nəfər Assam ştatında həlak olmuşdur.

Mizoram və Uttar-Pradeş ştatlarında da təbii fəlakət nəticəsində həlak olanlar var.

Hindistanda yağışlar mövsümü iyunda başlayır və sentyabradək davam edir. Bu müddətdə müntəzəm olaraq daşqınlar və sellər baş verir.

## İdlibdə 17 nəfər bombardmanın qurbanı oldu



Suriya rejimi və Rusiya aviasiyasının zərbələri nəticəsində İdlibdəki deeskalasiya zonasında yerləşən yaşayış məntəqələri bombardman edilmişdir. Nəticədə 17 nəfər, o cümlədən 3 uşaq həlak olmuşdur. Azı 10 dinc sakinin yaralandığı bildirilir.

Aviasiya zərbələrinə İdlib əyalətinin Xan-Şeyxun, Sərakib, Kəfrənbil, Məərşurin, Mərtamatər, Hiş, Urim Əl Cuz Uraynibə, Sutuh Əd Deyr, habelə Həma əyalətinin Kəfərzita, Morik, Təl Mələh, Cubbəyn, Havicə və Sırmaniyə rayonları məruz qalmışdır. Həlak olanların sayının artacağı gözlənilir.

Xatırladaq ki, bundan əvvəl regionun bombardmanı nəticəsində "Anadolu" agentliyinin ştatdankənar müxbiri və İdlibin Mülki Müdafiə İdarəsinin mətbuat xidmətinin əməkdaşı Enes Diyab həlak olmuşdur.

Hüquq müdafiəçilərinin məlumatına görə, son 3 ay ərzində deeskalasiya zonasında 606 dinc sakin, o cümlədən 111 qadın, 157 uşaq və yeniyetmə həlak olmuşdur.

## Pakistanda iki terror aktı törədildi



Pakistanın şimal-qərbində yerləşən Havar-Pahtunhva əyalətində iki hücum nəticəsində 9 nəfər həlak olmuş, 30 nəfər yaralanmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Dera İsmayıl Xan rayonunda motosikllərdə hərəkət edən terrorçular nəzarət-keçid məntəqəsində polislərə atəş açmışlar. Nəticədə iki polis əməkdaşı hadisə yerində həlak olmuş, bir neçəsi xəsarət almışdır.

Yaralı polislərin gətirildiyi xəstəxananın girişində intiharçı-terrorçu üstündəki partlayıcı qurğunu işə salmışdır. Bu dəfə dörd polis əməkdaşı və 3 dinc sakin həlak olmuşdur.

Bu hücumlara görə məsuliyyəti pakistanlı taliblər öz üzərlərinə götürmüşlər.


## BİLDİRİŞ

Azərbaycan Respublikasının Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən 04.06.2019-cu il tarixdə keçirilmiş "Palatanın rəsmi internet səhifəsinin yenidən hazırlanması" xidmətinin satın alınması üzrə kotirovka sorğusu üsulu ilə satınalmaya dair müsabiqədə "SF-Media" MMC 19.700,00 (on doqquz min yeddi yüz 00 qəpik) manat məbləği ilə qalib elan olunmuş və qalib gəlmiş iştirakçı ilə 19 iyul 2019-cu il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

Palata kotirovka sorğusunda iştirak etmiş digər iştirakçılara təşəkkür edir və fəaliyyətlərində uğurlar arzulayır.

***Tender komissiyası***

## BİLDİRİŞ

"Azərbaycan İnvestisiya Şirkəti" ASC tərəfindən Hacıqabul Sənaye Məhəlləsi üçün mühafizə xidmətinin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu proseduru başa çatmışdır. Tender komissiyasının 09.07.2019-cu il tarixli qərarına əsasən, "Alov Mühafizə" MMC-nin "Binəqədi" filialı kotirovka sorğusunun qalibi seçilmişdir.

Qalib şirkətlə 22.07.2019-cu il tarixli müqavilə bağlanmışdır.

***Tender komissiyası***

## BİLDİRİŞ

**"Azərişıq" ASC-nin** Tender komissiyası tərəfindən 14.06.2019-cu il tarixdə **"Yaşma, Yaşma Bağları və Şurabad Külək Elektrik stansiyalarında quraşdırılmış külək enerjili elektrik qurğularının daimi işlək vəziyyətdə saxlanması məqsədilə istifadə ediləcək alət və ehtiyat hissələrinin satın alınması"** məqsədilə elan edilmiş açıq tender üzrə müraciət edən iddiaçıların sayı üçdən az olduğu üçün Tender komissiyasının qərarı ilə tenderin davamından imtina olunur.

***Tender komissiyası***

# Milli Mətbuat Günündə “Azercell”dən 1875 dəqiqə hədiyyə!

1875-ci ilin 22 iyul tarixində Həsən bəy Zərdabinin yaratdığı “Əkinçi” qəzeti ilə əsası qoyulan milli mətbuatın artıq 144-cü ildönümüdür. Ölkədə və dünyada gedən prosesləri, gündəmdə olan məsələləri işıqlandıran, milli və ümumbəşəri dəyərlərin təbliğində müstəsna rol oynayan mətbuatımıza böyük önəm verən ölkənin lider mobil operatoru “Azercell Telekom” jurnalistləri bu əlamətdar gün münasibətilə özünəməxsus şəkildə təbrik edib. Beləliklə, “Mediacell” tarif paketinin bütün istifadəçiləri Milli Mətbuat Günündə şirkətdən hədiyyə olaraq 1875 şəbəkədaxili danışıq dəqiqəsi əldə edəcək. Hədiyyə dəqiqələrindən yararlanmaq üçün **22 iyul tarixi ərzində 1875 açar sözünü 5005** qısa nömrəsinə göndərmək kifayət edir. “Mediacell” tarifinin abunəçiləri hədiyyə qismində təqdim olunan danışıq dəqiqələrindən 30 gün ərzində faydalana biləcək.

Mətbuat nümayəndələri üçün “Mediacell” adlı xüsusi tarif paketi təklif edən ilk operator olan “Azercell”, ölkəmizdə jurnalistikanın inkişafına yardım edən layihələri hər zaman dəstəkləmiş, bu istiqamətdə bir çox təşəbbüslər həyata keçirmişdir. Şirkət xaricdən dəvət olunan təlimçilərin iştirakı ilə seminarlar və məlumat sessiyaları təşkil edərək, jurnalistlərin peşəkar inkişafına öz töhfəsini vermiş, onların beynəlxalq təcrübələrdən bəhrələnməsinə şərait yaratmışdır. Vurğulamaq istərdik ki, indiyədək 400-dən çox jurnalist “Azercell”in ingilis dili üzrə təşkil etdiyi kursların iştirakçısı olmuşdur.

“Azercell” Milli Mətbuat Günü münasibətilə bütün media nümayəndələrini təbrik edir və onlara fəaliyyətlərində uğurlar arzulayır!

***“Azərbaycan”***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti

### *açıq tenderə dəvət edir*

**LOT 1** - Qazanxana və camaşırxananın cari təmiri

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1: 300 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**VÖEN: 2600135481**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 9900003611**
**Bank: Kapital Bank ASC Lənkəran filialı**
**Kodu: 200383**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.07.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08.08.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **09.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti

### *açıq tenderə dəvət edir*

**LOT 1** - LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında digər tikililərin inşası işləri.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1: 350 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**VÖEN: 2600135481**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 9900003611**
**Bank: Kapital Bank ASC Lənkəran filialı**
**Kodu: 200383**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **30.07.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **08.08.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **09.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyi Lənkəran Dövlət Universiteti

### *açıq tenderə dəvət edir*

**LOT 1** - LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında elektrik xəttinin çəkilişi işləri.
**LOT 2** - LDU-nun Lənkəran şəhəri, H.Z.Tağıyev küçəsi, 118 ünvanında qaz xəttinin çəkilişi işləri.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsilə təqdim edə bilərlər.

**İştirak haqqı: LOT 1: 200 AZN və LOT 2: 200 AZN**

**Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:**
**VÖEN: 2600135481**
**Hesab: AZ97AIIB33080019443870045138**
**VÖEN: 9900003611**
**Bank: Kapital Bank ASC Lənkəran filialı**
**Kodu: 200383**
**M/H: AZ37NABZ01350100000000001944**
**SWIFT: AIIBAZ2X**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

**İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər. Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **05.08.2019-cu il saat 17:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **15.08.2019-cu il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. İddiaçıların təklifləri **16.08.2019-cu il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

<u>*Təkrar*</u>

## Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti

### *açıq tenderə dəvət edir*

Tender 1 LOT üzrə keçirilir:
**GPON layihəsinin tətbiqi ilə əlaqədar mal-materialların satın alınması.**

Tender iştirakçılarına təklif edilir ki, “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun olaraq, tender təkliflərini imzalanıb möhürlənmiş, ikiqat zərflərdə yazılı təqdim etsinlər. İddiaçılar öz tender təkliflərində bütün vergi və rüsumları nəzərə almalıdırlar.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər
**200 (iki yüz) manat (ƏDV xaric) iştirak haqqını**
sifarişçinin aşağıdakı hesablaşma hesabına köçürdükdən sonra “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında tenderin əsas şərtlər toplusunu ala bilərlər.

**VÖEN: 9900044741**
**Hesab: AZ14AZPO91015461200420100157**
**Bank: Azərpoçt MMC PF 1**
**Kodu: 691011**
**Bankın VÖENi: 9900037711**
**M/h: AZ76NABZ01350100000000094944**
**S.W.İ.F.T: AZPOAZ22**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

Tenderin əsas şərtlər toplusu Azərbaycan dilində tərtib edilmişdir.

Tenderdə iştirak etmək istəyənlər **25 iyul 2019-cu il saat 17:00-dək** aşağıdakı sənədləri “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər (tender təklifi və təklifin təminatı 1 faiz bank zəmanəti istisna olmaqla). Göstərilən vaxtdan gec təqdim edilən sənədlər qəbul edilməyəcək.

- *Tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *İddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları;*
- *Digər sənədlər.*

İddiaçılar tender təklifini və bank təminatını möhürlənmiş ikiqat zərfdə **05 avqust 2019-cu il saat 17:00-a** qədər “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru **06 avqust 2019-cu il saat 15:00-da** “Bakı Telefon Rabitəsi” MMC-nin Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 48 ünvanında yerləşən inzibati binasında keçiriləcəkdir.

Tenderlə əlaqədar daha ətraflı məlumat almaq üçün iştirakçılar əlaqələndirici şəxsə müraciət edə bilərlər.

Əlaqələndirici şəxs: **Məmmədov Faiq,**
**tel.: (+994 12) 498-39-29.**

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən “Azərbaycan” qəzetinin 09.04.2019-cu il tarixli sayında elan edilmiş Rabitə kabellərinin və birləşdiricilərin (fast konnektor) satın alınması prosedurunun qalibi “Demirer Kablo Tesisleri Sanayi ve Ticaret Anonim şirketi” müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və “Demirer Kablo Tesisleri Sanayi ve Ticaret Anonim şirketi” arasında 884 417,00 (səkkiz yüz səksən dörd min dörd yüz on yeddi ABŞ dolları) USD məbləğində 17 iyul 2019-cu il tarixli satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin rəhbərliyi nazir müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin kollektivi nazir müavini Vilayət Zahirova anası

**FƏRİDƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin rəhbərliyi və kollektivi Saatlı suvarma sistemləri idarəsinin rəisi Tahir Rzayevə qardaşı

**VAHİD RZAYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“AzerGold” QSC-nin rəhbərliyi və kollektivi cəmiyyətin əməkdaşı Seymur Eyyubzadəyə atası

**TEYMUR EYYUBZADƏNİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri,
Mətbuat prospekti,
529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 8903
Sifariş 2413
Qiyməti 40 qəpik